www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 22 sentyabr 2017-ci il Cümə № 195 (6809) Qiymәti 60 qәpik

**Xəbər**

## Məhərrəmlik başladı

yazısı səh.15-də

**Gündəm**

### "26-lar"ın tərəfdarları xortladılar



Bir qrup kommunistin Bakı komissarlarının qəbrini ziyarət etməsinə sərt reaksiya verildi; **Fazil Mustafa:** "Nuru Paşaya qiymət verilməyən yerdə "26-lar"ı da, Lenini də ziyarət edəcəklər"

yazısı səh.3-də

### Dini icma nümayəndələrini Brüsselə niyə yığırlar?

yazısı səh.5-də

### "Çudo Peçka"nın həbsdəki təsisçisi çətin durumda

yazısı səh.6-da

### Dollar payızda «cücərə» bilər - lakin şərtlər manatın xeyrinədir

yazısı səh.5-də

### MTN-çilərin məhkəməsində generala butulka atdılar

yazısı səh.10-da

### İşğalçı ölkəyə aprel xəbərdarlığı - Sərkisyana Nyu-York zərbəsi

yazısı səh.11-də

### Qarabağ veteranının anası oğluna əfv diləyir

yazısı səh.6-da

### Rusiya gəmilərinin Bakıya tez-tez gəlməsinin pərdəarxası

yazısı səh.7-də

### Kataloniya və Kürdüstanın "müstəqilliyi"- Qarabağın taleyi necə olacaq...

yazısı səh.9-da

### Əli Ömərovun "müxalifətçiliyi"nin daha bir səbəbi bəlli oldu

yazısı səh.13-də

### Tanınmış iqtisadçı ölkənin qeyr-neft sektoru ilə bağlı bədbin danışdı

yazısı səh.12-də

## General Zakir Həsənovun İsrail səfərində ilginc hədəf

# BAKI STRATEJİ KƏMƏRLƏRİNİ "DƏMİR GÜNBƏZ" ALTINA ALIR - MOSKVA VƏ İRƏVAN ŞOKDA

Ermənistanın və Rusiyanın Azərbaycana qarşı əsas şantaj aləti əldən çıxır; "Dəmir günbəz" "İsgəndər"ə, işğalçı ölkə isə Qərb maraqlarına qarşı Kremlin məkrli oyununda - neft-qaz müharibəsində sensasion gəlişmə...




yazısı səh.8-də

## Şəmsəddin Hacıyevin mandatı alına, özü isə həbs oluna bilər-rəsmi

Baş Prokurorluq İqtisad Universitetində aşkar olunmuş maxinasiyalarla bağlı cinayət işi açdı; YAP-çı deputatın harada olduğu bilinmir

yazısı səh.10-da



### Deputat Çingiz Qənizadə Hacı Qalibi məhkəməyə verir-qalmaqal

yazısı səh.4-də




### Avropa İttifaqı ilə sənəd bu il imzalanmayacaq -nazir müavini açıqladı

yazısı səh.4-də



### Şeyxin "vurulmasında" Rusiya izi iddiaları

yazısı səh.7-də



## Prezident general Elçin Quliyevi təltif etdi

**Prezident İlham Əliyev Elçin Quliyevin "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb. Sərəncamla Azərbaycan Respublikası dövlət sərhədinin mühafizəsinin təmin edilməsində xüsusi xidmətlərinə görə Elçin İsağa oğlu Quliyev "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib.**

Qeyd edək ki, E.Quliyev Dövlət Sərhəd Xidmətinin rəisi vəzifəsində çalışır. Bu gün onun 50 yaşı tamam olur.

## Mübariz Qurbanlı Şeyxə dəstək verdi

**"Şeyxülislam Azərbaycanda və Qafqazda İslam dinini təmsil edən ən yüksək statuslu din xadimidir". Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı son günlər Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadə haqqında mətbuatda yazılan informasiyalara münasibət bildirib.**

"Qafqazinfo"ya açıqlama verən komitə sədri qeyd edib ki, Şeyxülislam Allahşükür Paşazadə ilə bağlı bu cür yazıların yazılması ziyanlıdır. Onun sözlərinə görə, Şeyxülislamın İslam dünyası ilə, eləcə də dünyanın nüfuzlu dini mərkəzləri ilə əlaqələrin qurulmasında, beynəlxalq səviyyədə, xüsusilə MDB məkanında dinlərarası dialoq prosesinin həyata keçirilməsində, tolerant və multikultural dəyərlərin təbliğ edilməsində önəmli xidmətləri var. "Şeyxülislama qarşı bu cür qərəzli yazılar qəbuledilməzdir" deyə, o bildirib.

## Erməni deputatlar Bakıda

**Milli Məclisdə bu gün keçiriləcək "Avronest" Parlament Assambleyasının (PA) konfransında Ermənistan parlamentinin deputatları Armen Aşotyan və Mane Tandilyan da iştirak edəcək.**

Bu barədə APA-ya Milli Məclisin deputatı, Azərbaycanın "Avronest" PA-da nümayəndə heyətinin rəhbəri Fuad Muradov bildirib.

F. Muradov erməni deputatların Bakıya nə vaxt gələcəyi barədə məlumatsız olduğunu deyib.

Milli Məclisin mətbuat xidmətinin rəhbəri Akif Təvəkküloğlu da APA-ya bildirib ki, onda erməni deputatların Bakıya gəlib-gəlmədiyi barədə dəqiq məlumat yoxdur: "Məndə olan məlumat odur ki, erməni deputatların sabahkı tədbirdə iştirakı gözlənilir".

Qeyd edək ki, sentyabrın 22-də Bakıda "Avronest" PA çərçivəsində "3 və 5-ci Dayanıqlı İnkişaf Məqsədləri çərçivəsində Şərq Tərəfdaşlığı Ölkələrində qadınların sağlamlığı və gender bərabərliyinin təşviqində parlamentlərin rolu" mövzusunda konfrans keçiriləcək. Tədbir Azərbaycan Milli Məclisi, "Avronest" PA-nın Sosial Məsələlər, Təhsil, Mədəniyyət və Vətəndaş Cəmiyyəti üzrə Komitəsi, BMT-nin Bakı Ofisi və Əhali və İnkişaf üzrə Avropanın Parlament Forumunun birgə təşkilatçılığı ilə baş tutacaq.

Tədbirdə Avropa Parlamentinin və "Avronest" PA-nın üzv ölkələrinin deputatları, BMT-nin nümayəndələri, Əhali və İnkişaf üzrə Avropanın Parlament Forumunun Parlamentlərarası İttifaqın təmsilçiləri və beynəlxalq ekspertlər iştirak edəcəklər.

## Qanunsuz sərnişin daşıyan avtobus sürücülərinə qarşı reyd

**Sumqayıt Şəhər Polis İdarəsi (ŞPİ) Dövlət Yol Polisi Şöbəsi (DYPŞ) əməkdaşları tərəfindən yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi, həmçinin sərnişindaşıma qaydalarını kobud şəkildə pozaraq insanların həyatını təhlükə altında qoyan avtobus və mikroavtobus sürücülərinin müəyyən edilməsi məqsədi ilə reyd keçirib.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA -ya verilən məlumata görə, reyd zamanı Bakıdan Sumqayıta və əks istiqamətə qanunsuz sərnişindaşıma ilə məşğul olan avtobus sürücüləri saxlanılaraq xətdən kənarlaşdırılıb. Reyd nəticəsində sərnişin daşınması üçün nəzərdə tutulan standartlara cavab verməyən, müvafiq fərqlənmə nişanı olmayan 24 avtobus mühafizə olunan müvəqqəti duracağa yerləşdirilib.

Araşdırmalar zamanı məlum olub ki, həmin avtobusların əksəriyyətinin konstruksiyalarında dəyişikliklər edilərək salonlarına əlavə oturacaqlar quraşdırılıb.

Saxlanılan avtobus sürücülərinin sənədləri yoxlanılan zaman onların əksəriyyətinin həmin nəqliyyat vasitələrini idarə etmək üçün müvafiq kateqoriyası və sürücülük hüququnun olmadığı məlum olub. Həmçinin aparılan araşdırmalar zamanı sərmişin mikroavtobusu kimi fəaliyyət göstərən bir neçə nəqliyyat vasitəsinin əvvəllər yük maşını kimi istismar edildiyi də müəyyən edilib.

Bakı-Sumqayıt magistral yolundan mütəmadi olaraq istifadə edən sərnişinlərə, tələbələrə, o cümlədən valideynlərə bu cür qanunsuz sərnişindaşıma ilə məşğul olan sürücülərin idarə etdiyi texniki cəhətdən nasaz mikroavtobuslardan istifadə etməmələri tövsiyə olunur.

Sumqayıt ŞPİ DYPŞ əməkdaşları tərəfindən qanunsuz sərnişindaşıma ilə məşğul olan sürücülərə qarşı reydlər mütəmadi olaraq davam etdiriləcək.

# Lapşin Akif Çovdarovla türmə söhbətlərindən danışdı

**Azərbaycanda 3 il azadlıqdan məhrum olunan və sentyabrın ortalarında prezident İlham Əliyevin əfv etdiyi blogger Aleksandr Lapşin müsahibə verib. A.Lapşın "sizinlə həbsxanada necə davranırdılar" sualına belə cavab verib:**



"Həbsxana mühafizəçiləri mənimlə çox korrekt davranırdı. Adamı tək kamerada 7 ay saxlamaq isə ayrı məsələdir. Bu, qanunsuz və qəddardır. Qanunla bir adamı tək kamerada 21 gündən çox saxlamaq olmaz. Həbsxana rəhbərliyi izah edirdi ki, məni məmurlarla və generallarla bir kameraya salmaq olmaz, çünki çıxanda bundan yaza bilərəm. Quldurlarla isə məni bir kameraya salmaq, ümumiyyətlə, olmaz. Ancaq qarşı kamerada keçmiş MTN generalı Akif Çovdarov yatırdı. Gəzinti vaxtı bəzən onunla ünsiyyətdə olurduq. Aclıq elan edirdi. Özünü günahkar saymırdı".

A.Lapşin AzadlıqRadiosuna bildirib ki, hazırda sənəd toplayır və Avropa İnsan Haqları Məhkəməsinə müraciət edəcək.

Penitensiar Xidmətin mətbuat katibi Mehman Sadıqov Lapşinin iddialarını cəfəngiyyat adlandırıb. Deyib ki, həbsdə olduğu müddətdə Lapşini həyat yoldaşı, anası, vətəndaşı olduğu ölkənin səfirliklərinin nümayəndələri bir neçə dəfə ziyarət edib. Hətta onların istəyi ilə Lapşinin müayinəsinə kənardan həkimin gətirilməsinə də razılıq verilib. Və bu müddət ərzində onunla görüşən heç kəs bloggerin saxlanma şəraitindən, ona qarşı zoakılığın, işgəncənin olmasından bir kəlmə belə danışmayıb. Aleksandr Lapşin həm İsrail, həm Rusiya, həm də Ukrayna vətəndaşıdır. İttihama görə, o, Azərbaycanın işğal olunmuş ərazilərində separatçılarla əlaqə quraraq, 2011-ci ilin aprel və 2012-ci ilin oktyabr aylarında ora gedib. İyulun 20-də Bakı Ağır Cinayətlər Məhkəməsi Azərbaycanın ərazi bütövlüyü əleyhinə çağırışlarda, sərhədi qanunsuz keçərək Dağlıq Qarabağa getməkdə suçlu sayılan bloggeri 3 il azadlıqdan məhrum etmişdi. Sentyabrın 11-də Azərbaycan prezidenti onu əfv etdi.

❑ E.HÜSEYNOV



## Ərdoğanla Putin hansı məsələləri müzakirə edəcək?

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın rusiyalı həmkarı Vladimir Putinlə görüşündə müzakirə ediləcək əsas mövzular açıqlanıb. "Haber7" xəbər verir ki, bu barədə Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskovun açıqlamasında bildirilib.**

"İki ölkə liderinin görüşü ilə bağlı intensiv işlər görülür. Görüşün proqramı qətiləşdikdən sonra onu ictimaiyyətə açıqlayacağıq", - D.Peskov vurğulayıb.

Türkiyə və Rusiya prezidentlərinin müzakirə edəcəyi əsas mövzular bunlardır: Suriyada Rusiya, Türkiyə və İranın birgə qərarı ilə yaradılan münaqişəsiz bölgələrdəki vəziyyət, Türkiyənin Rusiyadan aldığı "S-400" raket kompleksinin tədarükü, İraqın şimalında keçiriləcək "referendum", ikitərəfli iqtisadi-ticarət əlaqələri.

Məlumatda bildirilib ki, qeyri-rəsmi mənbələr Rəcəb Tayyib Ərdoğanla Vladimir Putinin sentyabrın 28-də Ankarada görüşünün keçiriləcəyi haqda da məlumat yayıb.

## "Nar Home"dan "Aylıq yox, günlük ödə!" təklifi

**"Nar Home TV" xidməti öz abunəçiləri üçün unikal təklif irəli sürüb. İndi xidmətdən faydalanan bütün abunəçilər "Nar Home TV" xidmətindən istifadə etdikləri günlərin sayına görə ödəniş edə bilər, bununla da aylıq xərclərinə qənaət edə bilərlər. Bunun üçün hər bir abunəçi istədiyi TV paketini seçməli, TV-yə neçə gün baxacağını təyin etməli və gün sayına görə ödəniş etməlidir.**

**1 oktyabr 2017-ci il tarixindən etibarən həyata keçiriləcək dəyişikliklərə əsasən, günlük ödəmə imkanından minimum 2 AZN ödəniş etməklə yararlanmaq mümkündür. Yeni şərtlərə görə, minimum ödəniş edilən halda, TV paketindən asılı olaraq xidmətdən 4 günədək yararlanmaq olar. Yeni şərtlər tətbiq olunduqdan sonra günlük ödənişin dəyəri TV paketlərə uyğun olaraq hesablanır.**

**"Aylıq yox, günlük ödə!" təklifi müddətsiz olmaqla yanaşı, həm cari, həm də yeni abunəçilər üçün nəzərdə tutulub. Ətraflı məlumat əldə etmək üçün 179 qısa nömrəsinə zəng etmək və ya "Nar"-ın "Facebook" və "Instagram" səhifələrinə yazmaq kifayətdir.**

**B&BTV-nin texniki dəstəyi ilə təqdim edilən naqilsiz rəqəmsal "Nar Home" TV xidməti hazırda Bakı, Sumqayıt və Abşeron yarımadasında aktivdir.**

**"Azerfon" şirkəti 21 mart 2007-ci ildə "Nar Mobile" ticarət nişanı ilə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6000-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.**

## Şeyx Türkiyəyə gedir

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə sentyabrın 23-də Türkiyəyə yola düşür.

QMİ mətbuat xidmətindən APA-ya verilən məlumata görə, səfərdə məqsəd Qafqaz Müsəlmanları İdarəsinin Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Türkiyə Dəyanət İşləri Başqanlığı, İslam Əməkdaşlıq Təşkilatı İslam tarix, incəsənət və mədəniyyət tədqiqatları Mərkəzi (İRCİCA) və Türkiyə Marmara Universiteti ilə birlikdə bu ilin sentyabr ayının 25-də Türkiyə Cümhuriyyətinin İstanbul şəhərində keçirəcəyi «İslam həmrəyliyi Türkiyə-Azərbaycan dostluğu timsalında» mövzusunda Beynəlxalq Konfransda iştirak etməkdir.

Azərbaycan Prezidenti İlham Əliyevin elan etdiyi İslam Həmrəyliyi İli çərçivəsində Bakıda, Rusiyada, Finlandiyada, İranda keçirilmiş beynəlxalq tədbirlərin ardınca İstanbulda baş tutacaq «İslam həmrəyliyi Türkiyə-Azərbaycan dostluğu timsalında» mövzusunda Beynəlxalq Konfransda Azərbaycan Respublikasının Milli Məclisinin üzvləri, elm və din xadimlərindən ibarət nümayəndə heyəti iştirak edəcək. Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin Türkiyəyə səfəri çərçivəsində Türkiyə Diyanət İşləri Başqanı vəzifəsinə yeni seçilmiş d-r Əli Erbaş və digər nüfuzlu şəxslərlə görüşləri nəzərdə tutulub.

## Jurnalistin ürək damarına stend qoyulub

İnfarkt keçirərək Mərkəzi Klinik Xəstəxanaya yerləşdirilən tanınmış jurnalist Azər Hüseynbalanın ürək damarına stend qoyulub.

Mərkəzi Klinikadan APA-ya verilən məlumata görə, Azər Hüseynbala anjio olunub, ürək damarlarından birinə stend taxılıb.

Hazırda onun vəziyyəti normal qiymətləndirilir.

"Yeni Müsavat" A.Hüseyinbalaya tezliklə sağalmaq diləyir.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

**KXCP Ali Məclisinin üzvü Elşən Əlisoyun sosial şəbəkələrdə paylaşdığı fotolar hər kəsi heyrətə gətirib. Sən demə, Azərbaycanda "26 Bakı Komissarı" adlanan quldurların məzarını ziyarət edən xainlər də yaşayır. Fotolara baxanda insan dəhşətə gəlir.**

# "26-lar"ın tərəfdarları xortladılar

## Bir qrup kommunistin Bakı komissarlarının qəbrini ziyarət etməsinə deputat sərt reaksiya verdi; **Fazil Mustafa:** "Nuru Paşaya qiymət verilməyən yerdə "26-lar"ı da, Lenini də ziyarət edəcəklər"







**E.Əlisoy yazır:** "Şəkildə gördüyünüz bu "azərbaycanlılar" "26 Bakı Komissarı" adlandırılan quldurların qəbirlərini ziyarət edib, cümhuriyyətimizi quran ziyalılarımızı Daşnak-Müsavat tör-töküntüsü adlandırıblar.

Kommunist olduqlarını iddia edən bu rusbaşlar çıxışlarında və yaydıqları məlumatda Şaumyanın da təmsil olunduğu komissarları Azərbaycanın qəhrəmanları kimi təqdim etməkdən belə çəkinmirlər.

Dəyərli dostlar, 26 rəqəmi olan kafeyə basqını hər birimiz gördük, Hacıbala Abutalıbovun az qala 26-ların qalasını dağıdıbmış kimi sinəsini qabağa verib, həmin obyektin dağıdılmasına rəhbərlik etdiyi yadımızdadır. Deməli, dava yorğan davası olub...

Dostlar, Fəxri Xiyabanda hələ də bu xainlərin məzarlarının olması və həmin məzarlarda müsavatçıları xain adlandıran yazıların qorunub saxlanılması, Bakıda "26 Bakı Komissarları"nın adına küçənin olması və ən əsası da ən qatı cəlladların Suraxanı rayonundakı qəbirlərinin ziyarətgaha çevrilmə cəhdində bulunması millətimizin adına təhqirdir. Bu virusun yayılmasının qarşısı alınmalıdır. Hakimiyyət milləti düşünən insanları sıxışdırıb, xalq düşmənlərinə qanad verib şərait yaratmaqla Azərbaycanda təhlükəli balansın yaranmasına şərait yaratdığını anlamalıdır.

Siz hələ bunların yaydığı bəyanatda olan cümlələrə baxın: ttp://abdinov.blogspot.com/2017/09/kommunistlr-26-baki-komissarlarin.html?m=1

"Daşnak-Müsavat tör-töküntüləri anlayırdılar ki, öz çirkin məqsədlərinə nail omaq üçün əsas vasitələrdən biri də milli ədavəti qızışdırmaqdır. Onların bilavasitə təşkilatçılığı ilə 1918-ci ilin mart ayının 30-dan aprel ayının 2-nə qədər Bakı şəhərində, həmçinin Bakının quberniyalarında, bir tərəfdən Quba, Xaçmaz, digər tərəfdən, Şamaxı, Ağsu, Göyçay, Lənkəran, Qarabağ və Naxçıvan ərazilərində törədilmiş qətliamlarda "26-lar"ın heç bir suçu yoxdur, əksinə, onlar qardaş qırğınının qarşısını almağa çalışıblar".

Bu xəstə düşüncə sahiblərinin zəhərli təbliğatları elə yerindəcə boğulmalıdır, bu rus başlılar mütləq nəzarət altına alınmalıdırlar, bunlar evdə olan sandıqlarında Stalinin - Leninin büstünü saxlayan adamlardır və bir gün Rusiyadan gələn hər bir terror tapşırığını özlərindən qabakı satqınlar kimi canla-başla yerinə yetirəcəklər".

**Hər kəsin hiddətinə səbəb olan bu məsələ ilə bağlı musavat.com əlavə şərh verib:** "Birincisi, 1918-ci ildə güllələnən "26-lar"ın içində erməni millətindən olan və azərbaycanlılara qarşı soyqırıma rəhbərlik edən 7 erməni olub. Onların biri hökumətin rəhbəri, biri Bakının komendantı, biri cəza dəstələrinin komandiri olub. Sonradan açılmış arxivlər onların bu xalqa qarşı məqsədyönlü cinayət törətdiklərini göstərir. Təkcə Şaumyanın Leninə göndərdiyi teleqramı xatırlamaq kifayətdir. Şaumyan yazırdı ki, "azərbaycanlılar Bakını paytaxt etmək istəyirlər, buna yol vermək olmaz". Bu düşmənçilik deyilmi? Min ildən bəri Azərbaycan şəhəri olmuş Bakını nəyə görə paytaxt etməməli idik?

İkincisi, bu xainlər fürsət gözləyir, başqa dövlətə işləyir, başqa ideologiyaya qulluq edirlər. Bunlar özləri hakimiyyətdə olanda minlərlə adamı "başqa dövlətlərə casusluq etmək"də suçlayaraq güllələyiblər. Bunlar o adamlardır ki, əllərinə imkan düşsə, İŞİD başkəsənlərindən də pis olarlar.

Şəkillərdə az göründüklərinə baxmayın, əslində onlar çoxdurlar. Daha hiyləgərləri var ki, kamera önünə keçib özlərini ifşa etmirlər".

Bu xəbər yayılan kimi ölkə gündəmini zəbt etdi. Hər kəs bu ziyarətdə iştirak edənləri şərt şəkildə tənqid edir, qınayır, aidiyyəti qurumları bununla bağlı dərhal lazımı çağırır. Son günlərdə "26 Bakı Komissarı" ilə bağlı tez-tez bu tipli məsələlərin gündəmə çıxmasının təsadüf olmadığı vurğulanır. Xüsusilə Sabunçu rayonundakı "26 Bakı Komissarı" küçəsinin adı dəyişdirilib, "2 aprel" küçəsi adlandırılandan dərhal sonra bu ziyarətin gerçəkləşməsi əslində xainlərin mesajı kimi qəbul olunur, yəni "sizlər bu adı silmək istəyirsiniz, amma biz yaşadırıq" mesajı verilir..."

**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa "Yeni Müsavat"a açıqlamasında kifayət qədər maraq doğuracaq məsələlərə toxundu:** "Onların ziyarətini təbii qarşılamalıyıq. Azərbaycan hökuməti səviyyəsində qeyd olunub ki, Bakıda 30 mindən çox erməni yaşayır. "26-lar" bir erməni hərəkatı idi. Onların içərisində bir neçə nəfər azərbaycanlının yer alması bir talesizlik idi. Onlar sonrakı dönəmlərdə bu proseslərin ölkəmizin əleyhinə yönəldiyini etiraf ediblər. Bu şəxslər daha çox cəmiyyət içərisindəki reaksiyalara baxırlar. Görürlər ki, Bakını işğaldan azad edən Nuru Paşaya qiymət verilmir. Heykəli yoxdur, adına küçə, təqaüd yoxdur. Sanki sıradan bir şəxs kimi qiymət verilir. Halbuki Bakını işğaldan azad edib, erməniləri yerində otuzdurmasaydı, şəhərin paytaxt olması belə şübhəli idi. Ona qiymət vermədiyimiz təqdirdə nə olmalıdır? Nuru Paşaya qiymət verilmir, demək "26-lar"ı qaldırmaq lazımdır. Nə qədər ki, gerçək qəhrəmanlara qiymət vermirik, bizə sırınan qəhrəmanların təbliğinə təəccüblənməməliyik. Hər bir pisin yaxşı alternativi olmalıdır, alternativi də pis kimi qəbul edirsənsə, o zaman başqa bir şey ummağa gərək yoxdur. Cəmiyyətin də buradakı passivliyi əsas rol oynayır. Hansısa bir evdə Nuru Paşanın şəkli yoxdur, ona olan vəfa borcumuzu yerinə yetirmirik. Halbuki ondan başqa onun kimi bizim üçün ikinci bir qəhrəmanlıq edən şəxs yoxdur. Bu şəxsə qiymət verilməyən yerdə "26-lar"ı da, Lenini də ziyarət etməyə haqlıdırlar. Hətta Şaumyanın da qəbrini bura köçürməkdə haqlı olanlar meydana çıxa bilər. Görürlər ki, qəhrəmanlarımıza qiymət vermirik, tarixdən 5-10 bizə sırınan qəhrəmana küçə adı veririk, xatirələrini əbədiləşdiririk. Onların bu addımını normal qarşılayıram. Bu, bizi hərəkətə gətirmək, qıcıqlandırmaq üçün çox faydalı bir addımdır. Ən azı bizə xatırladır ki, siz də öz qəhrəmanınıza kişi kimi dəyər verin, insanlar bu torpaq uğrunda şəhid olmağa peşman olmasınlar. Açığı, sovet dövründəki qəbirlərin, abidələrin saxlanılmasının tərəfdarıyam. Çünki bunlar bizim üçün ibrətdir, tariximizdir. Müstəqilliyin qədrini bilmək üçün sovet dövrü bizim üçün çox böyük tarixdir. Bu baxımdan, onların abidələrinin saxlanılmasına normal yanaşıram".

**Deputat belə şəxslərin cəzalandırılması çağırışlarına da toxundu:** "Bu cəzanı tətbiq etmək indi real deyil. Əgər Fəxri Xiyabanda Azərbaycanı Rusiyaya satan Əli Bayramovun qəbri üstündə yazılırsa ki, Müsavat cəlladları tərəfindən qətlə yetirilib, bu ortamda nə olmalıdır? İnsanlar bir şeyin mahiyyətini anlamayıb, arxasınca gedirlərsə, bu problemdir. Azərbaycanlıya necə izah edək ki, sənin mövcudluğunun əsas səbəbkarı Nuru Paşa və Qafqaz İslam Ordusudur. Elə şeylər var ki, bu cəza ilə olmur. Sən qəhrəmanını qiymətləndirmirsənsə, düşmən buna nə etsin? Ermənilərin Andronikə verdiyi qiyməti sən Nuru Paşaya vermirsənsə, düşmənlər nə etməlidir? Bu məsələlərdə öz işimizə baxmalıyıq. Bu şəxsləri cəzalandırmağın qəti əleyhinəyəm. Qoy ziyarətlərini etsinlər. Adamlar bizə düşmən olan şəxsləri özlərində cəsarət tapıb, yad edirlər. Özümüzdən asılı olanı etməyincə, torpaqlarımız azad olunmayacaq. Biz özümüzə dəyər verməyən, qəhrəmanımıza qiymət verməyən cəmiyyət kimi tanınırıq. Hansı ölkədə qəhrəmanına verdiyin dəyəri desən, sənə ironiya ilə yanaşarlar".

❑ **Cavanşir ABBASLI**

# O dönüşü, Z gedişi



**Samir SARI**

**İlyas müəllim düz deyirdi ki, bu dünyada bir ölülər, bir də dəlilər öz fikirlərini dəyişmirlər. Bu sözü İlyas müəllimdən qabaq deyən də haqlıydı, ondan sonra deyənlər də haqlıdır.**

Gerçəkdən də elədir. Ölülərin öz fikirlərini dəyişmək imkanı yoxdur, dəlilər də düz bildikləri, əmin olduqları fikri niyə dəyişsinlər ki?

Yerdə qalan hamı fikir dəyişməyə meyllidir. Dünya dəyişir, onun üzərindəki hər şey dəyişir, insanların beyninin, düşüncəsinin dəyişməsi normaldır.

Bu xüsusda normal olmayan şey insanın öz fikrini tez-tez dəyişməsi ola bilər, onu da bağlayaq zamanın, dövranın tez-tez dəyişməsinə.

20-23 il əvvəl idi, Mollazadə (bu və digər soyadlar şərtidir) deyirdi ki, mitinq keçirməliyik, bu rejim getməlidir.

Onda Ömərov deyirdi, nə mitinq, hazırda mitinq eləmək cinayətdir, bunu edən ekstremist qüvvələrə qarşı cinayət işi açacağıq və hamısını həbs edəcəyik.

Surət deyirdi, günah mandə (bu sözdə Ə bir dənədir) oldu ki, sizi Azadlıq meydanında asdırmadım.

İnsanov deyirdi ki, bunların hamısı düşməndir, faşistdir və güllələnməlidir.

Abdullayev deyirdi ki, bu hökumətə qarşı çıxan qarşısında məni görəcək.

Həsənova deyirdi ki, demokratiyanı beşiyində boğmaq lazımdır.

Nağıyev deyirdi ki, bizə heç kəsə bata bilməz, partiyamız güclüdür, yeganədir.

Kərimov deyirdi ki, destruktiv müxalifətlə konstruktiv müxalifət fərqlidir, biz konstruktiv müxalifətik.

Novruzov deyirdi ki, YAP ölkənin ən güclü partiyasıdır və hakimiyyətdə daimi olacaq.

İbadov deyirdi ki, gəlmişdiniz də, gördük, 1 il hakimiyyətdə oldunuz, xalqa düşmənçilik elədiniz.

Quliyev deyirdi ki, ay bədbaxtlar, oturun yerinizdə, siz bilirsinizmi hansı titanik şəxsiyyətin qarşısına çıxırsınız?

Aradan bu qədər vaxt keçdi, körpünün altından çox sular axdı...

İndi Quliyev deyir, ay bədbaxtlar, görmürsünüz ki, ölkəni "Titanik" kimi batırırlar, nə oturmusunuz, bə tərpənin dəə.

İbadov arada nəsə deyir, amma çox uzaqlarda deyir, həm də pıçıltı ilə deyir, səsi gəlib ölkəyə çatmır.

Kərimli deyir ki, konstruktiv müxalifət deyilən bir şey yoxdur, özlərini konstruktiv adlandıranlar hakimiyyətin əlinə oynayırlar.

Novruzov deyir, YAP ölkənin ən güclü partiyasıdır və hakimiyyətdə əbədi qalacaq.

Nağıyev heç nə demir, eləcə qara-qara düşünür, amma hiss olunur ki, arada nəsə demək istəyir.

Həsənova beşiyində boğulmuş demokratiyaya görə bəlkə də üzgündür, amma deyə bilmir, bilir ki, qohum-qardaşını tutarlar.

Abdullayev deyir ki, bu hakimiyyətə qarşı çıxanlar yanlarında, böyürlərində, arxalarında məni görəcəklər.

İnsanov deyir ki, bunlar xalqın düşmənidirlər, ədalət məhkəməsində cavab verməlidirlər, cəzalanmalıdırlar.

Surət deyir ki, günah mandə oldu, gərək o vaxt AXC-Müsavat hökumətinin böyüklərini asdıraydım.

Ömərov deyir ki, "qanuni mitinqə tam şərait yaradılmalıdır..."

Mollazadə deyir ki, indi bizi daha qlobal məsələlərin həlli maraqlandırır.

Göründüyü kimi, demək olar ki, hamı bu və ya digər şəkildə fikrini dəyişib. Yalnız Surət və Novruzov öz fikirlərində qalırlar, biri fikirləşir ki, 93-ün iyununda Bakıya girəndə səhv edib, gərək devirdiyi hökumətin adamlarını güllələyəymiş.

Novruzov da düşünür ki, YAP əbədi olaraq hakimiyyətdə qalacaq. Onu da "ögey" elan edib qapı dalına qoysalar, bəlkə o da dəyişərdi, kim bilir?

İndi mütləq kimsə çıxıb deyəcək ki, siz də 20 il əvvəlki ilə müqayisədə bir çox fikrinizi dəyişmisiz. Elədir. Fikirlərdə dəyişikliklər, korrektələr, düzəlişlər var.

İlyas müəllim əbəs yerə demirdi ki, bir dəlilər, bir də ölülər fikirlərini dəyişmirlər.

Məqsəd dağın o üzünə aşmaqdırsa, gərək ya tunel qazıb dağı dələsən, ya Ağsu aşırımı kimi bir yol tapasan, ya da dağı aşmaqdan vaz keçəsən.

Əsas odur ki, fikrini dəyişən, türkün sözü, U dönüşü eləməsin. Elə də olur ki, adam Y qarşısında qalanda iki yoldan birini seçməli olur, ya bir az sağa götürməlidir, ya da sola. Pisi odur ki, bəziləri O dönüşü edirlər, elə hey eyni yerdə fırlanırlar.

Ömərovun fikir və yol dəyişməsi isə Z xarakterli oldu, ona görə bir az insanlara çöçün gəlir.

**P.S.** *Budur, Ömərov deyir ki, mitinqdə radikal çağırış edənlər cəzalandırılmalıdır.*

**P.P.S.** *Əgər onu bu gün Yasamal prokuroru qoysalar, 23-də mitinq edənlərə cinayət işini özü açır.*

YENİ MÜSAVAT
N 195 (6809) 22 sentyabr 2017



Çingiz Qənizadə

# Çingiz Qənizadə Hacı Qalibi məhkəməyə verir - qalmaqal

## "Qalib Salahzadə söylədiklərini sübut etməlidir"

**Milli Məclisin deputatı Çingiz Qənizadə keçmiş həmkarı, son günlər mətbuatda ona qarşı ağır ittihamlar səsləndirən Qalib Salahzadəni xüsusi ittiham qaydasında məhkəməyə verməyə hazırlaşır.**

*Məsələ ilə əlaqədar modern.az-ın əməkdaşı Çingiz Qənizadə ilə əlaqə saxlayıb. Onunla söhbəti təqdim edirik:*

***- Çingiz müəllim, Qalib Salahzadəni məhkəməyə verəcəyiniz barədə mətbuatda məlumat yayılıb. Biz bilmək istərdik ki, onu hansı maddələrlə məhkəməyə verirsiniz, vəkiliniz kimdir?***

- Məlumdur ki, bəzi mətbuat orqanlarında Qalib Salahzadə mənim haqqımda bir neçə istiqamətdə həqiqətə uyğun olmayan, böhtan xarakterli məlumatlar verib. Birincisi, mənim Bakı şəhər prokuroru işlədiyim vaxtda guya ondan 30 min manat və ya dollar almağımla bağlı məlumat açıqlayıb. Guya o, həmin pulu vaxt qoyaraq məndən geri alıb. Bu, həqiqətə uyğun olmayan bir məlumatdır.

İkincisi isə qeyd edir ki, Çingiz Qənizadənin el-obasından gedib maraqlansalar, məlum olar ki, onun necə utanverici keçmişi var. Bu, nə deməkdir? Mən çox istəyərdim ki, bu açıqlamalarına izahat versin. Ona görə də Cinayət Məcəlləsinin 147 və 148-ci maddələri ilə, yəni böhtan və təhqirə görə, həm də şərəf və ləyaqətin alçaldılması ilə bağlı fikirlərinə görə xüsusi ittiham qaydasında məhkəməyə verməyə hazırlaşıram. Bununla bağlı dünən Azərbaycan Respublikası Vəkillər Kollegiyasının 1 saylı Hüquq Məsləhətxanasında çalışan və kollegiyanın üzvü Raqif Mustafayevlə müqavilə bağlamışam. Materialları ona təqdim etmişəm.

Mənə suallar olunur ki, onun böhtan dolu fikirlərini dərc edən mətbu qurumları da məhkəməyə verəcəksiniz? Təbii ki, mən buna "yox" deyirəm. Mən bütün hallarda özümü mətbuatın dostu hesab edirəm. Baxmayaraq ki, 4-5 mətbuat orqanında onun bu fikirləri öz əksini tapdı. Amma mən o mətbuat orqanlarına qarşı hər hansı bir iddia ilə çıxış etməyəcəm. Qalib Salahzadə bayaq dediyim iki fikir barədə söylədiklərini sübut etməlidir. Bunu təsdiq edə bilməyəcəksə, xüsusi ittiham qaydasında onun həbs edilməsini tələb edəcəm.



Qalib Salahzadə

Bilirsiniz ki, Cinayət Məcəlləsinin 147 və 148-ci maddələrinə ötən il dəyişiklik edilib. Elektron informasiya resurslarında, KİV-də insanın şərəf və ləyaqətini alçaldan, ona böhtan atan məlumatların yayılmasına görə cəzalar sərtləşdirilib. Xüsusilə 147-ci maddədə yalan olduğunu bilə-bilə hər hansı şəxsin şərəf və ləyaqətini ləkələmək, nüfuzdan salmaq məqsədilə KİV-də və informasiya resurslarında yalan informasiyaların yayılması məhz bu maddənin tərkib hissəsini yaradır. Belə hesab edirəm ki, Qalib Salahzadə fikirlərinə ya aydınlıq gətirməli və dediklərini sübut etməlidir, ya da məsuliyyətə cəlb olunmalıdır. Həmin maddədə iki ilədək həbs cəzası nəzərdə tutulur. Həmçinin alternativ cəzalar var.

***- Ola bilərmi ki, məhkəmədə qalib gəldiyiniz təqdirdə dostlarınız, yaxınlarınız tərəfindən sizdən xahiş oluna və humanist addım ataraq onu bağışlayasınız?***

- Parlamentdə deputat həmkarlarım mənə bu addımı atmamağı tövsiyə etdilər. Həmçinin dünən şeyxin yeznəsi, tələbə yoldaşım Şərif Əsədullayev məndən bu addımı atmamağımı istədi. Onlar bildirdilər ki, hamı-hamını yaxşı tanıyır. Mən bütün dostlarıma da bildirmək istəyirəm ki, burada şərəf və ləyaqətdən söhbət gedir. Hər şeydən yüksək budur. Ona görə də bu məsələdə hər hansı xahiş mənim tərəfimdən qəbul edilməyəcək. Özüm üçün də maraqlıdır ki, Hacı Qalibdə olan informasiyalar cəmiyyətə açıqlansın. O da əgər varsa...

***- Maraqlıdır, bu prosesə qədər sizin aranızda hər hansı bir soyuqluq olmuşdumu?***

- Mən Bakı şəhər prokuroru işləyən zaman Hacı Qalib daxili işlər orqanları tərəfindən həbs edilmişdi. O, bilgəhli Ramizin ölümündə şübhəli bilinirdi. Bir neçə adam da həbs olunmuşdu. O dövrdə biz onu və digərlərini 5-6 ay həbsdə saxladıq. İstintaqın gedişində məlum oldu ki, cinayəti həbs edilənlərdən biri törədib. Onun təşkilatçılığı şübhə altındaydı. Digər şəxs də ədalətli cəzasını aldı.

Mən bu adamı hörmətli şeyximizin bir neçə dəfə məclislərində görmüşəm. İndiyə qədər də onunla bir stəkan çay belə içməmişəm, heç bir ünsiyyətim və dostluğum olmayıb. O, ötən çağırışda parlamentin üzvü olarkən mənimlə dəfələrlə görüşüb. Əgər dedikləri həqiqətiydisə, onda mənimlə niyə görüşürdü? Hesab edirəm ki, onun mənə bu cür yalan və böhtan atmasının arxasında bir neçə gün bundan öncə oğlunun həbsi ilə bağlı hüquq-mühafizə orqanlarına qarşı ədalətsiz, qərəzli açıqlamalarına yanaşmam olub. Mən bir ay bundan əvvəl də onunla bağlı açıqlama vermişdim. O demişdi ki, Həcc ziyarətinə 500 nəfər göndərib. Əvvəla, bildirdim ki, adam etdiyini deməz. Daha sonra dedim ki, əgər belə imkanın varsa, ali məktəblərə imtahan verib yüksək bal toplayan gənclərimiz var ki, maddi imkansızlıqdan təhsil haqqını ödəyə bilmir. Getsin onlara yardım etsin.

Onun bu cür açıqlamalarının mənasız olduğunu bildirmişdim. Hacı Qalib də buna görə dostum vasitəsilə mənə öz narazılığını bildirmişdi. Həmin narazılıqların fonunda mənim barəmdə ciddi bir fikir söyləməyə ümid edərək, bu cür böhtana yol verib.

Hesab edirəm ki, cəmiyyətdə tanınan adamam, yüzlərlə, minlərlə dostum, tanışım var, seçicilərim var. Bu adam dediklərini sübut etməlidir. Ya da qanun qarşısında məsuliyyət daşımalıdır. Mən ona ağzından çıxan sözün məsuliyyətini dərk etmək qabiliyyətini öyrədəcəm. Özü də qanunun aliliyi ilə hüquqi yolla.

# Avropa İttifaqı ilə sənəd bu il imzalanmayacaq - nazir müavini açıqladı

## Mahmud Məmmədquliyev: "Gec olsun, amma keyfiyyətli olsun"

**Avropa İttifaqının (Aİ) siyasət və təhlükəsizlik məsələləri üzrə nümayəndə heyəti Bakıya səfər edəcək. Bunu jurnalistlərə Aİ-nin Azərbaycandakı nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri Kestutis Yankauskas deyib. 30 nəfərdən ibarət olan, o cümlədən 28 ölkənin səfirinin daxil olduğu nümayəndə heyətinin Bakıya oktyabrın 3-də gələcəyi gözlənilir.**

K.Yankauskasın sözlərinə görə, səfər zamanı əsas diqqət Aİ ilə Azərbaycan arasında siyasət və təhlükəsizlik sahələrində əməkdaşlığa yönələcək. O qeyd edib ki, hazırda səfərin proqramı ilə bağlı hazırlıqlar aparılır.

Bu açıqlamadan bir gün sonra-sentyabrın 21-də **xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev** açıqlama verərək bildirib ki, hazırda Avropa İttifaqı ilə yeni saziş üzrə sənədin hansı mərhələdə olduğunu demək çox çətindir: "Sənədin ilk növbədə keyfiyyəti çox vacibdir. Biz tələsmirik. Hər iki tərəfin mövqeyi var. Onları uzlaşdırmaq lazımdır. Bu bir hüquqi sənəddir. Gec olsun, amma keyfiyyətli olsun. Sənəd çərçivəsində siyasi məsələlər də müzakirə olunur. Sənəddə Azərbaycanın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı öz əksini tapıb. Bu ilin sonuna kimi bu saziş imzalana bilməyəcək. Bu yalnız o halda baş verə bilər ki, biz onların dediyi hər şeyi qəbul edək. Amma bu düzgün olmaz".

**Nazir müavini onu da deyib ki, Azərbaycan "Şərq Tərəfdaşlığı" sammitinə hazırlaşır:** "Noyabrda Brüsseldə keçiriləcək sammitdə son 2 ildə



Mahmud Məmmədquliyev

hansı işlərin görüldüyü müzakirə ediləcək. Bizim də deməyə sözümüz olacaq. Çünki bir neçə ildə yaxşı nailiyyətlər əldə etmişik. İlk növbədə çalışacağıq ki, bu sammit çərçivəsində Riqa sammiti təkrar olunmasın. Həmin sammitdə 3 münaqişə ilə bağlı bir, Azərbaycan-Ermənistan münaqişəsinə dair başqa mövqe var idi. Avropa İttifaqının hazırda yeni qlobal strategiyası var, orada aydın göstərilir ki, bütün tərəfdaş ölkələrin ərazi bütövlüyü, təhlükəsizliyi dəstəklənməlidir".

**M.Məmmədquliyev qeyd edib ki, sammit çərçivəsində aviasiya sahəsində sazişin imzalanması mümkündür:** "Ola bilsin ki, müvafiq qurumumuz olan Aviasiya Administrasiyası Avropa İttifaqı ilə sazişi bitirə bilsin. Amma vaxt azdır. Bu istiqamətdə oktyabrın sonunda görüş olmalıdır. Ondan sonra biləcəyik ki, bu sənədi sammitdə imzalaya biləcəyik, ya yox".

Avropa İttifaqının böyük nümayəndə heyətinin gözlənilən səfəri Azərbaycanla bu qurum arasında imzalanacağı gözlənilən sazişin sürətlənməsinə təkan verəcəkmi? Həmçinin Azərbaycan qarşısında demokratiya məsələsinin də qaldırılması gözlənilirmi?

**Avropa İttifaqı üzrə siyasi ekspert Yeganə Hacıyeva "Yeni Müsavat"a bildirdi ki, bu səfər bütünlükdə Aİ-Azərbaycan münsibətlərində siyasət və təhlükəsizlik sahələrində mövcud və gələcək əməkdaşlığın şərtləri, imkanları və prespektivlərinə həsr edilmiş bir səfər olacaq.**

**Burda diqqət yetirəcəyimiz əsas məqam isə bu səfərin Qərbin nüfuzlu media orqanlarında Azərbaycan haqqında yazılarla aktiv qarayaxma kampaniyasının getdiyi ərəfədə baş tutmasıdır:** "Belə bir zamanda Avropa İttifaqının bütün ölkələrinin səfirlərinin daxil olduğu bu tərkibdə səfəri özlüyündə Avropa İttifaqının Azərbaycana dəstəyinin, Azərbaycanla əməkdaşlığı dərinləşdirmək istəyinin açıq ifadəsidir. Avropa İttifaqının böyük nümayəndə heyətinin Azərbaycana səfərinin Avropa İttifaqı ilə Azərbaycan arasında yaxınlaşmanı sürətləndirəcəyi, imzalanması planlaşdırılan sazişin uzaq olmayan gələcəkdə imzalanmasına təsirini göstərəcəyini söyləmək mümkündür".

**Ekspert onu da dedi ki, səfər zamanı diplomatların demokratiya ilə bağlı müzakirələrə yer ayıracağı şübhəsizdir. Vətəndaş cəmiyyəti nümayəndələri ilə də görüşlərin olacağı gözlənilir:** "Azərbaycan hökuməti özü bunda maraqlıdır. Amma xüsusi narahatlıq yaradan məqamların mümkünlüyünə inanmıram, çünki bunun üçün xüsusi əsas yoxdur.

Bugünlərdə bir sıra müxalif qurumların 23 sentyabra mitinq təyin etməsi və hakimiyyətin bu mitinq üçün müraciətə vaxtında, özü də heç bir şərt, vaxt dəyişmək tələbi irəli sürmədən müsbət cavab verməsi diqqətdən yayınmamalıdır. Bütün bunların Avropa İttifaqının böyük nümayəndə heyətinin Azərbaycana səfəri öncəsi baş verməsi, Avropa İttifaqı ilə danışıqlar ərəfəsi meydana çıxması maraqlı faktdır".

**Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 195 (6809) 22 sentyabr 2017

**Dolların bahalaşması gözləntiləri yenidən mətbuatın gündəmində yer alıb. Lakin bu, dolların bazar dəyərini alması kimi qiymətləndirilmir. Digər tərəfdən, ölkənin ixrac potensialının artırılması baxımından manatın indiki məzənnəsindən daha çox möhkənlənməsi hökumətə sərf eləmir. Güman olunur ki, gələcəkdə də dəyişikliklər yalnız dolların xeyrinə ola bilər. Bu barədə “Report”un analitik qrupu şərh yazıb.**

# Dollar payızda “cücərə” bilər - lakin şərtlər manatın xeyrinədir

## Rəşad Həsənov: “Ölkə daxilindəki və xaricindəki mühit manatın müdafiəsinə daha çox kömək edir, nəinki dolların bahalaşmasına”



Məsələ ilə bağlı danışan iqtisadçı **ekspert Rəşad Həsənova** görə, hazırkı şərtlər daxilində dolları möhkəmləndirəcək ciddi faktorlar yoxdur: “Ölkə daxilindəki və xaricindəki mühit manatın müdafiəsinə daha çox kömək edir, nəinki dolların bahalaşmasına. Dolların bahalaşacağını proqnoz edən ekspertlər daha çox FED-in növbəti toplantısında verəcəyi qərara və aktivlərin azaldılması ilə bağlı məlumatlara istinad edirlər. Oktyabr ayından başlayaraq aktivlərin azaldılmasına start verilməsinə baxmayaraq, bu həcmin 10 milyard ABŞ dolları səviyyəsində olması sürətin daha aşağı templə davam edəcəyini nümayiş etdirir. Bu o deməkdir ki, növbəti dövrlərdə aktivlərin mərhələli şəkildə və daha aşağı sürətlə azalması ABŞ dollarının valyuta birjalarında kəskin bahalaşmasına stimul ola bilər. Düzdür, ilin əvvəli, mart-aprel ayları ilə müqayisədə ABŞ dolları avroya və digər qlobal valyutalara qarşı dəyərini əhəmiyyətli səviyyədə itirib. Onu da nəzərə almaq lazımdır ki, indiki ABŞ hökuməti daha çox ucuz dollarda maraqlıdır. Çünki ölkənin ixrac potensialının artmasında maraqlıdırlar”.

**Ekspertin sözlərinə görə, növbəti dövrlərdə də ABŞ administrasiyası öz qərarları və davranışları ilə dünya bazarında dolların kəskin möhkəmlənməməsinə çalışacaq:** “Dekabr ayında uçot dərəcəsinin artımının da bazarda dolların möhkəmlənməsinə əhəmiyyətli səviyyədə təsir göstərəcəyini düşünmürəm. Sonuncu artım zamanı da gördük ki, bazarlar FED-in qərarına ciddi reaksiya vermədi. Əksinə, sonuncu dəfə FED uçot dərəcəsini artıran zaman ABŞ dollarının qiyməti valyuta bazarında kəskin şəkildə azaldı. Bu il də uçot dərəcəsinin artırılması ilə bağlı heç bir maneə yoxdur. Ancaq bunun baş tutması da kəskin şəkildə dolların bahalaşmasını şərtləndirməyəcək. Dollar itirdiyi mövqeyini müəyyən qədər bərpa edə bilər, bununla belə, Azərbaycanın tədiyyə balansında müsbət saldo kifayət qədər çoxdur. Eyni zamanda bu müddət ərzində ölkə öz valyuta rezervlərini də müəyyən qədər artıra bilər. İlin əvvəlindən etibarən Neft Fondundan Mərkəzi Banka 7,5 milyard manat həcmində valyutanın transferinin nəzərdə tutulması Mərkəzi Bankın da manevr imkanlarını artıran faktordur. Onsuz da ölkədə hələ də yığımlarda və depozitlərdə dollarlaşma səviyyəsi maksimum həddədir. Manat bazası da o qədər böyük deyil, ötən il 5 milyarda qədər azaldılıb. Xaricdən idxalla bağlı məhdudiyyətlər hələ də qalmaqdadır. Bu məhdudiyyətin müddəti başa çatdıqda yenidən artırıla bilər. Bu özü də manatın möhkəmlənməsinə müsbət təsir edir”.

**R.Həsənov vurğuladı ki, manatın səviyyəsini əhəmiyyətli dərəcədə dəyişə biləcək əsas amil neftin qiymətidir:** “Ancaq indiki şəraitdə neftin qiyməti 50 dollardan yuxarı mövqe nümayiş etdirir və ilin sonuna qədər bu istiqamətdə kəskin dəyişikliklərin olmayacağı güman olunur. Manat da psixoloji baxımdan neftin bugünkü qiymətinə daha çox uyğunlaşıb. Bu isə onu deməyə əsasən verir ki, xarici və daxili amillərin sabitliyi manatın qısa və ortamüddətli dövrdə kəskin ucuzlaşmasına əsas yaratmır. Ancaq təbii ki, risklər qalır. Bu risklər əsasən neftin qiymətindən, o cümlədən hökumətin monetar, fiskal və məzənnə siyasətindən asılıdır. Əgər bu istiqamətlərdə daha ehtiyatlı mövqe sərgilənməzsə, uzunmüddətli dövrlərdə xarici konyuktura manat üçün təhlükə yarada bilər. Ancaq hələlik mən manatın məzənnəsinin 2 dollara yüksələcəyini gözləmirəm. Əgər dolların xeyrinə hər hansı artım olsa, hazırkı məzənnənin 5 faizi civarında ola bilər. Hazırkı şərtlər manatın möhkəmlənməsinə yönəlib. Lakin hökumət inzibati yolla bunun qarşısını alır. Çünki hazırda möhkəm manat Azərbaycan iqtisadiyyatı üçün sərf etmir”.

❑ **Nərgiz LİFTİYEVA**




# Sabiq nazirin dəfilə de-marşı bacısı işdən çıxarılmaqla dəf olundu

## Qardaşı nazir kreslosunda əyləşdiyi zamanlarda Məhbubə Məmmədovanın xüsusi silahlı cangüdənləri də olub

**Sabiq nəqliyyat naziri Ziya Məmmədovun bacısı, “Tərəqqi” liseyinin direktoru Məhbubə Məmmədova vəzifəsindən çıxarılıb. M.Məmmədovanın işdən çıxarılmasının səbəbi kimi onun 45 manatlıq məktəbli formasını valideynlərə 120 manata satdırması göstərilir. Qeyd olunur ki, bununla bağlı “Lider” kanalında xüsusi süjet də hazırlanıb. Belə ki, Nərimanov rayonunda yerləşən “Tərəqqi” liseyinin direktoru Məhbubə Məmmədovanın mağazalarda 45 manata satılan məktəbli formalarını liseyin şagirdlərinə 120 manata satdırdığı barədə şikayətlər daxil olub. 3 qat baha qiymətə məktəbli forması almağa məcbur edilən valideynlər bildirib ki, direktor şagirdlərin başqa yerdən məktəbli forması almasını qadağan edib. Həmin liseydə təhsil alan uşaqların valideynləri də 40 manatlıq məktəbli formasını direktorun göstərişi ilə elə məktəbin özündən 120 manata əldə etdiklərini “Lider” kanalı əməkdaşına deyiblər. Bilik Günündə məktəb önündə şənliyə qatılan M.Məmmədova isə jurnalistin bu yöndən verdiyi sualdan yayınıb. M.Məmmədova Təhsil Nazirliyinin işçiləri tərəfindən liseydə aparılan yoxlamalardan sonra işdən azad edilib. Onu müvəqqəti olaraq liseyin müəlliməsi Almaz Əsgərova əvəz edir.**

“Yeni Müsavat”a daxil olan xəbərə görə, M.Məmmədova lisey şagirdlərinə məktəbli formalarını illərdir ki, real dəyərindən baha qiymətə satdırır. Onun məhz buna görə indiki mərhələdə işdən çıxarılması formallıqdır. Qardaşı nazir kreslosunda əyləşdiyi zamanlarda M.Məmmədovanın xüsusi silahlı cangüdənləri olub. O dövrdə belə xəbərlər gəzirdi ki, Z.Məmmədov düşmənlərindən qorunmaq üçün ailə üzvlərinə, yaxınlarına cangüdən təyin edib. Həmin vaxt M.Məmmədovanın 4 cangüdəni olub. Z.Məmmədov nazir postunu itirəndən sonra M.Məmmədovanın ətrafından cangüdənlər də yoxa çıxıb. Sabiq nazirin bacısının işindən çıxarılmasını daha çox Məmmədovlar ailəsinin Türkiyədə dəfilə keçirmələri ilə əlaqələndirənlər də az deyil. Baş verənlərin Məmmədovların de-marşına qarşı addım olduğu deyilir. Bildirilir ki, Z.Məmmədov “ölkə dustağı” olaraq Ucardakı villasındadır, bağ-bağçaya tamaşa etməklə günlərini keçirir.

❑ **E.HÜSEYNOV**

# Dini icma nümayəndələrini Brüsselə niyə yığırlar?

## Politoloq: “Avropa İttifaqı istəyir ki, Azərbaycanın dəyərlərini Avropaya göstərsin”

**Avropa İttifaqının Bakı Nümayəndəliyi gələn həftə Azərbaycandakı dini konfessiyaların lider və nümayəndələrinin Brüsselə səfərini təşkil edəcək.**



Bunu Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas bildirib. Aİ rəsmisi qeyd edib ki, səfərdə 7 dini konfessiya lideri iştirak edəcək. Səfər 25-28 sentyabrda baş tutacaq.

“Yeni Müsavat”a danışan **politoloq Mübariz Əhmədoğlu** bildirib ki, ilk olaraq onu nəzərə almalıyıq ki, hər bir nümayəndənin əsas vəzifəsi səfir olduğu dövlətlə təmsil etdiyi struktur arasında mehriban, isti münasibətlər yaratmaqdır:

“Yaxşılıqları artırmaq, neqativləri azaltmaq bu nümayəndələrin əsas vəzifələrinə daxildir. Ona görə də Avropa İttifaqının Azərbaycandakı nümayəndəsinin bu fəaliyyətinə də o timsaldan yanaşmaq lazımdır. Yeni Avropa İttifaqı istəyir ki, Azərbaycanın dəyərlərini Avropaya göstərsin. Bəllidir ki, Azərbaycan tarixən multikultural ənənələri olan dövlətdir. Həmçinin tarixən biz multikultural, tolerant ənənələr yetişdirən xalqıq. Bizim dövlətçiliyimizin tarixi 1918-ci ilə gedib çıxırsa, cəmiyyətimizdə müxtəlif etnik qrupların, dini təmsilçilərin yaşamasının 2 min ilə yaxın tarixçəsi var. Məsələn, ərəblərin bura gəlməyi, sonradan formalaşmış müsəlman cəmiyyətində yəhudilərin yaşaması buna faktdır. İndi də Azərbaycanda digər etnik qruplar ümumi bir ideologiya altındadır. Bu yaxınlarda Bakıda isveçli ekspertlə görüşdüm. Onunla 100 il öncə Bakıda olan xaricilər-polşalılar, ingilislər, almanlardan danışırdım. Mənə dedi ki, 19-cu əsrin sonu, 20-ci əsrin əvvəlində isveçlilər də burada çox olublar. Söhbət təkcə Nobeldən getmir. Yəni bu multikultural, tolerant ənənələr bizim dəyərlərimizdir. Avropa İttifaqı da çalışır ki, bunu göstərsin. Ona görə də Qafqaz Müsəlmanları İdarəsi, Pravoslav idarəsi, yəhudilərlə əlaqəli bir neçə qurumlar da var ki, onlar birlikdə Avropaya səfər edirlər. Dini nümayəndələrdən 3-4-nün bir yerdə davranışı avropalılar üçün artıq əyani şəkildə hər şeyi ortaya qoyur”.

**Politoloq bildirib ki, kimlərsə burada həm də qarışıqlıq salmaq istəyə bilərlər:** “Azərbaycanda olan diplomatların bir qismi bu və ya digər dərəcədə Ermənistanı üstün bilən diplomatlardır. Ermənistan da çalışır ki, Azərbaycan dini ziddiyyət olan dövlət kimi görünsün. Nəinki multikultural, tolerant, çalışırlar ki, biz dini qrupların bir-birini qırdığı ölkə kimi görünək. Özü də təkcə müsəlman-pravoslav, iudaizm-pravoslav kimi yox, konkret olaraq guya müsəlman cəmiyyətlərinin içərisində ”sünni və şiələr bir-birilərini qırırlar və davaya hazırlaşırlar" kimi təəssürat yaratsınlar. Azərbaycanda olan avropalı diplomatların bir qismində bu cür ideya var. Görünür ki, bu səfəri təşkil edən avropalı diplomatlar həmin qeyd etdiyimiz kateqoriyaya daxil deyillər. Əksinə, onlar çalışırlar ki, Azərbaycandakı gerçəkliklər olduğu kimi görünsün. Bilinsin ki, ölkədə İslam təriqətləri daxilində, həm də İslam dini ilə digər təkallahlı dinlər arasında çox ciddi əməkdaşlıq, yanaşı yaşama mövcuddur. Ona görə də bu səfəri müsbət dəyərləndirirəm".

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 195 (6809) 22 sentyabr 2017

**Bir** **müddət əvvəl həbs edilmiş iş adamı, "Çudo Peçka" və "ÇP Aqro" MMC-nin təsisçisi Çingiz Cəlilov məhkəməyə müraciət edib. APA-nın məlumatına görə, Ç. Cəlilov barəsində seçilmiş həbs-qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz edilməsi barədə ərizə ilə məhkəməyə müraciət edib. Onun müraciətinə yaxın günlərdə baxılacaq.**

# "Çudo Peçka"nın həbsdəki təsisçisi çətin durumda

## "Bank Standart"ın Kreditorlar Komitəsinin sədri batan pulları tələb edir

Baş Prokurorluğun mətbuat xidmətinin yaydığı məlumatda isə qeyd edilib ki, keçirilmiş istintaq-əməliyyat tədbirləri ilə müəyyən edilib ki, "Çudo Peçka" və "ÇP Aqro" MMC-lərin təsisçisi Cəlilov Çingiz Asim oğlu "Bank Standard" QSC Kommersiya Bankının İdarə Heyətinin sədri olmuş Kriman Səlim Eldaroviçlə qabaqcadan razılaşmaqla əlbir olub. Nəticədə həmin dövrdə banka müxtəlif mənbələrdən, o cümlədən xarici və daxili investorlardan və depozitlərdən daxil olmuş külli miqdarda pul vəsaitləri hesabına 21 milyon 874 min manat məbləğində krediti almaq üçün bankın Müşahidə Şurasının razılığı olmadan dəyəri süni olaraq artıq qiymətləndirilmiş əmlakları girov qoyub. Ç. Cəlilova Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə və ya israf etmə, yəni təqsirkara etibar edilmiş özgə əmlakını talama) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə ittiham elan olunmaqla barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

Onu da qeyd edək ki, bu ilin mart ayından etibarən "Çuda Peçka" mağazalar şəbəkəsi fəaliyyətini tamamilə dayandırıb. O gündən indiyə qədər mağazalar açılmayıb və şirkət tamamilə müflis olub.

Ləğv prosesində olan "Bank Standard" QSC-nin Kreditorlar Komitəsi və komitənin üzvü olmayan digər kreditorlar isə sentyabrın 7-də qəbul etdikləri qərara uyğun olaraq prezident İlham Əliyevə və birinci vitse-prezident Mehriban Əliyevaya müraciət ediblər. Müraciətləri həm fiziki, həm də hüquqi şəxslər daxil olmaqla, 90 kreditor imzalayıb. Onlar arasında bank məsələləri üzrə ekspert **Əkrəm Həsənov** da var. Ə. Həsənov "Yeni Müsavat"a bildirib ki, "Bank Standart"ın Kreditorlar Komitəsinin sədri olaraq batmış pulların xilasına çalışır: "Bankın Kreditorlar Komitəsinin sədriyəm. Kimlərin ki, orada əmanətləri və bank hesablarında pulları olubsa, onları təmsil edirəm. Təxmini bu vəsait 1 milyarddan çoxdur. Həmin vəsaitlərin hara xərclənməsini Əmanətlərin Sığortalanması Fondundan daim soruşuruq. Oradan da bizə vəd verilir ki, kreditlər haqqında ətraflı məlumat verəcəklər. Ancaq hələ ki vermirlər. Buna görə də bəzi kreditlər haqqında ümumi məlumatımız olsa da "Çudo Peçka" məsələsi daxil olmaqla, götürülən bir çox kreditlərdən xəbərsizik. Fond bizə nə zaman məlumat verəcəksə, o zaman bunun ətrafında müəyyən nəticəyə gələcəyik. Kreditor olaraq təmsil etdiyimiz insanların pullarını kredit formasında kimlərəsə veriblər. Biz kimsənin azadlıqdan məhrum edilməsini istəmirik. Sadəcə olaraq, pulları qaytarsınlar. Kimsə orada cinayət törədibsə və zərəri də ödəmirsə, əlbəttə ki, onları azadlıqdan məhrum etmək də lazımdır. Əsas odur ki, camaatın batan pulu geri qayıtsın. Bizdə olan məlumata görə, bankda bəzi dövlət vəzifəsində təmsil edilən şəxslərə yaxın olan adamların da kreditləri var. Məsələn, bu yaxınlarda Neft Fondunun icraçı direktoru Şahmar Mövsümovun qardaşı Şahin Mövsümov da etiraf etdi ki, "Bank Standart"a 78 milyon borcu var. Düzdü, o dedi ki, girovlarla təmin olunub, ancaq biz bilirik ki, o da krediti vaxtında ödəmir. Necə götürdükləri isə başqa bir məsələdir. Ona da ayrıca müraciət göndərmişik ki, bizə məlumat versin. Sadəcə olaraq, tərəfdarıyıq ki, bütün borc alanlara eyni münasibət olmalıdır. Məsələn, "Çudo Peçka"nın rəhbərini həbs edirlərsə, Neft Fondunun rəhbərinin borc alan qardaşına da eyni tədbir görülməlidir. Hər kəsə bir gözlə baxmaq lazımdır".

**Ekspert bildirib ki, "Bank Standart"ın açılması mümkün deyil:** "Bankın 1 milyard 200 milyon borcu var. Əmlakı isə bundan qat-qat azdır. Ona görə də bankın fəaliyyətinin bərpası mümkün deyil. Bankda təkcə Azərbaycan vətəndaşlarının 157 milyon vəsaiti qalıb. Xarici şirkətlər isə 600 milyon vəsaitini geri ala bilmir. Bankın bu vəziyyətə düşməsində Mərkəzi Bankın da günahı var. Görünür, çox bərbad nəzarət olub ki, belə vəziyyət yaranıb. Ona görə də Mərkəzi Bankın rəhbərliyi də məsuliyyətə cəlb edilməlidir. Bizim əlimizdə bununla bağlı faktlar var. Əgər bu gün hansısa borc alan məsuliyyətə cəlb olunursa, "Bank Standart"ın İdarə Heyətinin sədrinin də burada adı çəkilirsə, bəs onlara bu imkanları kim vermişdi? Təbii ki, Mərkəzi Bank".

Onu da qeyd edək ki, Çingiz Cəlilovun çöküşündə əvvəlcədən "Bank Standart"la problemlərinin olması da müəyyən qədər rol oynayıb. Belə ki, "Çudo Peçka" mağazalar şəbəkəsi 2000-ci ildə Çingiz Cəlilov tərəfindən yaradılıb. Ç.Cəlilov şəbəkəni qurmaq üçün "Bank Standart"dan götürdüyü 2.5 milyon dollar krediti qaytara bilmədiyinə görə kafe-mağazalarda tez-tez yoxlamalar aparılıb, cərimələr tətbiq edilib.

Yekun olaraq Ç.Cəlilov kredit borcunu qaytara bilməyib və MMC-yə daxil olan şəbəkələr "Bank Standart"ın girovluğunda qalıb. Bankın səhmlərinin böyük bir hissəsinin isə sabiq iqtisadi inkişaf naziri Heydər Babayevin olduğu bildirilir. Nəticə olaraq, "Çudo Peçka" da son illərdə Heydər Babayevin biznes şəbəkəsinə aid edilirdi. Ancaq sonradan Cingiz Cəlilov yenidən şəbəkəni hansısa yolla öz əlinə aldı. Ancaq bu da çox çəkmədi və şəbəkənin bütün mağazaları fəaliyyətini dayandırdı.

**Əli RAİS**

# Qarabağ veteranının anası oğluna əfv diləyir

## "Oğlumun haqlı olduğunu sübut edə bilmirik, onu şərləyib tutublar, prezidentdən kömək istəyirəm"

**"Mənim uşağım türmədə ölür. Bədənində ermənin vurduğu qəlpələr var. Biz oğlumun haqlı olduğunu sübut edə bilmirik. Oğlumun mədəsindən qan gəlir. 11 yaşlı qızının başında şiş var. Uşağın gözləri tutulur. Həbsindən əvvəl Qazaxda evimizi satıb məni əməliyyat etdirmişdi. Taksi sürüb bizi birtəhər dolandırırdı. Özüm ağır şəkər xəstəsiyəm, atası da ağır vərəmdir. Oğlumu prezident əfv etsin, Əfv Komissiyasındakılar bizim ailənin taleyinə biganə qalmasın".**



Bunu Qazax rayon sakini 70 yaşlı Minayə Əliyeva redaksiyamıza etdiyi müraciətində bildirib. Qollarındakı yanıq izlərini göstərən ahıl qadın deyir ki, özünün də, həyat yoldaşının da təqaüd kartları sələmçilərin əlindədir: "Oğlumun yanına getməyə, uşaqlara çörək almağa imkanımız belə yoxdur. Gecədən səhərə qədər lavaş bişirib satıram ki, birtəhər ayı başa vuraq. Ümidim əfvədir. Hara gedirəm, deyirlər pul verməsən mümkün deyil, bura Azərbaycandır. Oğlum Həmid Rövşən oğlu Əliyev Penitensiar Xidmətin 10 saylı cəzaçəkmə müəssisəsindədir. O, bir müddət əvvəl ədalətsiz hökmə etiraz edib 9 gün ölüm aclığı etdi. Az qala ölmüşdü. Yenə də aclığa başlamaq istəyir. Mənə deyir ki, ana, sən qoçaq qadınsan, mən günahsızlığımı sübut etmək üçün aclıq edirəm. Bəlkə işi doğru-dürüst araşdıran olar. Oğlumun dövlətdən başqa güvənc yeri yoxdur. Qanını da, canını da 3 il Qarabağda fəda etməklə dövlətə qulluq edib. Əlimizdə günahsız olduğunu sübuta yetirən bütün dəlil-sübutlar var. Şərlənib həbsə atılıb. Oğlum Bakıda taksi sürüb bizi dolandırırdı. Ona Qazaxdan olan Məhəmməd Mustafa oğlu Nəsibov çanta verib ki, bunu apar ver Qazaxda qardaşıma. Oğlumu polis tutub, məlum olub ki, bağlamada narkotik var. Polisin iştirakı ilə telefon danışıqları zamanı çantanın sahibi Məhəmməd Nəsibov etiraf edib ki, polisin əlində olan bağlama ona məxsusdur. Lakin buna baxmayaraq, hazırda o, azadlıqda, oğlum isə həbsdədir. Bütün bunlar oyundur. Oğlumun həbsindən sonra Məhəmmədi 3 saat saxlayıb buraxdılar. Oğlumu Zığdakı narkodispanserə aparıb qanını götürmüşdülər. Yazmışdılar ki, qanı 1-ci qrupdur, qanında narkotikin miqdarı o qədər çoxdur ki, həkim onun köhnənin narkomanı olduğu qənaətinə gəlib. Bunu biz Bakı Ağır Cinayətlər Məhkəməsində işə baxılarkən bildik. Mənim oğlum narkotikdən uzaq adamdır. Bunu Daxili İşlər Nazirliyində qəbulda olarkən də dedim. Dedilər ki, bəlkə xəbərin olmayıb, oğlun narkotik istifadə edib. Dedim ki. həmin rəy saxtadır, çünki oğlumun qanı orada 1-ci qrup göstərilib. Mənim oğlumun qanı 3-cü qrupdur. Yoxladılar, məlum oldu ki, həkim səhv edib, oğlumun qanının əvəzinə başqasının qanını müayinə edib, oğlumun adına yazıb. Şikayətlərimdən sonra həkimi işdən çıxardılar. Halbuki mən həkimin işdən çıxarılmasını istəmirdim, oğlumun günahsız olduğunun sübut edilməsini tələb edirdim. Məhkəmədə Məhəmməd Nəsibovu gətirib dindirmələrini tələb etdik. Gətirmədilər. Adam deyir ki, çanta da, içindəki bağlama da mənimdir. Oğlum isə taksi sürücüsü kimi ona verilən çantanı Qazağa aparıb. Oğluma məhkəmədə də, polisdə də deyirdilər ki, gərək apardığın çantanın içinə baxaydın. Baxmamısansa, deməli, günahkarsan. Prokuror 11 il cəza istədi, məhkəmə 10 il cəza təyin etdi. 2 ildir ki, qapılardayam. Prezident Administrasiyasına, Baş Prokurorluğa, Daxili İşlər Nazirliyinə getməkdən ayaqlarım şişib, taqətdən düşürəm. İstədiyim budur ki, oğlumu əfv etsinlər, canımız bu dərd-sərdən qurtarsın".

Qeyd edək ki, Qazax rayon sakini, Qarabağ müharibəsi veteranı Həmid Əliyev 2015-ci il aprelin 25-də axşam saatlarında kirayədə yaşadığı Binəqədi rayonu ərazisində evinin yaxınlığında Nəsimi Rayon Polis İdarəsi əməkdaşları tərəfindən saxlanılıb. H.Əliyevə həmin gün həmyerlisi Məhəmməd Nəsibov balaca bir çanta verib, Qazaxda onu qardaşına çatdırmasını xahiş edib. Lakin həmin gün sərnişin olmadığından o, Qazax rayonuna gedə bilməyib. M.Nəsibova zəng edib deyib ki, adam yoxdur deyə, Qazağa gedə bilmir, gəl çantanı geri apar. M.Nəsibov telefonda gəlib çantanı götürəcəyini desə də, həmin gün gəlməyib. Daha sonra isə axşam saatlarında "Favorit" marketdən çay və siqaret alıb çıxarkən H.Əliyevin qarşısını 2 nəfər mülki geyimli şəxs kəsib və üzərində axtarış aparacaqlarını deyiblər. Sonra isə onu Nəsimi Rayon Polis İdarəsinə aparıblar. Daha sonra H.Əliyevə bağlamada narkotik maddə olduğunu bildiriblər. Elə oradaca polis əməkdaşları dinləmə vasitəsilə H.Əliyevlə və M.Nəsibovun telefon bağlantısını qurublar. Nəsibov telefon danışığı zamanı etiraf edib ki, bağlama ona məxsusdur və götürməyə gəlir. Görüş yeri təyin edilib, Nəsibov bağlamanı H.Əliyevdən geri alarkən polis əməkdaşları tərəfindən saxlanılıb. 3 saat sonra M.Nəsibov buraxılıb. H.Əliyevə isə ittiham verilib, sonradan ən ağır cəza təyin olunub. H.Əliyevin anası deyir ki, bu gün M.Nəsibov azadlıqda gəzir, günahı olmayan oğlu isə türmə divarları arasında ölümlə çarpışır: "Prezidentə yalvarıram ki, oğlumu azad etsin. Günahızdır".

**E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 195 (6809) 22 sentyabr 2017

# Şeyxin "vurulmasında" Rusiya izi iddiaları

## Tanınmış partiya sədri QMİ-nin ləğvi üçün müraciət etdi

**Politoloq Zərdüşt Əlizadə Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadə ilə bağlı son zamanlar mətbuatda yazılan məlumatlar barədə modern.az saytına müsahibə verib. Müsahibəsində Z.Əlizadə deyib ki, kimlər Allahşükür Paşazadəyə qarşı danışır, ona qarşı olan proseslərin içində yer alırsa, onlar Rusiyanın agentləridir: "O adamlar Rusiyaya işləyir ki, Azərbaycanı içəridən dağıtsınlar, milli zəmində qarşıdurma yaratsınlar. Mən yüz faiz əminəm ki, Azərbaycanda xarici qüvvələrə işləyən adamlar məhz indi sabitliyi pozmaq üçün Allahşükür Paşazadəyə qarşı hücumlar təşkil edirlər".**

Z.Əlizadə həmçinin bildirib ki, Allahşükür Paşazadə Azərbaycandakı sabitliyin təminatçılarından biridir. Şeyxin tutduğu məqam çox hörmətli və nüfuzlu məqamdır: "Nə qədər ki, Allahşükür Paşazadə şeyxülislamdır, o, Azərbaycan dövlətinə sadiqdir. Siz mənə deyin görüm, indi hansı məmur korrupsiyaya bulaşmayıb? Allahşükür Paşazadəyə hücumlar başlayıbsa, bunun bir səbəbi var. Hansısa xarici qüvvələr Azərbaycanda sabitliyi pozmaq istəyirlər. Xarici qüvvələr çalışırlar ki, talışları Azərbaycana qarşı qaldırsınlar. Şeyx barışdırıcı, mötədil bir insandır".



**ADP sədri Sərdar Cəlaloğlu isə "Yeni Müsavat"a açıqlamasında Zərdüşt Əlizadənin Şeyxin Rusiyaya işləyən adamlar tərəfindən hədəfə alındığı barədə dediklərinin xalqda yanlış təsəvvür yaratmaq məqsədi daşıdığını bildirib:** "Zərdüşt Əlizadə yaxşı bilir ki, Allahşükür Paşazadə həmişə Rusiyaya bağlı adam olub. Eyni zamanda bir sıra rəsmi dövlət qurumları ilə sıx işləyib. "Talış-Muğan respublikası" elan olunanda Ələkrəm Hümmətov Lənkəranda bir toplantı keçirirdi. Bəzi talış dostlarımız məni dəvət etmişdilər ki, Ələkrəmlə şəxsi münasibətlərimdən istifadə edim və onu separatçı yoldan çəkinməyə dəvət edim. Mən bu məqsədlə getdim və həmin toplantıda Allahşükür Paşazadənin Ələkrəm Hümmətovun sağ tərəfində oturduğunu gördüm. O dəqiqə məndə belə bir əminlik yarandı ki, baş verən bu haqq-hesab xüsusi xidmət orqanlarının, hakimiyyətin nəzarəti altındadır, idarə olunan proses gedir. Toplantıda Allahşükür Paşazadə çıxış edərək Ələkrəm Hümmətovu təriflədi, talışların hüquqlarının pozulduğundan danışdı və "Talış Muğan respublikası"nın yaradılmasını müsbət bir hadisə kimi xarakterizə elədi. Mən oradaca talış dostlarıma dedim ki, Şeyx buradadırsa, bu o deməkdir ki, "Talış Muğan respublikası" xüsusi xidmət orqanlarının oyunudur və idarə olunan işdir, Allahşükür Paşazadə digər halda burada iştirak eləməz. Zərdüşt Əlizadə özünü görməməzliyə vuraraq danışır və xalqda yanlış təsəvvür yaradan fikirlər işlədir. Allahşükür Paşazadə dəfələrlə deyib ki, mən Putinə sədaqətliyəm. O, hətta Putin tərəfindən ordenlə mükafatlandırılıb. Hamı bilir ki, Allahşükür Paşazadə həmişə Rusiyaya yaxın olub. Qudası da deyir ki, Şeyxin ən çox gedib-gəldiyi şəhər Moskvadır. İndi necə ola bilər ki, bu adam rusiyapərəst qüvvələr tərəfindən sıxışdırılır?! Şeyx məgər qərbpərəstdir ki, rusiyayönümlü qüvvələr onu sıxışdırır!? Zərdüşt Əlizadə bu xalqı avam yerinə qoymasın.

Zərdüştlə bir məsələdə razıyam ki, Allahşükür Paşazadə əlinə o qədər vəsait toplayıb ki, o qədər dərinə gedən əlaqələr yaradıb ki, istənilən vaxt ölkədə destablizasiya yaratmaq imkanındadır. Bu baxımdan, bəli, Allahşükür Paşazadə sabitliyin "qarantı" sayıla bilər.

Şeyx Rusiya tərəfindən necə sıxışdırıla bilər ki, Qafqaz Müsəlmanları İdarəsi və birbaşa onun vəzifəsi Çar Rusiyası tərəfindən yaradılıb və bu gün də yaşadılır".

**S.Cəlaloğlu onu da bildirdi ki, Qafqaz Müsəlmanları İdarəsi ləğv olunmalıdır:** "Qafqaz Müsəlmanları İdarəsi nə üçün Bakıda yerləşir? Bunun bizə nə aidiyyəti? Məgər Azərbaycan Qafqazda yerləşir? Azərbaycan Zaqafqaziya respublikasıdır. Qafqaz Dağıstan, Çeçenistan, Stavropol, İnquşetiyadır. Bakıda Qafqaz Müsəlmanları İdarəsinin nə işi var?! Azərbaycan Konstitusiyasına görə, Azərbaycanda fəaliyyət göstərən hər hansı bir ictimai-siyasi təşkilat başqa dövlətlərin vətəndaşlarını öz sıralarına cəlb eləyə bilməz. Bəs bu Qafqaz Müsəlmanları İdarəsi Qafqazda yaşayan Rusiya vətəndaşlarını öz sıralarında necə birləşdirir?! Açıq-aşkar Azərbaycan Konstitusiyasına zidd fəaliyyətdir.

Allahşükür Paşazadənin son illərdə İslam dini ilə, Quranla bağlı efirə, xalqın qarşısına çıxıb çıxışlar etdiyini görmüsünüz!? Din xadimi kimi üzərinə düşən maarifləndirmək işini yerinə yetirib!? Bu vəziyyət Allahşükür Paşazadənin və onun rəhbərlik etdiyi qurumun fəaliyyətinə güzgü salır".

ADP sədrinin sözlərinə görə, çoxlu sayda QHT-lər vergi vermədikləri ittihamı ilə məsuliyyətə cəlb olublar. Qafqaz Müsəlmanları İdarəsi də QHT kimi vergi ödəməyə borcludur: "Gəlin görək Qafqaz Müsəlmanları İdarəsi vergi verib? Halbuki yüz milyonlarla manat vəsait orada dövr edir. Bu, İdarənin fəaliyyəti prokurorluq tərəfindən yoxlanmalıdır".

❑ **Etibar SEYİDAĞA**

# Rusiya gəmilərinin Bakıya tez-tez gəlməsinin pərdəarxası

## Ekspertlər bunun xoş məram daşımadığı qənaətindədir

**Rusiya Xəzər Hərbi Donanmasının hərbi gəmilərinin heyəti Azərbaycana səfər edib. Dostluq səfəri çərçivəsində qonaqlar Azərbaycan Hərbi Dəniz Qüvvələrinin (HDQ) nümayəndələri ilə işçi görüşü keçiriblər. Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, HDQ-nin qərargahında keçirilən görüşdə Azərbaycan Hərbi Dəniz Qüvvələri ilə Rusiya Federasiyası Xəzər Donanması arasında dostluq münasibətləri və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.**



Politoloq Şahin Cəfərli öz facebook səhifəsində bununla bağlı narahatçılığını ifadə edən status paylaşıb. O bildirib ki, hələ SSRİ dövründə *(ondan əvvəl isə Rusiya imperiyası zamanı)* Bakı rusların Xəzər donanmasının əsas bazası olub: "SSRİ dağıldıqdan sonra Rusiya Bakıdakı donanma mərkəzini Həştərxana köçürməyə məcbur oldu. Son illər Rusiya rəhbərliyinin Xəzərə xüsusi önəm verməyə başladığı və buradakı donanmasını gücləndirdiyi göz önündədir. 2020-ci ilə qədər daha 6 yeni gəmi və kater donanmanın tərkibinə qatılacaq, hərbi texnikanın 90%-i yenilənəcək. Yəni donanma böyüyür. Donanmanın böyüməsi öz növbəsində yeni limanlara və gəmilərə xidmət göstərəcək yeni bazalara ehtiyacı artırır. Həştərxandakı hərbi-dəniz bazasının bir sıra çatışmazlıqları var. Əvvəla, qışda ora donur və gəmilərin dənizə çıxması üçün buzqırandan istifadə olunmasına ehtiyac yaranır, bu isə operativ reaksiya tələb olunan anda gecikmə deməkdir, üstəlik, gəmilərin buz parçalarına dəyərək zədələnməsi riski də var. İkincisi, Həştərxanda akvatoriyanın nisbətən dayaz olması böyük gəmilər üçün çətinlik yaradır. Rusiyanın Xəzərdə Mahaçqala və Kaspiysk limanları da var, amma belə görünür ki, onlar ehtiyacları tam ödəmir. Belə şəraitdə Bakının önəmi artır. Düşünürəm ki, Bakı keçmişdə olduğu kimi, Rusiyanın Xəzər donanmasının mərkəzi bazasına çevrilməsə belə, Moskva ən azı maraqlıdır ki, onun gəmiləri istənilən zaman Bakıya yanaşmaq, burada texniki xidmət, təmir və s. ehtiyaclarını təmin etmək imkanı əldə etsin. Bu, həm də Kremlin Azərbaycan üzərində təsir imkanlarının artması və Azərbaycanın suverenliyinin məhdudlaşması anlamına gəlir.

Əvvəllər Azərbaycan iqtidarı Rusiyanın təsirini və basqılarını ABŞ faktoru ilə neytrallaşdırmağa çalışırdı və buna nail də olurdu. Rusiya və İran bu əməkdaşlıqdan çox ciddi şəkildə narahat idi. Konkret nə baş verdiyini bilmirik, lakin son illər Azərbaycan-ABŞ əməkdaşlığının Xəzər komponentinin geriləməsi ortadadır. Bu geriləmə Rusiyanın irəliləməsi ilə müşayiət olundu. Rusiyanın ötən aylarda Xəzərdən qanadlı raketlərlə Suriyaya zərbələr endirməsi onun həm də Xəzərə hakim olmasının nümayişi idi. Bu durum şübhəsiz ki, Azərbaycanın milli təhlükəsizlik maraqlarına tam ziddir və ciddi risklər ehtiva edir... Şübhəsiz ki, Rusiya bunu özbaşına yox, formal da olsa, Azərbaycandan razılıq almaqla edirlər. Aparılan yanlış siyasət nəticəsində Xəzər regionunda yaranmış yeni reallıqlar isə bizim hökumətin Rusiyaya "yox" deməsinə imkan vermir".

**Təhlükəsizlik üzrə ekspert, sabiq MTN polkovniki İlham İsmayıl baş verən proseslərin ciddi narahatlıq doğurduğunu qeyd etdi:** "Bu ilk belə hal deyil. İlk dəfə nümayişkaranə şəkildə 2013-cü ildə prezident seçkiləri ərəfəsində belə addım atdılar. Hətta deyərdim ki, bir ay həmin hərbi gəmilər, sadəcə, Xəzər sahilində deyil, bizim bulvarda da dayandılar. Sanki hamıya göz dağı verdilər ki, hərbi gəmilərimiz istədiyi qədər dayana bilər. Ondan sonra Bakıya yaxın olmasa da, Lənkərana yaxın yerdən Suriyaya zərbələr endirdilər. Seçki ərəfəsində onlar Xəzərdən bu şəkildə istifadə edirlər, insanlarda sanki xof yaratmaq istəyirlər. Bir tarixi hadisəni də xatırladım ki, 1920-ci ildə də bizə hücumlar təkcə Yalamadan yox, həm də Xəzərdən olmuşdu. Azərbaycanın Rusiya ilə münasibətləri elədir ki, onlar çox sərbəst şəkildə gəlib gedirlər. Keçmişdə sovet ordusunun qırmızı bayraqlı Xəzər donanması var idi. İndi də elə bilirlər ki, həmin donanma yenə də burdadır, gəmiləri sərbəst şəkildə gəlib gedə bilər. Bütün bunlar, sözün həqiqi mənasında, xoş deyil. Azərbaycanın müstəqilliyinə, suverenliyinə dırnaqarası baxmaqdır. Hər zaman bundan da bir təzyiq vasitəsi kimi istifadə edirlər. Rusiyanın xarici işlər naziri Sergey Lavrovun dediyinə görə, oktyabr ayında Xəzəryanı ölkələrin sammiti olmalıdır. Xəzərin yenidən bölünməsi müzakirə olunmalıdır. Düzdür, heç bir dəyişikliyin olmayacağını deyirlər. Amma 10 gün öncə İran XİN-in rəhbərinin Moskvada Lavrov və Putinlə görüşündə hər şeydən danışdılar, lakin Xəzərdən danışmadılar. Görüşdən bir saat sonra Lavrov dedi ki, bu barədə də söhbətimiz olub. Bilirsiniz ki, İranın mövqeyi Xəzərin indiki statusunun əleyhinədir. Daha çox ərazi götürmək istəyir. Bizim də sərvətlərimizin əsas mənbəyi Xəzərdədir. Rusiya və İran hələ də Xəzərin bölünməsini təzyiq vasitəsi kimi bizə qarşı istifadə edir. Düşünürəm ki, bunlar hələ davam edəcək. Çalışırlar ki, hərbi gəmilərinin bura gəlişlərini adət etdirsinlər. Rusiyanın burada hakimiyyət dəyişiklikliyi etmək fikri yoxdur. Sadəcə, məsələni gərginləşdirib, istədiklərini təmin etdirmək üçün bu cür təzyiq vasitələrindən istifadə edirlər. Nəzərə almaq lazımdır ki, təzyiqlər təkcə bizim seçkilərlə bağlı olmaya da bilər. Çünki beş aydan sonra öz seçkiləri var. Bu beş ayda da bizdən nəsə istəyə, yaxud tələb edə bilərlər. Rusiyanın həyasızcasına tələbləri az olmur. Təəssüf edirəm ki, ona imkan yaradılıb, Rusiyanın burnundan vurulmayıb. Bu məsələlərdə Kremlə olduqca böyük güzəştlər edilib".

❑ **Cavanşir ABBASLI**



# Barışaq, öpüşək, sevişək

Zamin HACI
zaminhaci@gmail.com

*"Tartışılmaz zevkler ve renkler*
*sizin olsun bütün bu zevkler*
*Bırakın renkleri çocuklara*
*Uzakta bir ülkede insanlar anlaşmış*
*tam silahları bırakırken*
*İçlerinden ikisi hemen karşı çıkmış..."*
*(Barış Manço, "Günaydın, cocuklar")*

***

**Dünən söz verdiyim kimi, ölkəmizdə barışıq, sülh, ulu öndərimiz Rəsulzadənin dili ilə yazsaq, "milli təsanüd" (təsanüd - həmrəylik deməkdir) meyllərinin güclənməsindən bəhs edəcəyəm. Hər gün bunun əlamətləri üzə çıxır.**

Çox uzağa getməyək, söz vaxtına çəkər, elə dünən məhkəmədə zərərçəkənlərdən biri müttəhimlər kürsüsündə oturmuş keçmiş MTN generalının sifətinə su çırpıbdır. Yüngülvari söz dartışmaları olubmuş. Başqa ölkələrdə, elə bizdə də qabaqlar zərərçəkənlər və müttəhimlər, o cümlədən generallar və zəhmətkeşlər arasında münasibətlər sulfat turşusu, F-1 qumbarası, Molotov kotleti (Səyavuş Novruzovun kəşfidir, dünya silah sənayesində yenilikdir), nə bilim, başqa yandırıcı-öldürücü qarışıqlarla həll edilərkən, indi bizdə su atırlar. Su isə aydınlıqdır. Həyat rəmzidir.

Yenə dünən oxudum ki, keçmiş baş prokuror Əli Ömərov hansısa müxalifətin mitinqini dəstəkləyibdir. Əli müəllim ümumən unikal insandır. O qədər o tərəf-bu tərəfə keçib ki, bəzən özü də çaşır, heç bilmir hardadır. Bəlkə də buddistlərin dediyi o nirvana vəziyyətinə Əli müəllim artıq çatıbdır. Nirvana əzablardan, arzulardan, dünyaya bağlardan qopmaq deməkdir. Əli müəllim də gah müxalifətə, gah iqtidara keçməklə özünü hər şeydən qoparıbdır. Küləyin apardığı quş tükü kimi bir şey olubdur. Ora uçur, bura uçur... Eyni zamanda diqqət eləsəniz Əli Ömərovun adı özü-özlüyündə dini barışıq, Azərbaycan multikultural həmrəyliyinin bir simvolu sayılmalıdır. Çünki Əli şiələrdə, Ömər isə sünnilərdə qutsal, müqəddəs sayılır.

Bir generalın oğlu avtobus sürücüsünü təqib eləyib saxlatdırmış, düşürdüb döymüşdü. Salondakı sərnişinlər isə görmədikləri günü görmüşdülər, türklər demişkən, "ekşın" yaşamışdılar. Düzdür, sonra ölkə rəhbərliyi "Ata oğula cavabdehdir" dövlətçilik prinsipimizə əsaslanaraq generalı işdən qovdu. General isə açıqlama verdi ki, rəhbərlik istəsə həmin avtobusun təkəri olaram. Bax həmin iş üzrə məhkəmə hazırda bitmək üzrədir, sürücü isə keçmiş generalın oğlunu bağışladığını söyləyibdir.

Ümumən, baxırsan son günlər kim kimi döyürsə, kimi, başqasını vurub öldürürsə ortada düşmənçilik çox uzun sürmür. Döyülən və ölən tərəfin adamları qarşı tərəflə yüngülvari görüşmələrdən sonra şikayətləri olmadığını deyirlər. Məhkəmə yazıq indi neyləsin? Kimi cəzalandırsın? Məncə, burada qanunlarda boşluq ortaya çıxır. Bunu aradan qaldırmaq üçün yaxşı olar müxalifətçilərdən, siyasi dustaqlardan yararlanaq. Hansısa general oğlu zəhmətkeşi maşınla vurub öldürsə, ölənin uşaqları generaldan babat pul alıb oğlulu əfv etsə, bu zaman cəza hansısa müxalifət partiya üzvünə, bloggerə, nə bilim, jurnalistə-zada kəsilsin. Onsuz vətənə başqa xeyirləri, faydaları yoxdur. Əvəzində siyasi dustaq siyahıları qısalar. Avropadan gələn soruşanda ki, balam, bu bloqçu Mehman Hüseynovu niyə tutmusunuz, deyirsən maşınla adam vurubdur. Desələr maşın sürmür, maşını yoxdur, deyərsən bəs günah kimdədir? Axı şikayətçi qalmayıbdır. Biz nə edək?

Cəmiyyətdə barışığın şiddətinin artmasından ruhlanan insanlarımız çoxdur. Biri elə keçmiş MTN generalı Akif Çovdarovun vəkilidir. İki gün qabaq həmin vəkil Çovdarova bəraət istəyibdir. Hakimə elə bu cür də deyibdir.

Əlbəttə. Niyə də bəraət almasın? Vaxtında o qədər işinizə yarayıb. Rəhbərlik edəni Eldar müəllim kef çəkirsə, bu niyə əzabkeş olmalıdır? Yığdıqlarının, obyektlərinin bir çoxunu da tapıb yağmalamısınız. Bir də gördün kimsə qalan beş-on milyonundan qırpıb bunu da siyasi dustaq elan elədi. Tutub döydüyü sahibkarlar bəlkə ürəklərində Akif müəllimlə barışıblar. Millət də baxır, fikirləşir elə bunları düzgün döyürmüşlər, çünki Akif müəllim tutulandan inflyasiya 20 faizi keçibdir, devalvasiya at çapır. Çünki istənilən cəngəlliyin canavara ehtiyacı vardır. Meşə sanitarı - bunu nahaq yerə demirlər.

Barış Manço sağ olsaydı qonaq çağırardıq, bizim bu barışıq dolu həyatımızı mahnıları ilə süsləyərdi.

# General Zakir Həsənovun İsrail səfərində ilginc hədəf

**Azərbaycanla-İsrail arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlıq ilbəil genişlənir. Müdafiə naziri general polkovnik Zakir Həsənovun yəhudi dövlətinə ilk və çoxgünlük səfəri bunun növbəti bariz sübutu sayıla bilər.**




# Bakı strateji kəmərlərini "Dəmir günbəz" altına alır - Moskva və İrəvan şokda

## Ermənistanın və Rusiyanın Azərbaycana qarşı əsas şantaj aləti əldən çıxır; "Dəmir günbəz" "İsgəndər"ə, işğalçı ölkə isə Qərb maraqlarına qarşı Kremlin məkrli oyununda - neft-qaz müharibəsində sensasion gəlişmə...

Səfərdə əsas hədəf heç şübhəsiz ki, iki strateji tərəfdaş ölkə arasında xüsusən də hərbi-texniki sahədə əlaqələri daha mükəmməl səviyyəyə qaldırmaq, İsrail ordusunun döyüş təcrübəsini öyrənmək idi. O sırada nazir Zakir Həsənov İsrail səfəri çərçivəsində "Dəmir günbəz" müasir raketdən müdafiə sistemlərinin alınması məsələsi də diqqətdə olub.

Bəllidir ki, bu sistemlər Ermənistanın tez-tez öyündüyü "İsgəndər" zenit-raket komplekslərinə qarşı kontur-sistem kimi qiymətləndirilir - hərçənd Rusiyanın özünün razılığı olmadan İrəvanın "İsgəndər"i tətbiq eləməsinə ixtiyarı yoxdur. Bununla belə, ələlxüsus "İsgəndər"lər peyda olandan sonra erməni tərəfi Azərbaycanı daha tez-tez şantaj eləməyə başlayıb. Hətta irimiqyaslı hərbi əməliyyatlar başlayarsa, bu sistemlər vasitəsilə bölgədən keçən strateji neft-qaz kəmərlərinin, Mingəçevir SES-in hədəf alınma biləcəyi barədə vaxtaşırı hədələr biçilib ünvanımıza.

Təbii ki, Azərbaycan bu qəbildən təhdidləri ciddiyə alır və adekvat tədbirlər görür. Ermənistanın belə ağılsız addıma gedəcəyi halda Naxçıvandan cəmi 50 km məsafədə olan Metsamor AES-in partladıla biləcəyi barədə Azərbaycanın xəbərdarlıqları da bu qəbildəndir...

*****

Bu arada məlumat yayılıb ki, Azərbaycan "Dəmir günbəz" raketdən müdafiə sistemlərinin xüsusi modifikasiya olunmuş versiyasından məhz Bakı-Tiflis-Ceyhan (BTC) neft kəmərinin mühafizəsini təşkil eləməyə hazırlaşır. Musavat.com-un məlumatına görə, Gürcüstanda nəşr olunan "Rezonansi" qəzeti belə yazıb (virtualaz.org). Qəzet bildirir ki, Azərbaycanın "Dəmir günbəz" raketdən müdafiə sistemləri ilə BTC-ni mühafizə etmək planları Ermənistanın Rusiyadan "İsgəndər" operativ-taktiki raketləri alması ilə birbaşa əlaqəlidir.

"Azərbaycan hakimiyyəti hesab edir ki, əgər həmin raket işə salınsa, başlıca təhlükəni neft kəmərinə yaradacaq. Ona görə də bu gün Bakıda və Gəncə şəhərində dünyada raketdən ən effektiv müdafiə sistemlərindən biri olan "Dəmir günbəz" yerləşdiriləcək" - qəzet Azərbaycanın İsraildən həmin sistemləri artıq əldə etdiyinə eyhamla yazır.

*****

Qeyd edək ki, Azərbaycanın İsraildən "Dəmir günbəz" raketdən müdafiə sistemləri almaq barədə danışıqlar apardığı haqda hələ ötən ilin sonlarında xəbər yayılıb. Daha sonra İsrail mənbələri tərəflərin bu sistemin təchizatına dair müqavilə bağladıqlarını açıqladılar.

"Dəmir günbəz" raketdən müdafiə sistemlərinin ilkin versiyası 70 kilometrə qədər məsafədə əsasən taktiki raketləri zərərsizləşdirmək üçün nəzərdə tutulub. Lakin daha sonra bu sistemləri istehsal edən "Rafael Advansed Systems" şirkəti Pentaqonun sifarişi ilə "Dəmir günbəz"lərin modifikasiyasını təkmilləşdirib və nəticədə daha uzaq mənzilli istənilən tip hava hədəflərini vurmaq imkanlarına malik olub.

Azərbaycan İsraildən "Dəmir günbəz"lərin məhz bu versiyasını sifariş edib. Yeri gəlmişkən, ABŞ-ın özü də bu sistemlərə maraq göstərir və artıq onun alınması yönündə İsraillə müzakirələrə başlayıb. Beynəlxalq hərbi ekspertlərə görə isə "Dəmir günbəz" sistemi həqiqətən "İsgəndər" raketlərinin hücumlarını dəf edə bilər və bu, raketlərə qarşı yaxşı müdafiədir", - deyə Gürcüstan nəşri vurğulayıb.

İşğalçı ölkənin Azərbaycana ünvanlı son təhdidləri də əsasən Rusiyadan alınmış "İsgəndər" komplekslərinin "Azərbaycanın istənilən nöqtəsini, o cümlədən strateji neft-qaz xətlərini vurmaq" hədəsi ilə bağlı idi. İndi belə görünür ki, Ermənistanın əlindən Azərbaycan qarşı əsas şantaj vasitəsi çıxmış olacaq. Hərçənd regiondan keçən və Avropa enerji bazarlarına çıxan həmin kəmərlər təkcə Azərbaycana məxsus deyil, eyni zamanda Qərbin ortaq mülkiyyətidir. Demək, Ermənistanla belə təxribatçı və son dərəcə təhlükəli hərəkətlərlə ilk növbədə özünə pislik edəcək, özünü Qərbə qarşı qoymuş olacaq.

*****

**Məsələ barədə danışan təhlükəsizlik məsələləri üzrə ekspert Vaxtanq Mayisaya isə qəzetə açıqlamasında BTC-yə təhdidlərin Rusiyadan qaynaqlandığını bildirib. Onun sözlərinə görə, Kreml istəsə, neft kəmərini bombalaya bilər:** "Rusiya bunu dəfələrlə edib, 2008-ci ildə Bakı-Tiflis-Ceyhan kəmərinin yaxınlığına bomba atıb, kəmərin işi bir müddət dayanıb. Ona görə də bununla mütləq barışmaq lazımdır".

**Ekspertin dediyinə görə, Azərbaycanın müdafiə sistemlərini səfərbər etməsi Rusiyanın "İsgəndər" raketlərinin daha uzaqmənzilli versiyasını sınaqdan keçirməsinə səbəb olub.** "Rusiya bu yaxınlarda "İsgəndər" raketlərinin 700 km radiuslu versiyasını sınaqdan keçirib" - Maisaya deyib. Ekspert əlavə edib ki, üstəlik, ruslar Cənubi Osetiyada digər ixrac neft kəməri Bakı-Supsanın 2 kilometrlik hissəsinə nəzarəti ələ keçiriblər. Və istənilən vaxt kəmərin operator-şirkətinə, habelə Gürcüstana və Azərbaycana ultimatum verə bilər.

*****

**"Beləliklə, Azərbaycan hökuməti müasir raketdən müdafiə sistemləri olan "Dəmir günbəz"ləri alıb. Hansı ki, onlar güclü ballistik raketlərdən effektiv istifadə etməklə Bakı-Tiflis-Ceyhan kəmərini qoruya biləcək", - deyə gürcü analitik bildirir. Onun sözlərinə görə, Azərbaycan kəməri öz ərazisində müdafiə edir, indi Gürcüstan hissəsinin müdafiəsi haqda da düşünmək lazımdır:** "Ruslar Qori-Tiflis avtomobil yolunun cəmi 400 metrliyində mövqe tutublar. BTC-nin Gürcüstan hissəsi həmin yol boyu keçir. Ona görə də ruslar üçün kəmərin Gürcüstan hissəsini sabotajla sıradan çıxarmaq çətin deyil".

**Qəzet daha sonra qeyd edir ki, Azərbaycan Mingəçevir SES, BTC və neft terminalları kimi bir sıra strateji obyektləri müdafiə etmək istəyir.** "Azərbaycan müdafiə sahəsində Gürcüstanla müqayisədə çox irəliləyib. Bizim nəinki raketlərə qarşı, heç hava hücumlarına qarşı müdafiə sistemlərimiz yoxdur, öz hava məkanımızı müdafiə edə bilmirik" - Vaxtanq Maisaya gileylənib.

**Briqada generalı, hərbi-siyasi məsələlər üzrə analitik Amirlan Salukvadze isə deyir ki, Azərbaycan prezidenti İlham Əliyev əvvəlki müharibələrin təcrübəsindən çıxış edir.** "Məlum olduğu kimi, 2008-ci ilin avqust müharibəsi zamanı boru kəmərinə raket zərbəsi endirmək cəhdi olmuşdu. Əlbəttə, əgər Azərbaycanla Ermənistan arasında irimiqyaslı hərbi əməliyyatlar başlasa, energetika obyektlərinə, o cümlədən boru kəmərlərinə raket zərbələri endirmək cəhdləri olacaq. Həlalik mən belə müharibə riskini görmürəm" - general deyib.

Salukvadze onu da qeyd edib ki, əgər Ermənistan energetika infrastrukturlarını hədəf almağa cəhd eləsə, daha irimiqyaslı hərbi əməliyyatlara və ya cavab raket zərbələrinə gətirib çıxaracaq.

*****

Məsələ də elə ondadır ki, İrəvan belə təhlükəli avantüraya Rusiyanın izni olmadan getməz. Rusiya isə Avropa enerji bazarında dominantlığını saxlamağa çalışır, çünki bu, ona Qərbə, Avropaya qarşı mühüm təzyiq və şantaj rıçaqı kimi lazımdır. Azərbaycan isə qaz bazarında Rusiyaya sövq-təbii rəqibdir və Qərbin Rusiya qazından asılılığını azalda bilər. Bu üzdən Moskvanın "ilanı" "Seyidəhməd", yəni Ermənistanın əli ilə tutmaq istəyi tam məntiqlidir...

YENİ MÜSAVAT
N 195 (6809) 22 sentyabr 2017

# Pakistan komandanının Bakı səfəri - yeni silah müqavilələri

## Elxan Şahinoğlu: "Azərbaycanın Pakistandan modern silahlar alacağını istisna etmirəm"

**Azərbaycanın yeganə nüvə müttəfiqi olan dostu Pakistan İslam Respublikasının Hərbi Hava Qüvvələrinin komandanı, aviasiya marşalı Süheyl Aman sentyabrın 19-da Bakıya gəlib. Onun ölkəmizə səfəri bir çox müzakirələrə səbəb olmaqla yanaşı, Ermənistanda da xof yaradıb.**

Ekspertlər bu səfərin Azərbaycanla Pakistan arasında hərbi əlaqələri daha genişləndirəcəyini, ölkəmiz adına müsbət nəticələr verəcəyini vurğulayırlar. Xüsusilə ABŞ ordusu tipində ordu quran bir dövlətin Azərbaycanla əlaqələrə önəm verməsi, ərazi bütövlüyümüzün təmin edilməsi üçün daim yanımızda olması düşmənlərə göz dağı verir. Təcavüzkar Ermənistan və onun himayədarlarının narahatlığı göz önündədir. Pakistanla hərbi və digər sahələrdəki yaxın əlaqələrin rəsmi Bakının ancaq xeyrinə olduğu qeyd edilir. Süheyl Amanın səfərində isə əsas məqsədin hərbi sahədəki əməkdaşlığı daha da yaxınlaşdırmaq olduğu bildirilir. Eyni zamanda Azərbaycanın Pakistandan yeni silahlar almaq niyyətində olduğu, səfər çərçivəsində bu məsələnin də müzakirə edildiyi ehtimal olunur.

**Politoloq Elxan Şahinoğlu Pakistanın Azərbaycan üçün Türkiyə qədər əhəmiyyətli olduğunu düşünür:** "Azərbaycanla Pakistan arasında hərbi əməkdaşlığın inkişafı hər iki dövlətin xeyrinədir. Pakistan Azərbaycan üçün Türkiyə qədər vacib ölkədir. Pakistan Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdəndir. Ən ağır zamanlarda Pakistan Azərbaycana kredit xətti açıb. Ən başlıcası, işğal faktına görə Pakistan Ermənistanla diplomatik münasibətlər qurmayıb. Bu ölkə istənilən beynəlxalq tədbirdə Ermənistanın işğal siyasətini pisləyir. Azərbaycan da Pakistanın problemlərinə biganə deyil. Heydər Əliyev Fondunun xətti ilə Pakistanda zəlzələdən əziyyət çəkən bölgələrdə məktəblər inşa olunub, dərs vəsaitləri və humanitar yardım çatdırılıb".



**Politoloq yaxın zamanlarda Azərbaycanın yeni silahlar alacağını da istisna etmir:** "Pakistanın silah bazarı Azərbaycan üçün açıqdır. Odur ki, yaxın zamanlarda Azərbaycanın Pakistandan modern silahlar alacağını istisna etmirəm. Pakistan müharibə vəziyyətində olan ölkədir, üstəgəl, terrorçularla mübarizə aparır. Bu mənada Pakistanın bu təcrübəsi bizim üçün yararlıdır. Düşünürəm ki, Pakistan və Azərbaycan hərbçilərinin qarşılıqlı səfərləri silah alışına dair müqavilənin imzalanmasını sürətləndirəcək. Məsələn, ötən il Zakir Həsənov Çexiyaya səfər edərək bu ölkənin hərbi-sənaye kompleksinə aid bir neçə müəssisəsində oldu. Üstündən bir il keçdikdən sonra Azərbaycan Çexiyadan müasir hərbi-texnika aldı. Azərbaycanla Pakistan arasında hərbi əlaqələrin və qarşılıqlı səfərlərin hərbi texnikanın alınacağı ilə nəticələnəcəyini proqnozlaşdırıram".

❑ **Cavanşir ABBASLI**

# Kataloniya və Kürdüstanın "müstəqilliyi" - Qarabağın taleyi necə olacaq...



## Ekspertlər düşünür ki, Azərbaycan bu təhlükəyə çoxdan hazırdır

**Son günlərin əsas müzakirə mövzularından biri Şimali İraq Kürd Muxtariyyətində və Kataloniyada "müstəqillik" referendumunun keçirilməsi ilə bağlı gedən ciddi proseslərdir. Artıq hər iki bölgədə referendum keçirmək üçün konkret gün müəyyən olunub. Kürdüstan qurmaq üçün kürdlər separatçı referendumları sentyabrın 25-nə təyin ediblər. Kataloniya hökuməti isə oktyabrın 1-də referendum keçirmək niyyətindədir.**

Siyasi ekspertlər hesab edirlər ki, Şimali İraq Kürd Muxtariyyətində və Kataloniyadakı proseslər dövlətlərin qurulması ilə nəticələnəcəyi halda, bu, Azərbaycanın əleyhinədir. Belə ki, ermənilər də öz çirkin niyyətlərini həyata keçirmək üçün qondarma "Dağlıq Qarabağ Respublikası"nda da separatçı referendum keçirmək üçün fəallaşa bilər. Bunun üçün də rəsmi Bakının indidən proseslərə hazırlıqlı olmasının vacibliyi vurğulanır.

**Politoloq Elçin Mirzəbəyli istənilən halda yeni yarana biləcək "dövlətlər"in müstəqilliklərinin tanınmayacağını ehtimal edir:** "Kataloniya və İraq Kürd Muxtariyyətinin ərazisində keçirilən referendum, hətta separatçıların istəyinə uyğun nəticələnsə belə, bunun heç bir effekti olmayacaq. Nə Kataloniyanın, nə də Kürd Muxtariyyətinin müstəqilliyi tanınmayacaq. Nəticədə Kataloniya və Kürd Muxtariyyətinə qarşı sanksiyalar tətbiq olunacaq və hər iki separatçı bölgə qısa müddətdə acınacaqlı duruma düşəcək. Hər iki separatçı bölgənin öz müstəqilliklərini elan etməsi Ermənistana heç bir perspektiv vəd etmir. Əvvəla, qeyd edim ki, Ermənistanın hərbi-siyasi müttəfiqi olan Rusiya artıq Kataloniyada və Kürd Muxtariyyətində keçirilməsi nəzərdə tutulan referendumların nəticələrini tanımayacağını bəyan edib. Suriyanın ərazi bütövlüyünün qorunmasını böhranın həllində ön şərt kimi irəli sürən Moskva indiki halda fərqli mövqe sərgiləyə də bilməz. Bu yerdə ABŞ prezidenti Donald Trampın BMT Baş Assambleyasında səsləndirdiyi fikirləri də diqqətə almaq lazımdır. Tramp bəyan etdi ki, "Ukraynadan Cənubi Çin dənizinə qədər ərazidə olan ölkələrin suverenliyini qorumalıdır". Bu isə artıq Kürd Muxtariyyətinə, Rusiyaya və Ermənistana açıq mesaj kimi qəbul olunmalıdır".




**Politoloq Dağlıq Qarabağ məsələsinə də toxundu:** "Gələcəkdə Dağlıq Qarabağın yekun statusunun müəyyənləşdirilməsi ilə bağlı referendumun keçirilməsi münaqişənin həlli ilə bağlı aparılan danışıqların predmetlərindən biridir. Bununla bağlı razılaşma, yaxud referendumun necə, hansı şəraitdə və necə keçirilməsi ilə əlaqədar razılaşdırılmış məqamlar olmasa da, hər halda, beynəlxalq vasitəçilərin təqdim etdiyi bütün həll variantlarında bu məqam yer alıb. Digər tərəfdən, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı həll variantları mərhələli olsa da hər mərhələ ümumi həll variantının tərkib hissəsi kimi qəbul olunur. Yəni ilk işğalçı qüvvələr geri çəkilir, məcburi köçkünlər geri qayıdır, təhlükəsizlik beynəlxalq zəmanətlə təmin olunur və Dağlıq Qarabağın aralıq, sonra isə yekun statusu müəyyənləşir. İstər Kataloniyada, istərsə də Kürd Muxtariyyətində vəziyyət fərqlidir. Dağlıq Qarabağda separatçı rejim başqa bir dövlətin Azərbaycan ərazilərini işğal etməsi nəticəsində baş verib. Nə Kataloniyada, nə də Kürd Muxtariyyətində buna bənzər məqamlar yoxdur. Azərbaycan danışıqlar prosesinin tamamilə iflasa uğrayacağı təqdirdə atacağı addımları müəyyənləşdirib. Əgər Ermənistan işğal etdiyi əraziləri hüquqi cəhətdən özününküləşdirməyə cəhd edərsə, müharibə dərhal başlayacaq. Ermənistanda da bunu yaxşı bilirlər. Azərbaycan bu təhlükəyə çoxdan hazırdır".

**"Sivilizasiyalar və konfliktlər" Analitik Mərkəzinin rəhbəri Əhəd Məmmədli hesab edir ki, Qarabağ probleminin Azərbaycanın xeyrinə həll edilməməsi vaxtı uzandıqca zaman düşmənlərimizə işləyir:** "Kosovo müstəqil olduqda da ermənilər ümidlənmişdilər. Ardınca Abxaziya və Cənubi Osetiyanın Rusiya və bir - iki ölkə tərəfindən müstəqilliyinin tanınması yenə düşmənlərimiz üçün bir fürsət yaratmışdı, dünya tərəfindən Dağlıq Qarabağın müstəqilliyinin tanınması məsələsini qaldırmağa. İndi də Kürdüstan və Kataloniyanı bəhanə edərək ermənilər üçün yeni bir fürsət yaranıb. Bu məsələdə kürdlərin "müstəqilliyini" əldə etməsi daha realdır. Düzü, Türkiyə, İran və İraq bunun qəti əleyhinədir. Əgər bu üç dövlət tərəfindən hərbi müdaxilə edilməsə, Kürdüstan qurulacaq. Bu da müsəlman coğrafiyasında ikinci İsrail deməkdir. İkinci İsrail də bu dəfə hədəf olaraq əsas Türkiyəyə qarşı qurulur. Türkiyəyə qarşı hədəf olaraq hər hansı bir ölkə qurulursa, bu həm də ermənilərin xeyrinədir. Ermənilərin xeyrinə hər hansı bir şey isə Azərbaycan əleyhinədir. Ona görə xüsusən müstəqil Kürdüstanın qurulması Azərbaycanın milli maraqlarına ziddir. Və yaxşı olar ki, Azərbaycan hakimiyyəti bütün region üçün bu taleyüklü məsələdə susmasın və öz mövqeyini dünyaya çatdırsın. Mövqe isə Türkiyənin yanında Kürdüstana qarşı olmalıdır. Əgər İraq və İspaniyada referendum keçirilsə və müstəqil Kürdüstan elan edilsə, Kataloniya isə müstəqilliyinə bir addım da yaxınlaşsa, heç şübhəsiz ki, bu vəziyyətdən ermənilər yararlanmağa çalışacaqlar. BMT-nin son iclasında Sərkisyan bir daha Dağlıq Qarabağın Azərbaycanın tərkibində olmasının mümkünsüzlüyünü vurğuladı. Bu o deməkdir ki, Dağlıq Qarabağda hər an referendum keçirilə bilər və bu referendumun nəticəsi kimi də ən azı Ermənistan tərəfindən tanına bilər. Bunun qarşısını ancaq hərbi güc ala bilər".

❑ **Cavanşir ABBASLI**

# ABŞ-ın vitse-prezidenti Rusiyanı "dünya üçün əsas təhlükə" adlandırdı

**ABŞ-ın vitse-prezidenti Maykl Pens dünya üçün üç əsas təhlükəni açıqlayıb. Virtualaz.org bildirir ki, bu barədə "Kommersant" məlumat yayıb.**


Maykl Pens

Məlumata görə, Montoneqronun NATO-ya üzvlüyü ilə bağlı mərasimdən sonra Atlantic Council analitik fondu tərəfindən təşkil edilmiş təntənəli naharda Pens bəyan edib ki, Rusiya, İran və beynəlxalq terrorizm beynəlxalq birliyə əsas təhlükədir: "Dünya bu gün 25 il əvvəl baş verən kommunizmin çökməsindən sonra yaranan vəziyyətdən daha təhlükəlidir".

ABŞ-ın vitse-prezidenti Şimali Atlantika Şurasının üzvlərinə həmçinin Rusiyanın beynəlxalq sərhədləri dəyişmək cəhdindən danışıb.

Pens əlavə edib ki, ABŞ-ın əsas hədəfi NATO-nun daha da güclənməsi olmalıdır: "Güclü alyans - xüsusilə bu asan olmayan vaxtlarda, həyati əhəmiyyətə malikdir".

Onun sözlərinə görə, rəsmi Vaşinqton öz tərəfdaşlıq öhdəliklərini yerinə yetirməyə tamamilə hazırdır və alyansın bir üzvünə hücumun, bütün üzvlərə hücum anlamına gəlməsi prinsipinə sadiqdir.



Elçin Quliyev

# MTN-çilərin məhkəməsində generala butulka atdılar

## "Sənin kimi şərəfsiz, ləyaqətsiz generallar..."

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyi (MTN) Antiterror Mərkəzinin rəisi, general-mayor Elçin Quliyev və mərkəzin əməkdaşı, polkovnik Azər Mehdiyevin cinayət işi üzrə məhkəmə prosesi davam edib.**

Lent.az-ın məlumatına görə, Bakı Hərbi Məhkəməsində hakim Elbəy Allahverdiyevin sədrliyi ilə keçirilən prosesdə intihar edən MTN polkovniki epizodu üzrə Əbülfət Məmmədov ifadə verib. İfadəsini davan etdirəm Əbülfət Məmmədov qeyd edib ki, intihar etməmişdən bir gün qabaq Malik Mustafayevlə birlikdə restoranda olublar: "Birlikdə olanda hər zaman araq içirdik. Lakin bu dəfə içki içmədi, özünü pis hiss etdiyini bildirdi. Yemək də yemirdi. Uzun müddətdir ki, evdən çölə çıxmırdı. Yaşamaq istəmədiyini bildirdi. Mən də ona təskinlik verirdim. Qardaşının tutulması ona pis təsir edirdi. Deyirdim ki, silahı qardaşın üstünə götürsün, uzağı bir ilə çıxar. Malik dedi ki, bu işdə silah boş şeydi, başqa söhbətlər var".

**Şahid qeyd edib ki, görüşdən 1 gün sona Malikin intihar etməsini eşidib:** "Evlərinə getdim. Evindən çıxan məktubda qeyd olunmuşdu ki, ölümünə heç kim səbəbkar deyil, özü intihar edib".

**General Elçin Quliyev şahidin ifadəsinə arayış verərək deyib ki, o, Malik Mustafayevin rəisi olmayıb:** "Elçin adını prokurorluqda verdiyi ifadəsində çəkməmisən. Sonradan könüllü istintaqa gəlib, ifadə verib. Malik Mustafayev intihar edəndən sonra Xətai Rayon Prokurorluğunda istintaq aparılıb, cinayət işi olmadığı üçün işə xitam verilib. Bu müddət ərzində Malik Mustafayevin yaxın dostu kimi bu şahid istintaqa cəlb olunmayıb. Mətləb Mustafayev həbsdən çıxandan sonra bu şahid də meydana çıxıb. İndi bu şahiddən soruşmaq istəyirəm ki, bu müddət ərzində şahid harada olub, bəlkə MTN tərəfindən təzyiq edirdilər, bəlkə başını kəsmək istəyiblər".

**Şahid generalın çıxışına etiraz edib:** "Burda baş kəsməkdən danışırsan, o qədər baş kəsibsən ki, ancaq baş kəsməkdən danışırsan. İstintaqa da özbaşına ifadə verməmişəm. Müstəntiq məni dəvət edib. Mən də ifadə vermişəm. Əli müəllimi şəxsən tanımıram. Malikdən eşitmişəm ki, Əli müəllim MTN-də işləyib".

**Elçin Quliyev bildirib ki, bura gələn şahidlər öyrədilib:** "Bunların hamısı papaq altında oturanlardır".

**Maqsud Mahmudov isə buna etiraz edib:** "Sənin kimi şərəfsiz, ləyaqətsiz generallar Heydər Əliyevin yaratdığı MTN-i dağıtdılar. Sən o şöbədə nə işləmisən? Hamı İlqar elədiyini deyir. Amma epizodları sən danışırsan".

**Bu zaman Elçin Quliyev yerindən qalxaraq zərərçəkənlərin hamısını dələduz adlandırıb:** "Bunlar hamısı prokurorun öyrətdikləri adamlardır. Bığ altında yatanları bura gətiriblər".

Mübahisə qızışıb. Elçin Quliyev və Maqsud Mahmudov bir-birinə su butulkası atıblar.

Maqsud Mahmudov zaldan çıxarılıb.

# Şəmsəddin Hacıyevin mandatı alına, həbs oluna bilər-rəsmi

## Baş Prokurorluq İqtisad Universitetində aşkar olunmuş maxinasiyalarla bağlı cinayət işi açdı; YAP-çı deputatın harada olduğu bilinmir

**Azərbaycan Dövlət İqtisad Universitetində dövlət büdcəsindən ayrılan vəsaitlərin və büdcədənkənar daxilolmaların proqnozlaşdırılması və icrasının auditinin nəticəsinə dair Hesablama Palatasından daxil olmuş material Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.**

Baş Prokurorluqdan APA-ya verilən məlumata görə, ilkin araşdırma zamanı yoxlama dövrünü əhatə edən 18 may 2012-ci ildən 1 aprel 2014-cü il tarixədək olan müddət ərzində universitetin vəzifəli və digər maddi-məsul şəxsləri tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə edilərək təhsil haqlarının uçotu, yığılması və bank hesabına köçürülməsi, təhsil haqqı üzrə debitor-kreditor borclarının uçotda əks etdirilməsi ilə bağlı ağır nəticələrə səbəb olan ciddi qanun pozuntularına yol verilməsi, eləcə də külli miqdarda vəsaitin uçotdan yayındırılmasına əsaslı şübhələr müəyyən edildiyindən fakta görə Cinayət Məcəlləsinin 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) və 179.3.2-ci (şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə külli miqdarda etibar edilmiş özgə əmlakını talama) maddələri ilə cinayət işi başlanıb.

Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların tam və hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri, habelə vurulmuş ziyanın ödənilməsinin təmin edilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Qeyd edək ki, Hesablama Palatasının Azərbaycan Dövlət İqtisad Universitetinə (ADİU) ayrılan vəsaitlərin və büdcədənkənar daxilolmaların proqnozlaşdırılması və icrası hesabatı maraqlı faktları üzə çıxarıb. Köhnə rektor, hazırda deputat olan Şəmsəddin Hacıyevin ADİU-ya rəhbərliyi dövründə baş verən böyük qanunsuzluqların araşdırılacağı gözlənilir. Hesablama Palatasının Kollegiyası ADİU tərəfindən təhsil haqqı üzrə daxilolmaların uçotunun aparılması, təhsil haqlarının yığılması və universitetin bank hesabına köçürülməsi sahəsindəki nöqsanların ciddiliyini, təhsil haqqı üzrə debitor-kreditor borclarının uçotdan yayındırılmasını nəzərə alaraq qanunamüvafiq tədbirlərin görülməsi üçün müvafiq materialların Baş Prokurorluğa göndərilməsi barədə qərar qəbul edib.

ADİU-nun ölkənin ən korrupsiyalaşmış təhsil ocağı olması barədə məlumatlar yeni deyil. Ölkənin aparıcı ali məktəblərindən olan ADİU-da 2014-cü ilin martında rektor dəyişikliyi olsa da, sistemdə hər hansı müsbətə doğru irəliləyiş müşahidə olunmayıb. Şəmsəddin Hacıyevin rektorluğu dövründə bu gün gündəmi zəbt edən məlumatlar mətbuatda dəfələrlə tirajlanmışdı.



Məsələ ilə bağlı modern.az saytı Şəmsəddin Hacıyevlə əlaqə saxlamağa çalışıb. Amma deputatın mobil telefonunu özünü Ramiz kimi təqdim edən şəxs açaraq, "müəllim hazırda Bakıda yoxdur, xaricdədir. Birisi gün gələcək" cavabını verib.

Ş.Hacıyevin ADİU-da rektor vəzifəsində olarkən hansı addımlarla yadda qalmasını bir daha yada salaq.

Rektor olduğu illərdə Ş.Hacıyev ailə üzvlərinin - həyat yoldaşının, qardaşı oğlunun, baldızı qızının birgə idarəçiliyində olduğu "Turan-2009" MMC, "İqtisadçı" MTK və digər şirkətlər vasitəsilə ADİU-da milyonlarla manatlıq "əməliyyat" apardılar.

Universitetdə aparılan "maliyyə əməliyyat"ların 90 faizi qanunvericiliyin əksinə olaraq, tendersiz baş verib. Yəni Ş.Hacıyev Satınalmalar üzrə Dövlət Agentliyinin razılığı olmadan böyük pulların mənimsənildiyi əməliyyatları özbaşına həyata keçirib.

**Vaxtilə yazdıqlarımızdan sitat:** "Məsələn, 2011-ci ildə 166 min 822 manatlıq, 2012-də 136 min 748 manatlıq tender keçirildiyi halda, 2013-cü ildə 11 milyon 29 min 907 manatı guya müxtəlif işlərə xərcləyiblər. Bu vəsaitdən 1 milyon 145 min 269 manatı təmir, 2 milyon 123 min manatı inventar, maşın, avadanlıq, təsərrüfat malları, dəftərxana məsrəfləri, 7 milyon 745 min 887 manatı isə sağlamlıq kompleksinin tikintisi adı ilə təyinatından yayındıraraq, mənimsəyiblər. O, hətta o qədər irəli gedib ki, həyat yoldaşının təsisçi, qardaşı oğlunun direktor, baldızı qızının isə baş mühasib olduğu "Turan" MMC vasitəsilə 3 il ərzində oxşar əməliyyatlarla 11 milyonu universitetin hesabından çıxarmağa da nail olub. Şəmsəddin Hacıyev universitetin Dərbənd filialı vasitəsilə də böyük oyunlar oynayıb. Onun bu filial vasitəsilə hər tələbədən 35-50 min manat alaraq həyata keçirdiyi saxta qəbullar bir yana qalsın, bu adam Dərbənddə universitetin adı ilə torpaq dəllallığı da edib. Bu fakt 1 saylı Bakı İnzibati İqtisad Məhkəməsi tərəfindən də təsdiqlənib. Məhkəmənin qətnaməsində bildirilib ki, 2006-cı ildə Şəmsəddin Hacıyev Dağıstan Atıcılıq Diviziyası küçə 35-də yarım hektar torpaq sahəsi əldə edib. Rəhbərlik etdiyi ali məktəbin sahəsinin genişləndirilməsi məqsədilə ali məktəbin vəsaiti hesabına aldığı bu sahəni öz adına rəsmiləşdirib. Bundan sonra o, həmin ərazini İqtisad Universitetinin Dərbənd filialının inşası üçün torpağın bir hissəsi böyük məbləğə universitetə satılıb. İşdə Şəmsəddin Hacıyevin kürəkəni Seymur Orucovun da adı keçirdi. O dövrdə iş o yerə çatıb ki, Dağıstan rəsmiləri universitetin Dərbənd filialının saxta Bakı fililalının hansı məqsədlə yaradılması ilə bağlı Azərbaycan Təhsil Nazirliyini çətin suallar qarşısında qoymuşdu".

Maraqlıdır ki, o dövrdə bu məlumatlar mətbuatda yayılsa da, araşdırılması və nəticə haqda heç bir xəbər verilməmişdi. Bu gün də Ş.Hacıyevin ADİU-dakı fəaliyyəti tam olaraq araşdırılmayıb.

Məsələn, Ş.Hacıyev əməkdaşlarına universitetin nəzdində mənzil-tikinti kooperativi yaradıb, onları mənzillə təmin etmək məqsədilə Mir Cəlal küçəsində bina tikdirməyi vəd etmişdi. Bu məqsədlə təsisçisi Hacıpaşa Muradov olan "İqtisadçı-H" kooperativi yaradılıb və bir müddət sonra Ş.Hacıyev mənzillərin pulunun böyük hissəsini ödəyən universitetin əməkdaşlarını pis vəziyyətdə qoymuşdu. Belə ki "İqtisadçı-H" şirkətinin hüquqlarını öz qohumlarının adına təsis etdiyi "İqtisadçı-2005" kooperativinə vermişdi. Beləliklə də dosent-professorlar həsrətlə gözlədikləri mənzilləri ala bilmədilər.

Ş.Hacıyev Quba rayonunun füsunkar Nüvədi-2 kəndində ADİU-nun müəllimləri və tələbələri üçün sağlamlıq mərkəzi tikdirmək adı ilə dövlətin yer ayırmasına nail olmuşdu. Mərkəzin tikintisi üçün 4 milyon 300 min nəzərdə tutulan ilkin smeta bir müddətdən sonra fantastik rəqəmə, 7 milyon 200 minə çatdırıldı. Hazırda bu tikintinin faktiki olaraq neçəyə başa gəlməsi və sonralar bu mərkəzdə kimlərin istirahət etməsi bilinmir.

Xatırladaq ki, Azərbaycan Konstitusiyasının 89-cu maddəsinə görə, deputat cinayət törətdikdə və onun barəsində məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olduqda millət vəkilliyindən məhrum edilir və deputat səlahiyyətlərini itirir. Milli Məclisin deputatının toxunulmazlığına yalnız baş prokurorun təqdimatına əsasən Milli Məclisin qərarı ilə xitam verilə bilər.

❑ E.MƏMMƏDƏLİYEV

**Azərbaycan prezidenti İlham Əliyevin BMT Baş Assambleyasının 72-ci sessiyasındakı çıxışı partlayış effekti verdi. Xüsusilə də işğalçı Ermənistan prezidenti Serj Sərkisyanın səsləndirdiyi iddiaların darmadağın edilməsi, onun özünün Xocalı soyqırımının iştirakçısı olduğunun xatırladılması, Azərbaycanın haqlı tələblərinin yüksək tribunadan səsləndirilməsi, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin icra olunmamasının qəbuledilməzliyinin vurğulanması, həmçinin düşmənə aprel xəbərdarlığının edilməsi baxımından dövlət başçısının nitqi çox böyük hadisə oldu.**





# İşğalçı ölkəyə aprel xəbərdarlığı - Sərkisyana Nyu-York zərbəsi

Azərbaycan prezidenti BMT-də Ermənistana və havadarlarına “aprel dərsi”ni xatırlatdı; **politoloq:** “Beynəlxalq aləm və işğalçı dövlət növbəti aprelə hazırlaşmalıdır”; **erməni ekspert:** “Əslində Ermənistan məğlub olub...”

Onu da vurğulamaq yerinə düşər ki, sessiyanın ilk günü Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Dağlıq Qarabağ problemini beynəlxalq hüquqa uyğun surətdə, özü də təcili həll etməyə çağırması, əks təqdirdə, bölgədə çox irimiqyaslı, həm də beynəlxalq xarakterli qarşıdurmanın yarana biləcəyini deməsi də Azərbaycana mühüm qardaşlıq dəstəyi oldu. Bununla Türkiyə lideri həm dünyanın diqqətini Qarabağın işğalına yönəltdi, həm də Azərbaycanın yanında olduğunu bir daha xatırlatdı. Eyni zamanda İsrailin baş naziri Binyamin Netanyahunun Azərbaycanla əməkdaşlığı genişləndirməsini xatırlatması Bakı - Təl-Əviv münasibətlərini pozmağa çalışan Ermənistana cavab oldu. Ancaq bütün bu çıxışların ardınca Azərbaycanın dövlət başçısının heç zaman olmadığı kimi, açıq mətnlə işğalçıya və ona havadarlıq edənlərə xəbərdarlıq etməsi BMT Baş Assambleyasının 72-ci sessiyasının əsas hadisələrindən biri kimi qiymətləndirilə bilər.

Təbii olaraq Azərbaycan prezidenti BMT-nin ali kürsüsündən bu qurumun Təhlükəsizlik Şurasının 24 ildir kağız üzərində qalan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı 4 qətnaməsini gündəmə gətirdi, qətnamələrə əməl etməyən Ermənistana qarşı sanksiyaların tətbiqini zəruri saydı. Ermənistan prezidenti Serj Sərkisyanın Azərbaycan əleyhinə yalanlar danışması, ölkəmizə qarşı iftiralar söyləməsinin ömrü cəmi bir neçə saat çəkdi və prezident Əliyev öz sərrast arqumentləri ilə onun nitqini darmadağın etdi. Bununla da Xocalı soyqırımı zamanı əli qadınların və uşaqların qanına batan bir şəxsin ədalətdən danışmağa haqqının olmadığını nəzərə çatdırdı. İlham Əliyev BMT-dəki çıxışında birmənalı şəkildə dedi ki, işğala və erməni separatçılarının cəbhə bölgəsindəki təxribatlarına, dinc əhalimizə qarşı təxribatlarına son qoyulmasa, Azərbaycan ordusu 2016-cı ilin aprel hücumunu yenidən təkrarlayacaq.

Bu xəbərdarlığa kimsədən etiraz, yaxud reaksiya olmadı. Hətta erməni tərəf də susqunluq nümayiş etdirdi. Deməli, dünya Ermənistanın işğalçı siyasətindən bezib və Azərbaycanın öz hüquqlarından istifadəsinə də normal yanaşır. “Lazım gəlsə, ötən ilin aprelində olduğu kimi, Ermənistan yenə cəzalandırılacaq. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn prinsipləri əsasında həll olunmalı, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir” - xəbərdarlığı, hər halda, Azərbaycanın hətta 5, ya 7 rayonun azadlığı müqabilində Dağlıq Qarabağın itirilməsi ilə barışmayacağı deməkdir, 200 dövlətin rəhbər şəxslərinin qarşısında bəyan olundu.

Bundan əlavə, Azərbaycan prezidenti sessiya çərçivəsində BMT baş katibi Antoniu Quterreşlə görüşüb. Baş katib Qarabağ münaqişəsi ilə bağlı narahatlığını bildirib. O ümidvar olduğunu bildirib ki ATƏT-in Minsk Qrupunun həmsədrləri münaqişənin nizamlanması üçün mümkün olan hər şeyi edəcəklər. Bundan əlavə, Azərbaycan prezidentinin amerikalı həmkarı Donald Trampla görüşü də mühüm hadisə oldu. Bütün bunlar Azərbaycan dövlətinin Qarabağla bağlı siyasətində də önəmli faktorlardandır.

**“Azərbaycan prezidentinin çıxışını son illər ərzində BMT Baş Assambleyasında səslənən ən cəsarətli və qətiyyətli çıxış kimi dəyərləndirirəm. Ona görə ki, dövlət başçısı təkcə münaqişənin həlli ilə bağlı beynəlxalq hüquqdan və öhdəliklərdən irəli gələn addımların atılmadığını, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra edilmədiyini vurğulamaqla kifayətlənmədi, həm də aprel döyüşlərini nümunə gətirməklə işğalçı sülhə məcbur edilməyəcəyi təqdirdə, hərbi əməliyyatların başlaya biləcəyi ehtimalını irəli sürdü, müharibə anonsunu verdi”.**

**Politoloq Elçin Mirzəbəyli “Yeni Müsavat”a açıqlamasında bunları bildirdi. Ekspertin sözlərinə görə, dövlət başçısı vacib olan mesajları verdi:** “Prezident hamının başa düşə biləcəyi şəkildə işğal altında olan Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad edilməsi ilə bağlı qətnamələri qəbul edənlərə bildirdi ki, buyurun, qəbul etdiyiniz sənədlərin həyata keçirilməsi istiqamətində müvafiq addımlar atın, əgər atmayacaqsınızsa, Azərbaycan BMT Nizamnaməsinin, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin və digər beynəlxalq sənədlərin müvafiq müddəalarına uyğun olaraq, öz suveren hüquqlarını əsas görürərək torpaqlarını işğaldan azad edəcək. Sərkisyanın yalanları Azərbaycan prezidentinin bir neçə cümləsi ilə alt-üst edildi. Onun Azərbaycan xalqına qarşı soyqırım həyata keçirən bir cani və hərbi diktator olduğu, ölkəsini feodal qanunları ilə idarə etdiyi və regionun digər dövlətlərinə də məhz bu dünyagörüşü çərçivəsindən yanaşdığı vurğulandı. Azərbaycanda multikultural ənənələrin bütün dünya üçün nümunə ola biləcəyi faktlarla vurğulandı”.

**E.Mirzəbəyli bildirdi ki, İsrailin baş nazirinin öz çıxışında Azərbaycan və Qazaxıstan kimi müsəlman ölkələri ilə əməkdaşlığı inkişaf etdirəcəklərini vurğulaması da həm prezidentin İlham Əliyevin çıxışında yer alan faktların təsdiqi, həm də dolayısıyla Sərkisyana cavab xarakteri daşıyırdı:** “Sərkisyan öz çıxışında Ermənistanda həyata keçirilən sosial-iqtisadi layihələr, görülən işlər barədə bir kəlmə də danışmadı. Çünki bu işlər yoxdur. Azərbaycan prezidenti isə son illər ərzində ölkəmizdə görülən işləri, Azərbaycanın təşəbbüsü və iştirakı ilə gerçəkləşən, eləcə də gerçəkləşməkdə olan qlobal enerji və nəqliyyat dəhlizləri layihələrini xatırlatmaqla Azərbaycanın Ermənistandan bütün sahələrdə dəfələrlə yüksəkdə dayandığını Baş Assambleyanın diqqətinə çatdırdı. Sərkisyan bu toplantıda tamamilə fiaskoya uğradı və qeyd edim ki, artıq Ermənistan mətbuatında bu barədə fikirlər səslənməkdədir”.

**İşğalçı ölkə başçısının BMT tribunasından eşidilən iddiaları bir daha təsdiqlədi ki, Ermənistan sülh yolu ilə təcavüzə son qoymaqda maraqlı deyil. Belə bir vəziyyət isə status-kvonun uzun müddət qalmasını mümkünsüz edir və müharibə riskini artırır. Politoloq E.Mirzəbəyli də bu perspektivi istisna etmir:** “Azərbaycan prezidenti kifayət qədər ciddi mesajlar verdi və hesab edirəm ki, ölkə başçısının çıxışından Ermənistan və bu işğalçı ölkənin himayəçiləri nəticə çıxaracaqlar. Azərbaycanın öz torpaqlarını işğaldan azad edəcəyi ilə bağlı qətiyyətli mövqeyi ortalıqdadır. Əgər Ermənistan yenidən danışıqlar prosesini pozmağa, təxribat törətməyə cəhd göstərəcəksə, o zaman işğalçının sülhə məcbur edilməsi üçün hərbi əməliyyatların keçirilməsi qaçılmaz olacaq”.

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu da savaş təhlükəsini real sayır:** “Beynəlxalq aləm və işğalçı dövlət növbəti aprelə hazırlaşmalıdır. Bunun baş verməməsi üçün Dağlıq Qarabağ ətrafındakı rayonlar qeyd-şərtsiz boşaldılmalıdır. Seçim Ermənistan hakimiyyətinin və ona təzyiq etmək istəməyən böyük dövlətlərindir”.

Politoloq qeyd etdi ki, prezident İlham Əliyevin BMT-nin 21 sentyabr sessiyasındakı çıxışı və orada toxunduğu tezislər bir neçə səbəbdən vacib idi: “Birincisi, İlham Əliyevdən əvvəl Ermənistan prezidenti Serj Sərkisyan BMT tribunasından çıxış edərək Azərbaycan əleyhinə yalanlar danışdı. Onun çıxışına cavab verilməli idi və İlham Əliyev Sərkisyanın çıxışını alt-üst etdi. Beynəlxalq aləmə Azərbaycan torpaqlarının işğalını konkret faktlarla anlatdı, Xocalı soyqırımını xatırlatdı və hər ikisində Ermənistanın hazırkı prezidentinin birbaşa iştirakını bildirdi. Bunun belə olduğunu Sərkisyan və erməni cəmiyyəti də bilir. Ona görə də Sərkisyan İlham Əliyevin çıxışına cavab olaraq qalxıb deyə bilməzdi ki, ”Azərbaycan torpaqlarını, o cümlədən Dağlıq Qarabağa aid olmayan torpaqları mən işğal etməmişəm və ya Xocalı əhalisinin qətliamında iştirak etməmişəm". İlham Əliyev BMT-dəki çıxışında birmənalı dedi ki, işğala və erməni separatçılarının cəbhə bölgəsindəki təxribatlarına son qoyulmasa, Azərbaycan ordusu 2016-cı ilin aprel hücumunu yenidən təkrarlayacaq".

**E.Şahinoğlunun qənaətincə, prezident Əliyevin bunu məhz BMT tribunasından deməsi vacib idi:** “Çünki beynəlxalq aləm elə bilməməlidir ki, biz əbədiyyətə qədər işğalla barışacağıq. Bizim güc yolundan istifadə etmək hüququmuz var və bu, elə BMT sənədlərində əks olunub. Bir dövlət başqasının torpaqlarını işğal etməməlidir, işğal edərsə, ona qarşı istənilən tədbir həyata keçirilə bilər. İkincisi, İlham Əliyev BMT tribunasından Azərbaycandakı iqtisadi islahatlardan, enerji və nəqliyyat layihələrindən danışdı. Bunun da xatırladılması yerində idi. Məsələn, Ermənistan prezidenti çıxışında ölkəsinin bir böyük layihədə iştirakından danışa bilmədi. Çünki belə bir layihə yoxdur. Azərbaycanın isə ideya daşıyıcısı və iştirakçısı olduğu və qonşularla birgə həyata keçirdiyi onlarla böyük regional layihəsi var. Bu layihələrdə Ermənistandan başqa Azərbaycana qonşu olan bütün ölkələr iştirak edir. Mənə elə gəlir ki, Azərbaycan prezidenti çıxışının bu yerində Ermənistanın niyə bu böyük layihələrdən kənarda qaldığını və işğaldan imtina edəcəyi halda bölgədəki əməkdaşlığın sərhədlərinin genişlənəcəyini xatırlatmalı idi. Bu, BMT-də onu dinləyənlərdə Azərbaycan torpaqlarının işğalının hamıya zərər verdiyi təsəvvürünü gücləndirmiş olardı”.

Azərbaycan təkcə diplomatik sahədə sözünü demir. Prezident BMT kürsüsündən xalqımızın mövqeyini ifadə etdiyi məqamda ordumuzun döyüş hazırlığı ilə bağlı paralel işlər aparılır. Müdafiə Nazirliyinin məlumatına görə, Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən keçirilən genişmiqyaslı təlimlərin döyüş atışlı əsas mərhələsi icra olunub. Məlumata görə, plana müvafiq olaraq bu mərhələdə artilleriya, hava hücumundan müdafiə vasitələri, aviasiya, eləcədə digər birləşmələr yeni silah və texnikanın tətbiqi ilə təlim-döyüş tapşırıqlarını yerinə yetirib.

**İşğalçı ölkədə isə narahatlıqlar artmaqdadır, bunu erməni ekspertlərin dedikləri də təsdiqləyir. Siyasi şərhçi Romella Mnasakyan iddia edir ki, Nalbəndyanın dedikləri ermənilər sakitləşdirməyə hesablanmış sözlərdir.** “Əslində isə Ermənistan məğlub olub, hakimiyyət məğlubiyyəti gizlətmək üçün primitiv fikirləri cəmiyyətə sırıyır. Ermənistan üçün hər şey kədərlə başa çatacaq”, - deyə o bildirib (publika.az)

Azərbaycanın 15 minlik canlı qüvvə və çoxsaylı hərbi texnika ilə genişmiqyaslı hərbi təlimləri, həmçinin Türkiyə - Azərbaycan birgə hərbi təlimləri, o cümlədən ölkəmizin Çexiyadan yeni silahlar alması Ermənistanı xeyli məyus edib. Xarici işlər naziri Edvard Nalbəndyan “Bu gün silah bazarı o dərəcədə qəddar bazara çevrilib ki, silah satıcıları özlərinə alıcı tapmaq üçün mübarizə aparırlar. Azərbaycanın isə pulu var”, - deyə diaspor təmsilçiləri qarşısında bildirib. Bununla o, həm ölkəsinin Azərbaycan ordusu qarşısında olduqca çətin durumda olduğunu demək istəyib, həm də dolayısı ilə erməni diasporuna pul mesajı verib...

YENİ MÜSAVAT
N 195 (6809) 22 sentyabr 2017



# Rusiyadan bizə dost çıxmaz! - ÜAK sindromu

Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Ümumrusiya Azərbaycanlıları Konqresinin (ÜAK) ləğvi rəsmiləşdi. Bəzi kövrək ümidlərə rəğmən, Moskva Azərbaycana qarşı xoş məram göstərmədi, bunu istəmədi və bizə növbəti pisliyini elədi. Sevinən isə ən çox ermənilər, onların Rusiyadakı diasporu və dünyadakı havadarları oldu təbii ki.**

Bu, işğalçı ölkəyə edilən növbəti yaxşılıq, reveransdır. Qarabağ məsələsində guya ədalətli, qərəzsiz vasitəçi olan Kremlin gerçək simasını göstərən, onun kimin maraqlarını üstün tutduğunu nümayiş etdirən daha bir mötəbər dəlildir.

Beləcə, ən bəd proqnoz nə idisə, o da doğruldu. Başa düşürük, bu, bizim tanıdığımız Putin, pardon, Çar Rusiyasıdırsa, erməniləri qoyub bizi tutası deyil ki. Ortada iki əsrlik neqativ təcrübə var. Sadəcə olaraq, Rusiya-Azərbaycan dostluğundan dəm vurmaqdan ağzı köpüklənən bəzi "5-ci kolon"çular indi nə deyəcəklər, maraqlısı həm də budur.

Hər necə olmasa, Putin istəsəydi, erməniyə-zada etina eləmədən ləğv prosesini dayandırardı. Bu, ondan ötrü su içimi kimi bir şey idi. Fəqət eləmədi. Niyə? Belə fikir var ki, Rusiya öz ərazisində 3 milyonluq böyük azərbaycanlı icmasının təşkilatlanmasını istəmir, bundan ehtiyatlanır. İkinci amil kimi isə erməni lobbisinin təsiri göstərilir.

Sözsüz ki, hər ikisi var. Bura üçüncünü - xristian amilini də əlavə eləmək lazım gəlir. Axı necə olur, xristian ermənilərin təşkilatlanması Moskvanı əsla narahat eləmir, onların lideri Ara Abramyanın yubiley törəninə Putin hətta Lavrovu, öz sözçüsü Peskovu göndərir, gəl ki, azərbaycanlıların ictimai təşkilatda birləşməsi Kremli təlaşlandırır?

Əlbəttə ki, din amili yox deyil. Ancaq bütün hallarda ÜAK-ın ləğvi Azərbaycana, rəsmi Bakıya dərs olmalıdır. Çünki bu - ikitərəfli münasibətlərin inkişafına zərbə vuran, bu prosesə dərin inamsızlıq yaradan ciddi hadisədir. Zira, ÜAK-ın ləğvi münasibətlərdə keçilməli olmayan "qırmızı xətt"lərdən idi.

Yəni bundan sonra belə bir sual üzərində dərindən düşünməliyik: Rusiya bizə strateji tərəfdaş ölkə, dost sayıla bilərmi? Daha çox erməni lobbisinin maraqlarını ifadə edən, 29 ildir Qarabağ konfliktini nizamlamaq istəməyən bir dövlətlə hərbi-texniki əməkdaşlığı, silah ticarətini davam etdirməyə, onun böhran keçirən büdcəsini Azərbaycanın neft dollarları hesabına zənginləşdirməyə necə, dəyərmi? Bizcə, dəyməz.

Artıq rəsmi Bakı XİN səviyyəsində olaya münasibət bildirib. ÜAK-ın ləğvinin qüvvəyə minməsi "qeyri-dost" addım adlandırılıb. Diplomatik dildə bu kifayət qədər sərt ifadədir. Məntiqlə indi Kreml bizə qarşı qeyri-dost münasibətdədirdə, o halda niyə də bundan sonra tutaq ki, onunla silah ticarətini minimuma endirməyək? O qədər müasir döyüş sistemləri istehsal edən ölkələr var ki. Biri elə İsrail. Hətta Ukraynanın özü bizə önəmli döyüş sistemləri sata bilər - həm də ucuz qiymətə.

İnanın, Bakının bu qərarı Moskvanı dərhal təlaşa salacaq. Çünki bu gün sanksiyalar girdabında qıvrılan Rusiya üçün hərbi-sənaye kompleksinin gəlirlə işləməsi büdcənin mədaxil hissəsini doldurmaq üçün vazkeçilməz amillərdən biridir, strateji sahədir. Niyə də biz Rusiyanın "zəif yerindən" bir azca basmayaq, əgər o bizimlə, öz mühüm silah tərəfdaşlarından biri ilə belə saygısız davranırsa.

Unutmayaq, təkcə son bir neçə ildə Azərbaycan Rusiyadan 5 milyard dollardan çox (!!) silah-sursat alıb. Bunu Azərbaycan başqa ölkələrdən də əldə edə bilərdi - hansını ki, prezident Vladimir Putin də çıxışlarının birində açıq etiraf eləmişdi: Moskvada Sərkisyanla görüşdə o, "Biz satmasaq, Azərbaycan başqa ölkələrdən alacaq" demişdi.

Qayıdaq Kremlin ÜAK pisliyinə. Biz bu pisliyi təbii ki, unutmayacağıq. Ən azı ona görə ki, belə bir rüsvayçı olay Rusiyadan bizə dost-tərəfdaş ölkə çıxmayacağı qənaətini daşlaşdırdı - o ki ola müttəfiq ölkə ola bilməsini.

Bəlli oldu ki, Rusiya sadəcə, bizim böyük, təhlükəli qonşumuzdur və onunla yalnızca ehtiyatlı davranmalıyıq. Rusiya xüsusən də özündən kiçik dövlətləri heç vaxt dost hesab eləmir, ən yaxşı halda onları vassal qismində görür - marionet Ermənistanın aqibəti görkdür.

Odur ki, Azərbaycan "şimal ayısı"nı qıcıqlandırmamaq şərtilə, dostlarını şimalda yox, başqa yerdə, ayrı ünvanda - Qərbdə, Şərqə axtarmaladır. Qərb dövlətləri, Avropa Birliyi ölkələri, ABŞ, qardaş Türkiyə, Pakistan, İsrail, Çin - bundan sona əlaqələrinə daha böyük, strateji önəm verməli olduğumuz dövlətlər bunlar olmalı! Özümüzü isə ən çox Rusiyadan qoruyaq!

Təşəkkürlər Kreml, ÜAK məsələsi üzərindən bizə dost-düşmənlərin dəqiq ünvanını göstərdiyinə görə!..

# Tanınmış iqtisadçı ölkənin qeyri-neft sektoru ilə bağlı bədbin danışdı

## İlham Şaban: "Ölkəyə valyuta gətirmək üçün pambıq əkək, ancaq nəticə haradadır?"

**Hökumət qeyri-neft sektoruna diqqəti nə qədər artırsa da, hələ ki ölkə iqtisadiyyatının lokomotivi neft sayılır. Qeyri-neft sektorunda aparılan islahatlar belə neft vəsaitləri hesabına həyata keçirilir. Neft gəlirlərinin davamlılığının sığortalanması baxımından yenidən imzalanan "Əsrin kontraktı"nın da rolu əvəzsizdir. Bu, Azərbaycan iqtisadiyyatının növbəti mərhələdə də ölkəyə daxil olan valyutadan məhrum olmamasının təminatıdır.**

Məsələ ilə bağlı "Yeni Müsavat"a açıqlamasında fikirlərini bildirən **Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban** iqtisadiyyatda neft vəsaitlərinin rolunu vurğulasa da, digər sahələrdə inkişafın daha zəruri olduğunu bildirdi: "Gəlin hesab edək ki, yeni imzalanmış müqavilə əvvəlkinin davamıdır. 2016-cı ildə ondan ölkəyə 5 milyard vəsait daxil olmuşdu, 2017-ci ildə qiymətlər təqribən 30 faiz yüksək oldu. Lakin bunun əvəzində hasilat azalmağa başladı. Yəni bu neft müqaviləsindən daxilolmaların 5,5 milyard civarında olması ehtimal olunur. Bundan sonra qiymətlər artsa da həcmlər aşağı enməyə meylli olacaq. Bu müqavilə çərçivəsində yeni tikiləcək platforma növbəti onilliyin əvvəlində hasilatın daha da aşağı düşməsinin qarşısını alacaq. Təqribən 5-6 il müddətində hasilatın müəyyən bir çərçivədə stabil qalmasına xidmət edəcək. Əvvəllər bizim gəlirimiz bundan orta hesabla 3 dəfə çox idi. Biz bunun bir hissəsini Neft Fondunda yığıma göndərirdik, digər hissəsini isə bol-bol xərcləyirdik. Son iki ildə xərcləmələri kifayət qədər azaltmışıq. Bununla da gördük ki, heç kim acından ölməsə də, inkişaf yetərincə getmir. Əvvəl bir çox göstəricilərə görə qonşularımızdan öndə idik. Ancaq indi vəziyyət heç də ürəkaçan deyil. Biz qonşu Gürcüstanla belə bu məsələdə özümüzü irəlidə gedən ölkə hesab edə bilmərik. Məsələ burasındadır ki, əgər bizim büdcəmiz 10 milyard manatdırsa, dollar hesabında iki dəfədən çox azalıbsa, neftdən gələn mənfəət gəlirimiz də onun yarısı qədərdirsə, onda biz necə deyə bilərik ki, neft bizim hər dərdimizin məlhəmidir?"

**İ.Şabanın sözlərinə görə, qeyri-neft sektorundan ixracı artırmaqla yanaşı, yeni bazarlar axtarılmalıdır:** "Əvvəlki illərdə daxil olan neft vəsaitləri hesabına ölkəmizin libası dəyişib, müasirləşib. Bunu heç kim inkar edə bilməz. İstər paytaxtın, istərsə də regionların görüntüsü kifayət qədər dəyişib. Ancaq məsələ bundadır ki, bu görülən işlərdən əlavə dəyər qazanılmadı. Növbəti mərhələ vəsaitlər elə yatırılmalıdır ki, əlavə dəyər qazanılsın. Ancaq biz hələ ki bunu etmək barədə strateji fikirləşmirik. Bizim hökumət 10 ildir ki, kənd təsərrüfatının inkişafına çalışır. Lakin düşünmür ki, bu sektorun gəliri Rusiya bazarındandır. Ancaq hökumət bazarı diversifikasiya etmir. Rusiya Türkiyə ilə münasibətlərindən sonra, Qərb ilə sanksiyalar məsələsindən sonra kənd təsərrüfatına milyardlarla investisiya qoyub və öz fermerləri üçün böyük imkanlar yaradıb. Bu imkanlar isə təqribən 2-3 il sonra bazarda özünü göstərəcək. Bu gün Rusiyanın cənubunda sitrus meyvələrindən tutmuş, kartofa kimi hər şey yetişir. Rusiya kartofu bizimkindən 3 dəfə ucuzdur. Artıq 2020-ci ildə azərbaycanlıların oraya apardıqları məhsullar yerli treyler məhsul aparıb satıbsa, onu elə təqdim edirik ki, guya biz həmin bazarı fəth etdik və milyonlar qazanırıq. Ancaq heç kim maraqlanmır ki, həmin bazardan bizim mənfəətimiz nə oldu".

**Ekspert vurğuladı ki, qeyri-neft sektorunda əsas diqqət ölkəyə daha çox valyuta gətirəcək sahələrə yönəldilməlidir:** "Ancaq neftin mənfəəti hər ay elan olunur. Azərbaycanın müstəqilliyi elan olunandan bəri mən heç bir sektorda mənfəət qazancı haqda açıqlama görmədim. İstər hökumətin nəzarətindəki şirkətlərdə, istər özəl şirkətlərin balansında mənfəət haqqında açıqlama verilmir. Sanki şirkətlər qorxur ki, mənfəətlərini açıqlasalar, kimsə onların əllərindən alacaq. Ölkənin 20 milyon əhalisi var və getdikcə artır. Hökumət bilməlidir ki, bütün dünya üzrə kənd təsərrüfatı ən gəlirli sahə sayılmır. Bu, əməkyönümlü sahədir, ancaq kapital gətirən sahə deyil. Həistehsalçıların rəqabəti ilə üzləşəcək. Bizim kənd təsərrüfatı məhsullarının ixracından qazancımız heç 500 milyona çatmır. Biz bu məsələlərə ciddi yanaşmırıq, yeni bazarlar axtarmırıq. Kimsə hansısa ölkəyə bir zırda sənayeləşmə məsələsi prioritet kimi ortaya qoyulmalıdır. Tekstil sənayesi də böyük qazanc gətirən sahə deyil. Türkiyədə yüzminlərlə insan çalışır, hər hansı paltar istehsal edir. Nəticədə isə 10 milyon dollar qazanılır. Ancaq yunanlar gəmiqayırma sahəsində bir super yaxtanı 3 aya tikirlər və onu 150 milyona satırlar. Ona görə də 75 milyon nəfərlik Türkiyənin ÜDM-i 800 milyon dollardır, ancaq 10 milyon əhalisi olan Yunanıstanın ÜDM-i 200 milyard avrodur. Heç kim hesablamır ki, hər hansı işdə adambaşına düşən faydalı iş əmsalı nədir. Azərbaycan isə 35 ildir dünyadan təcrid olunmuş və heç bir müasir texnikası olmayan İranla birgə müəssisə yaradır. Dünya elektrik avtomobillərin istehsalına gedir. Hökumət dünyada gedən trendi izləməlidir. Baxmalıdır ki, 2030-cu ildə nə olacaq, bütün mütəxəssisləri o istiqamətdə yönətməlidir ki, ən azı 2025-ci ildə bu prosesin astanasında olsun.



Ölkəyə valyuta gətirmək üçün pambıq əkininə keçmək olar, ancaq nəticə haradadır? Ölkəyə nə qədər vəsait daxil olub? Artıq sentyabr ayının ortasıdır. Ancaq bir yerdə pambıq statistikası, hesabatı açıqlanmayıb. Neft sektoruna o qədər innovativ, gələcəyə yönəlmiş layihələr var ki... Onun heç olmasa 10 faizini hökumət qeyri-neft sektoru üçün eləsə, çox böyük uğurlar əldə etmək olardı. Təəssüf ki, hələ də bizim lokomotivimiz neftdir".

❑ **Nərgiz LİFTİYEVA**

# Əli Ömərovun "müxalifətçiliyi"nin daha bir səbəbi bəlli oldu

## Oğlunun vəzifədən azad edilməsi sabiq baş prokuroru hiddətləndirib; o, indi də "mitinqdə radikal çıxış edənlər cəzalandırılmalıdır" bəyanatını verdi

**Bir neçə gün öncə sabiq baş prokuror Əli Ömərov 2014-cü ildən üzvü olduğu Yeni Azərbaycan Partiyasından istefa verib və ardınca da Milli Şuranın sentyabrın 23-nə təyin etdiyi mitinqi, həmçinin keçirilən bütün qanuni mitinqləri müdafiə etdiyini facebook səhifəsində yazıb. Daha sonra "Yeni Müsavat"a bu mövqeyini təsdiqləyən açıqlamalar verib.**

"Yeni Müsavat" isə onun açıqlamalarını dərc etməklə yanaşı, uzun illər susqunluq nümayiş etdirən və bir neçə il öncə mediaya açıqlamalar verməyə başlayan Əli Ömərovun birdən-birə YAP-dan istefa verməsinin başqa hansı səbəblərlə əlaqədar ola biləcəyi haqda bir neçə cümləlik qeyd yazıb. Qeyddə bildirilirdi ki, Əli Ömərovun istefası və ardınca müxalifətin mitinqini dəstəkləməsi heç bir halda təsadüfi hesab oluna, yaxud sabiq baş prokurorun səmimiyyəti kimi də görünə bilməz: "Ömərov praqmatik adamdır və gəlir-çıxarlarını dəqiqliyi ilə bilən adamdır. Bəs indi onu müxalifətə cəlb edən səbəb nədir? Bu barədə kiçik bir dəqiqləşdirmə apardıq və bəlli oldu ki, Ə.Ömərovun bu çılğınlığı sırf fərdi biznes maraqlarından doğan hərəkətdir. Onun və ailə üzvlərinin biznes şəbəkəsini genişləndirmək istəkləri baş tutmayıb və bu səbəbdən də Ömərov hökumətdən bu yolla acıq çıxır".

**Sentyabrın 21-də Əli Ömərov ölkə.az saytına açıqlama verərək biznesinin olmadığını bildirib, eyni zamanda bir gün öncə mitinqinə dəstək verdiyi Milli Şuraya üzv olmayacağını deyib, mitinqdə radikal çıxışlar edənləri isə cəzalandırmağa çağırıb:** "Bəzi qəzetlər yazır ki, guya mən biznes marağıma və sairəyə görə YAP-dan istefa vermişəm. Ancaq bütün bunlar yalan və böhtandır. Mənim heç bir biznesim yoxdur. Mən sıravi təqaüdçüyəm. YAP-dan da narazı olub çıxmamışam. Sadəcə olaraq, YAP-ın iclaslarına çağırılmadığım üçün partiyanı tərk etmişəm. Ancaq prezident İlham Əliyev hakimiyyətini sonadək dəstəkləyəcəm. Hər kəs tam əmin olsun ki, əgər Milli Şura və ya digər hər hansı müxalif partiyadan mənə üzv olmaq üçün dəvət gələrsə, qəti şəkildə rədd edəcəm. Mən heç zaman Milli Şuraya dəstək verməmişəm. Bundan sonra da verməyəcəm. Sadəcə olaraq, normal şəkildə qanuni, dövlətin icazə verdiyi mitinqi dəstəkləmişəm. Mənim kimi deputat Qüdrət Həsənquliyev də bu mitinqi dəstəkləyib. Mən istənilən qanuni, icazəli mitinqi dəstəkləyirəm. Bunu ayrı cür yozmaq doğru deyil. Mən açıq şəkildə deyirəm ki, əgər Milli Şuranın mitinqində kimsə hakimiyyət əleyhinə radikal və qanunsuz çağırışlar edərsə, təhqiredici ifadələr səsləndirərsə, onlar cəzalandırılmalıdır. Mən bunu bir hüquqşünas kimi açıq şəkildə bəyan edirəm".



Amma "Yeni Müsavat"ın əməkdaşlarının araşdırması nəticəsində isə Əli Ömərovun YAP-dan istefasının və "bir günlük müxalifətçi" olmasının daha bir səbəbinin olduğu ortaya çıxıb.

Məlum olub ki, Əli Ömərovun 2014-cü ildə hüquq-mühafizə orqanlarının birində işə götürülən oğlu işdə yol verdiyi ciddi nöqsanlara görə bu yaxınlarda işindən azad edilib. Ata Ömərov oğlunu işinə bərpa etdirmək üçün çox cəhdlər edib, bir neçə tanınmış YAP-çı deputatdan, vəzifəli şəxsdən xahiş eləyib. Lakin müsbət nəticə alınmayıb, xahişləri yerə salınıb. Bu isə onsuz da YAP-ın tədbirlərinə dəvət edilmədiyindən incik düşən sabiq baş prokurorun səbrini daşırıb. Və o, qərara gəlib ki, bəlkə yenidən "müxalifətçi" olsa onu geri qaytarmaq üçün YAP tərəfindən addımlar atılar və övladı işinə bərpa edilər. Çünki 2013-cü ildə işlətdiyi buna bənzər fənd ona müəyyən qazanc gətirmişdi. Bu dəfə gətirib-gətirməyəcəyi isə hələlik bəlli deyil.

❑ **Etibar SEYİDAĞA**

# MTRŞ: "ANS-in açılması mümkün deyil"

**Milli Televiziya və Radio Şurası (MTRŞ) ANS televiziyasının yenidən fəaliyyətə başlayacağı haqda şirkətin prezidenti Vahid Mustafayevin fikirlərinə münasibət bildirib.**

MTRŞ-nin Aparat rəhbəri Toğrul Məmmədov azvision.az -a bildirib ki, ANS TV-nin açılması mümkün deyil.

"Bu barədə Ali Məhkəmənin qərarı mövcuddur. Şuranın qərarı qüvvədə saxlanılıb. Bundan başqa daha nə demək olar? Faktiki olaraq şura qərarını verib. Məhkəmə tərəfindən qərara dəyişiklik olunmayıb" - T.Məmmədov ANS-lə bağlı məsələyə aydınlıq gətirib.

MTRŞ rəsmisi həmçinin əlavə edib ki, yaxın vaxtlarda Azərbaycanda yeni telekanalın yaradılması gözlənilmir.

Qeyd edək ki, Vahid Mustafayev müsahibəsinə ANS-in yenidən açılacağını bildirib.

# Kreml Qərbə qarşı "öz metodu" ilə mübarizə aparmağa hazırlaşır

## "Ankara-Moskva" Strateji Araşdırmalar Mərkəzinin eksperti Engin Özer deyir ki, Rusiya dövlətin analitik-informasiya sistemini dəyişir

**Rusiyada sistemdaxili "islahatlar" başlayıb. Daha dəqiqi, səlahiyyət bölgüsünün ayaq səsləri duyulmaqdadır. Əlbəttə, bunu gələn il keçiriləcək prezident seçkiləri ilə də əlaqələndirmək olar. Ancaq istənilən halda, artıq bir sıra addımlar var və bu addımlar formalaşmış elita daxilində, necə deyərlər, çaxnaşma yaradıb. Artıq bir neçə böyük şirkətlərin baş ofislərinə qəfil polis əməliyyatları həyata keçirilib.**

Bütün bunların mərkəzində isə Kreml rəhbərinin yeni sistem formalaşdırması dayanır. Qərblə, xüsusən də ABŞ və NATO ilə savaş vəziyyətində olan və beynəlxalq iqtisadi sanksiyalardan əziyyət çəkən Rusiya daha praktik, təcrübəli və elmi beyin mərkəzlərinə ehtiyac duymağa başlayıb.

"Ankara-Moskva" Strateji Araşdırmalar Mərkəzinin eksperti Engin Özer deyir ki, Rusiyada sovet dönəmindən bu yana Qərbdə olduğu kimi beyin mərkəzləri olmayıb. Bu funksiyanı bir qayda olaraq KQB və daha sonra FTX həyata keçirib. Bu günə qədər davam edən mexanizmdə dövlət rəhbərliyinin məsləhətçi-müşavir vəzifəsini FTX, yəni "çekistlər" həyata keçiriblər. Çünki kəşfiyyat dövlətin əsas etibar etdiyi. ən gizli informasiyalara malik olan qurum idi.

Ancaq indi vəziyyət dəyişib və necə deyərlər, köhnə sistem artıq işləmir. Çünki Rusiya hazırda xaricdən ciddi iqtisadi təzyiqlər altındadır, ölkə daxilində sosial, siyasi və iqtisadi sahədə ciddi analizlərə, təkliflərə ehtiyac var. Bu cür təklifləri isə FTX və ya Xarici Kəşfiyyat Xidmətinin ekspertləri verə bilmirlər.

E.Özerə görə, bunun iki səbəbi var. Birincisi, təbii səbəb. Yəni kəşfiyyatçılar ölkədə sosial, iqtisadi və siyasi məsələlərlə bağlı dolğun informasiyaya malik olsalar da, daha səmərələşdirici təkliflər, islahat layihələri ortaya qoya bilmirlər. Çünki birbaşa aid olmadıqları sahədir. İkinci mühüm səbəb isə ölkədə formalaşmış oliqarxiyadır. Çünki sovetlərdən sonra Rusiyada formalaşmış oliqarxiyanın başında əsasən kəşfiyyat orqanlarından çıxmış və ya hələ də ora bağlı olan şəxslər üstünlük təşkil edir. Yəni istər-istəməz dövlətin əsas analitik-informasiya mərkəzləri həm də oliqarxiya ilə birlikdədir. Bu isə ölkə rəhbərliyinin daha dəqiq informasiya əldə etməsi və ən əsası sosial, iqtisadi islahatlar həyata keçirməsi qarşısında ciddi maneədir. Daha bir səbəb isə ölkədə bütün sahələrdə nəzarətin kəşfiyyat orqanlarına tapşırılması onların necə deyərlər, öz sahələrinə diqqətini azaldır.



Bütün bunları nəzərə alanda Kreml ən optimal yolu seçib: dövlətin analitik və məsləhət sistemini daha da təkmilləşdirmək. Bunun ən bariz nümunəsi isə bir neçə ay əvvəl yaradılmış Sosial Araşdırmalar Ekspert Təşkilatıdır (SAET). Bu təşkilat 2017-ci il martın 20-də Rusiya prezidentinin sərəncamı ilə yaradılıb. Müstəqil ekspertlərdən formalaşan qurum Kremlin sifarişi əsasında araşdırma və analizlər hazırlayacaq. İlk vaxtlarda qurum sosial proseslərlə bağlı çalışacağını, ancaq daha sonra daha geniş sahələrdə çalışacağını bəyan edib. Ölkənin yeni beyin mərkəzinə Moskva Dövlət Universitetinin politologiya fakültəsi dekanı, professor Andrey Yuriyeviç Şutov rəhbərlik edir. Şutov eyni zamanda Rusiya Siyasi Analitiklər Birliyinin (ROP) sədridir.

Engin Özer deyir ki, Şutov o vəzifəyə Kremlin arzuladığı ən ideal insandır. Çünki mülki sahədən gəlir, akademikdir, cəmiyyətdə müsbət imici vardır. Digər tərəfdən, Ekspertlər Təşkilatında onun rəhbərliyi altında Rusiyanın tanınmış siyasi analitikləri çalışır. Bu isə Rusiyanın nüfuzlu ekspertlərinin Kremlin analitik mərkəzi üçün çalışması anlamına gəlir. Yeni qurumun əsas faydalı tərəflərindən biri də budur ki, bu mərkəz ənənədən kənara çıxacaq, ilk dəfə olaraq analizlər və təkliflər FTX və kəşfiyyatdan kənar qurumdan gələcək. Bu isə Özərə görə Rusiya tarixində mühüm hadisədir. **Sitat: "Daha açıq ifadə etsək, Kremlin bu qərarı Amerika hakimiyyətinin 50 ildir tətbiq etdiyi müstəqil və bəzən də əcnəbi ekspertlərdən məlumat və analizlər satın alma metodunu daha ağıllı və təsirli şəkildə tətbiq etməkdir. Bir tərəfdən də bu, Moskvanın Qərblə daha təsirli və necə deyərlər, öz metodları ilə mübarizə aparmağa hazırlaşdığını göstərir. Yeni qurum həm də Rusiya daxili və xarici ticarətində monopoliyanın aradan qaldırılması, Qərb mərkəzli təbliğata qarşı təsirli mübarizə vasitəsi olacaq və eləcə də gələcəkdə qurulacaq yeni beyin mərkəzlərinə liderlik edəcək".**

Engin Özər deyir ki, Kremlin yeni mülki strukturlaşma siyasəti və analitik fikrə önəm verməsi həm də Qərbdə Rusiya əleyhinə təbliğata qarşı kart kimi istifadə olunacaq. Çünki Qərb mediası Putin komandasının kəşfiyyatdan gəldiyini, dövləti məhz kəşfiyyatçıların idarə etdiyi haqda fikirlər formalaşdırırdılar. Bu addım eyni zamanda ölkə daxilində siyasi gərginliyi yumşaltmaq və dövlət aparatını mülki sahədən gələnlər hesabına gücləndirməyə xidmət edəcək. Həmçinin kəşfiyyat orqanlarının ictimai rəydəki nüfuzunun geri qaytarılması, sırf öz sahələrində çalışmaları və cəmiyyətdə neqativ fikri üzərlərindən atmalarına xidmət edəcək.

Qeyd edək ki, son günlər gələn məlumatlarda siyasi dairələrə yaxın iri şirkətlərdə keçirilən əməliyyatlar, yoxlama prosesləri və ehtimal olunan həbslər məhz yeni əsası qoyulmuş "səlahiyyət bölgüsü" prosesinin əks-sədası hesab edilə bilər. Ehtimal ki, qarşıdakı aylarda yeni dəyişikliklərə qarşı olanların bu və ya digər formada müqavimət cəhdlərinin, qruplara bağlı iri şirkətlərin təzyiqə məruz qalması prosesi olacaq. Ancaq fakt odur ki, hazırda siyasi iqtidar güclüdür və sistem daxilində nizamlamanı həyata keçirəcəyinə inanır.

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 195 (6809) 22 sentyabr 2017

# Bakıda sosial evlər: kimlərə və necə tikilir?

## Hazırda tikinti işləri sürətli şəkildə davam etdirilir; bu mənzilləri hamı üçün əlçatan deyil, çünki...

**Uzun müddət idi ki, ekspertlər, deputatlar və digər ictimai şəxslər Bakıda aztəminatlı ailələrin mənzil və məişət şəraitini yaxşılaşdırmaq üçün dövlət tərəfindən sosial evlərin tikilməli olduğunu vurğulayırdılar. Nəhayət, belə mənzillərin tikintisinə başlanıldı.**

Lakin qoyulan şərtlər gözlənildiyi kimi yumşaq olmadı. Məsələn, ipoteka kreditləri üzrə güzəştlərdən şəhid ailəsinin üzvü (əri/arvadı, övladları), Milli Qəhrəman (özü, əri/arvadı, övladları), məcburi köçkün və ya ona bərabər tutulan şəxs, üç ildən az olmayan müddətdə dövlət qulluqçusu işləyən şəxs, elmlər namizədi və ya doktoru elmi dərəcəsi olan şəxs, idman sahəsində xüsusi xidmətləri olan şəxslər (fəxri bədən tərbiyəsi və idman xadimi, ölkə miqyaslı yarışların qalibi (I yer), beynəlxalq miqyaslı yarışların mükafatçıları (I, II və III yerlər), üç ildən az olmayan müddətdə hərbi xidmətdə olan (müddətli həqiqi hərbi xidmətdə olan hərbi qulluqçulardan başqa), eləcə də ehtiyata və istefaya buraxılmış hərbi qulluqçular yararlana bilərlər.






Göründüyü kimi, bu evləri almaqdan əksər aztəminatlı ailələr məhrumdur. Eyni zamanda hərbiçilərə, məcburi köçkünlərə onsuz da dövlət tərəfindən mənzillər verilir. Ancaq buna baxmayaraq, bildirilir ki, sosial evlərlə bağlı layihələr davamlı olacaq və növbəti mərhələlərdə şərtlər xeyli asanlaşdırılacaq.

Mənzillərin təxminən 25-30 il müddətinə təklif ediləcəyi gözlənilir. Amma vətəndaş ödəmə qabiliyyətinin yüksəkliyinə əsasən daha az müddətə də ev götürə bilər. Layihəni həyata keçirən Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) məlumatına görə, ümumi sahəsi 11,6 hektar təşkil edən Yasamal Yaşayış Kompleksi 29 çoxmənzilli yaşayış binasından ibarət olacaq. Bunlardan 12-si birbloklu 12 mərtəbəli, 17-si isə ikibloklu 9 mərtəbəli olacaq. Kompleksin tikintisi başa çatdıqdan sonra ümumilikdə 1843 ailəni yeni mənzillə təmin etmək imkanı yaradılacaq. Bütün mənzillər tam təmirli vəziyyətdə və mətbəx mebeli ilə təchiz olunmuş şəkildə vətəndaşlara təklif olunacaq. Eyni zamanda ərazidə 960 yerlik ümumtəhsil məktəbi ilə yanaşı, 240 yerlik uşaq bağçası, ticarət mərkəzi, habelə müvafiq ictimai iaşə, məişət və digər xidmət obyektlərinin tikilərək istifadəyə verilməsi nəzərdə tutulub. Binaların tikintisinin 2018-ci ilin yayında yekunlaşacağı gözlənilir.

"Qanlı göl" yaxınlığında sosial evlərin inşa edildiyi ərazidə hazırda qızğın iş aparılır. Bir neçə bina ucaldılıb, bir neçəsinin bünövrəsi tökülüb. Onlarla usta və fəhlə həyəti günboyu dayanmadan evlərin tikintisini həyata keçirirlər. Ustalarla söhbətimiz zamanı onlar bildirdilər ki, hər gün səhər saatlarından axşam 18:00-a qədər işləyirlər. Evlərin keyfiyyətli və dözümlü olması üçün əllərindən gələni əsirgəmirlər.

Öyrəndik ki, evlər tikildikdən sonra ətraf ərazinin də abadlaşdırılması üçün lazımi addımlar atılacaq. Sosial evlər hazır olduqdan sonra burada digər infrastruktur da qurulacaq. Lakin hələ ki ərazidə bir dənə ağac belə yoxdur.

**İqtisadçı ekspert Rəşad Həsənov "Yeni Müsavat"a bildirib ki, əslində bu mənzillərə "sosial evlər" demək olmaz:** "Uyğun qiymətə mənzil strategiyasında nəzərdə tutulub ki, növbəti dövrlərdə əhalinin aztəminatlı sosial qruplarının mənzil təminatının yüksəldilməsi istiqamətində işlər daha da dərinləşdirilsin. Bir məsələ var ki, bu strategiyanın hazırlanması, MİDA-nın yaradılması və işlərin başladılması ölkənin maliyyə vəziyyətinin ürəkaçan olmayan dövrünə düşdü. Belə bir vəziyyətdə hökumət ödəniş qabiliyyəti olan insanlara bu mənzillərin verilməsinə çalışdı. Bir sıra hallarda bununla bağlı cəmiyyətdə fikirlər qarışır. Əslində bu layihə sosial mənzil layihəsi yox, uyğun qiymətə mənzil proyekti kimi diqqətə alınmalıdır. Çünki burada tələblər sosial mənzil yanaşmasına uyğun deyil. Hökumət məhz ilkin dövrlərdə, daha çox ödəniş qabiliyyəti olan insanlara mənzilin satışını nəzərdə tutur. Ancaq bunun özü bir müsbət haldır ki, artıq bu istiqamətdə müəyyən işlər görülməyə başlayıb. Hökumət ən azından MİDA MMC-ni yaratdı və müəyyən layihələrə start verildi. Bu layihələrdə artıq əhalinin müəyyən qrupları bazar qiymətindən aşağı mənzil ala biləcəklər. Burada eyni zamanda güzəştli ipoteka şərtlərinin tətbiqi qaydaları da müəyyənləşdirildi. Lakin həqiqətən də insanları narahat edən əsas məqam odur ki, alternativ qrupların bu imkanlardan istifadəsi hazırda mümkün deyil. Apardığımız müzakirələrdən məlum olur ki, dövlət qurumları, o cümlədən MİDA növbəti dövrlərdə kateqoriyaya daxil olan sosial qrupların siyahısını genişləndirməklə problemi aradan qaldırmağa çalışacaq. Bildiyimiz kimi, bu, qısamüddətli layihə deyil. Sonrakı dövrdə bu istiqamətdə fəaliyyətlər daha da genişlənəcək".

**Ekspert bildirib ki, xüsusilə də özəl sektorun bu layihəyə cəlbi dərinləşdirilməlidir:** "Məsələ əsasən onun üzərində qurulacaq ki, hər il MİDA tərəfindən daşınmaz əmlak bazarına 3 minə yaxın mənzil təklifi baş tutsun. Əgər hər il 3000 mənzil tikiləcəksə, bu zaman imkan yaranacaq ki, əhalinin nisbətən aztəminatlı sosial qrupları üçün daha uyğun şərtlərin tətbiqi mümkün olsun. Burada həmçinin ərazinin seçimi və digər məsələlər də əhəmiyyətlidir. Xərclər layihədə əsas məqamlardandır. Əgər növbəti layihələrdə şəhərətrafı zonalarda mənzillərin tikintisi təmin edilərsə, bu, maya dəyərini aşağı salacaq. Beləliklə də ola bilsin ki, güzəştlər daha da dərinləşdirilsin. Həmçinin layihənin maliyyə təminatı məsələsi də mühüm məqamdır. Hazırda çalışılır ki, layihəyə daha aşağı vəsaitlər cəlb olunsun. Əgər belə olacaqsa, o zaman MİDA-nın əlində əlavə imkanlar yaranır ki, uyğun qiymətə mənzillərin şərtlərini yumşaltmaqla əhalinin sosial müdafiəsini artırsın. Dediyimiz kimi, hazırda bu, sosial layihə deyil. Adından da göründüyü kimi, güzəştli mənzil layihəsidir və əsas faktor ödəniş qabiliyyətidir. Ona görə də sosial qrupların müəyyənləşməsində hökumət sadə yolu seçərək, güzəştli ipotekadan yararlanma imkanı olan bütün kateqoriyanı siyahıya daxil etdi".

❑ **Əli Rais**
**Fotolar müəllifindir**

# Dubaydakı uşaq oğurluğunun izi ilə - yeni gəlişmə

## Məhkəmələr oğurlanaraq Azərbaycana gətirilən azyaşlını anasına qaytarmaqda acizdir; ananı və nümayəndəsini ölkəmizdə həbs etdirmək istəyirlər

**Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Dubay Əmirliyinin prokurorluğunda Azərbaycan vətəndaşının adı keçən uşaq oğurluğu ilə bağlı istintaq işi yekunlaşmaq üzrədir. İş üzrə istintaqa təqsirli şəxs qismində dəvət olunan Davud Bağırov prokurorluğa getməkdən yayınır. Uşaq oğurluğu faktına görə başlanmış cinayət işi isə məhkəməyə göndərilmək üzrədir.**

Hazırda iş üzrə təqsirli şəxs qismində istintaqa cəlb olunan Qazaxıstan vətəndaşı Zarina Jaksenbayeva barəsində isə qərar dəyişməyib. O, məhkəmə baş tutana qədər Dubay Əmirliyinin ərazisini tərk edə bilməz. Yada salaq ki, Dubayda bank sektorunda çalışan Qırğızıstan vətəndaşı Merim Beishekeyeva Azərbaycan vətəndaşı Davud Bağırovu onun azyaşlı övladını oğurlamaqda ittiham edir. Merim Beishekeyeva övladı oğurlanandan sonra Dubayın hüquq-mühafizə orqanlarına müraciət edib. Bundan sonra uşaq oğurluğu faktına görə Dubay Prokurorluğunda cinayət işi başlanıb.

M.Beishekeyeva öyrənib ki, azyaşlı övladı Dubaydan Türkiyəyə, oradan isə Azərbaycana gətirilib. Buna görə də o, 2017-ci ilin fevralında Bakıda olub, övladının oğurlanması ilə bağlı ölkə başçısına, baş prokurora, Milli Məclisin sədrinə, ombudsmana, AQUP DK-nın sədri Hicran Hüseynovaya müraciətlər ünvanlayıb. M.Beishekiyevanın nümayəndəsi hüquqşünas Abdulla Əfəndizadədir. O, uşaq oğurluğu ilə bağlı mətbuatda dəfələrlə çıxışlar edib və iş üzrə Azərbaycan məhkəmələrində bir neçə iddia qaldırıb.



Hazırda Azərbaycan Ali Məhkəməsində hakim Əsəd Mirzəliyevin icraatında Dubay Əmirliyinin Ali Məhkəməsinin iş üzrə çıxardığı qərarın tanınması işi var. Həmin qərara əsasən, Merim Beishekeyevanın Davud Bağırova qarşı iddiası təmin olunub. Onların nikahı pozulub, azyaşlı Ceylanın anasının himayəsində qalması, Davud Bağırovun uşağı Merim Beishekeyevaya qaytarması, aliment ödənişi və digər tələblər təmin olunub.

M.Beishekeyevanın nümayəndəsi Abdulla Əfəndizadə deyir ki, Dubay Ali Məhkəməsinin qərarı Azərbaycan Ali Məhkəməsinə bu ilin iyununda daxil olub. Amma Azərbaycan Ali Məhkəməsi həmin qərarın tanınması üçün müvafiq tədbirlər görməyə tələsmir. Eyni zamanda Davud Bağırov həmin qərarın Azərbaycanda tanınmasına qədər Merim Beishekeyevanı və onun nümayəndəsi Abdulla Əfəndizadəni xüsusi ittiham qaydasında şikayəti üzrə həbs etdirmək istəyir.

A.Əfəndizadə deyir ki, Xətai Məhkəməsinə şikayət daxil olub və bir neçə saat sonra artıq ərizənin üstü yazılıb və hakim Bəxtiyar Məmmədova göndərilib. **"Bu tələskənlik əbəs deyil. Məqsədləri budur ki, Dubay Ali Məhkəməsinin qərarı Azərbaycan Ali Məhkəməsində tanınana qədər Merim Beishekeyeva və nümayəndəsi olaraq mənə qarşı hər hansı bir formada cinayət işi başlatsınlar" deyə vəkil bildirib.**

A.Əfəndizadə deyib ki, ölkə daxilində olduğu kimi, ölkə xaricində də nümayəndəsi olduğu M.Beishekeyevaya qarşı iş aparılır: **"Bişkekdə Zarina adlı bir qadını da Merim Beishekeyevaya qarşı istifadə edirlər. Həmin qadın M.Beishekeyevaya şər atır. Bundan əvvəl dəfələrlə müxtəlif qadınların adından Merim Beishekeyavaya qarşı hüquq-mühafizə orqanlarına şikayətlər göndərilib. Araşdırmalar göstərib ki, həmin şikayətlər şər-böhtandan başqa bir şey deyil. Merim Beishekeyeva heç vaxt şikayətlərdə iddia edildiyi kimi əxlaqsızlıqla məşğul olmayıb. Bundan əvvəl Aysel adlı qadın və onun bacısı şikayət yazmışdılar. Bu həmin Ayseldir ki, yalandan üzə durduğuna görə barəsində Dubay məhkəməsinin hökmü var. Bu məsələ yadlarına düşüb və şikayəti onun əxlaqında olan başqa bir qadının adından veriblər. Bütün bunlar uşağın qaçırılmasının gizlədilməsi, ört-basdır olunması, anasına qaytarılmaması üçün edilir. Digər tərəfdən də iş üzrə Dubay Ali Məhkəməsinin qərarı var və həmin qərar Azərbaycan Ali Məhkəməsində tanınmadadır. İnanıram ki, həmin əxlaqsız qadınlar və onları yönləndirən adamlar da ifşa olunacaqlar. Azərbaycanda keçirilən məhkəmələrdən birində Davud Bağırovun vəkilində bundan əvvəl Merimə qarşı şikayətçi qadının Bişkek polisinə müraciəti üzrə araşdırma aparılması haqda qərar vardı. Bu bizdə Bişkekdə baş verən şərləmə kampaniyasının haradan idarə edilməsi ilə bağlı əsaslı şübhələr yaradır".**

Bu qalmaqallı iş üzrə Azərbaycanda paralel olaraq məhkəmə müstəvisində bir neçə proses keçirilir. A.Əfəndizadə Azərbaycan məhkəmələrində üzləşdikləri qanunsuzluqlarla bağlı ədliyyə naziri, Məhkəmə Hüquq Şurasının sədri Fikrət Məmmədova da müraciət ünvanlayıb.

❑ **E.MƏMMƏDƏLİYEV**

***P.S*** *Yazıda adı hallanan hər kəsi dinləməyə hazırıq.*

YENİ MÜSAVAT
N 195(6809) 22 sentyabr 2017




**Cümə söhbətləri**

**Ruhun qılınc üzərində qələbəsini simvolizə edən Məhərrəm ayı daxil olur. Bu ay İmam Hüseynin (ə), onun qəhrəman ardıcıllarının Kərbəla çölündə öz şəhid qanları ilə yazdığı yenilməzlik salnaməsi ilə, İmam Zeynəlabidinin (ə), xanım Zeynəbin (s.ə) istibdad rejimini titrədən şücaəti, zalıma əsir düşmüş körpə balaların misilsiz səbir və dəyanəti ilə səciyyələnir.**

# Ən ağır zülm - müdafiəsiz insanı incitməkdir

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

Bu ay özündə şəhidlik zirvəsinin təntənəsindən vəcdə gələrək, manqurtluqdan, məğlubiyyət ab-havasından qurtulmağı insana qismət edir və eyni zamanda gerçək tövbə və riqqətlə dolu göz yaşları ilə insanın özünəqayıdışını, insanlıq cövhərinə sahib çıxmasını təmin edir. Allah Təala cəmi insanları bu ayın mahiyyətini qavrayıb, onun dəyərlərini yaşadanlardan qərar versin, inşəallah!

## Zəifə zülm edənə Allahın qəzəbi şiddətli olar

İslam dininin zalımlığa, zülmə münasibəti bəllidir. Allah Təala tərəfindən insana verilmiş haqlar var. Bunlar ictimai, siyasi, mədəni, iqtisadi, sosial və digər müstəvilərdə, insanlararası ünsiyyətlərdə, ailə daxilində mövcuddur və Yaradan tərəfindən toxunulmaz bir statusla müəyyən edilmişdir. Yəni insanların haqlarını pozmaq - Allahın qanunlarına təcavüz etmək, Allaha asi olmaq deməkdir və buna yol vermiş fərd, əslində özünü İlahi əzaba mübtəla etmiş olur.

**Rəsuli-Əkrəmdən (s) bu mövzuda nəql edilən hədisdə bildirilir:** «Allahdan başqa köməyi olmayan insana zülm edən şəxsə Allahın qəzəbi çox ağır olar».

Zülmün də, xətaların, səhvlərin də növləri var. Elə zülmlər, haqq basmalar vardır ki, bunlar toplumun ən müdafiəsiz hissəsinə, ən müdafiəsiz kateqoriyasına qarşı yönəlir. Bu halda Allah Təalanın o zülmkara qarşı hiddəti çox güclü olur. Və bu zülm, dünyada insanların nifrətinə səbəb olduğu kimi, axirətdə ələmli əzablarla, bəlkə də əbədi olaraq cəhənnəm atəşinə qərq olmaqla sonuclanacaqdır.

Düşünən insan üçün dinimiz böyük çəkindirmələr və xəbərdarlıqlar müəyyən etmişdir. Ani mənfəətlər, nəfsani istəklər xatirinə insanları bu təki zülmlərə məruz qoyanların əməlləri pislənir, onlar əmələn tövbəyə - zülmə məruz qoyduqları insanların haqqını qaytarmağa çağırılır.

**Həzrət Əlidən (ə) nəql edilən hədisdə bildirilir:** «Zəifə zülm etmək - zülmün ən murdar növüdür».



Zəif hökmündə ilk olaraq toplumun yaşlı üzvləri, ömrünü-gününü cəmiyyətin rifahı üçün sərf etmiş və qocalığında diqqətə ehtiyaclı olan insanlar, valideynləri itirmiş cocuqlar, əlillər, məişətini təmin edə bilməyən digər insanlar çıxış edir. Belə insanlara qarşı xüsusilə diqqətli olmaq, onların haqlarına xüsusi ehtiramla yanaşmaq gərəkdir. Müvafiq olaraq, belə müdafiəsizlərə zülm etmək dinimiz tərəfindən murdar bir əməl kimi qiymətləndirilir. Allah insanı bu cür zalımlığa mübtəla olmaqdan qorusun!

## Necə müvəqqəti bir minik - zülm miniyi...

**Cəzanın yetişməsinin sürəti baxımından da zəifə zülm etmək fərqləndirilir. «Hansı günahın cəzası günahkarlara daha tez çatar?» sualının cavabında Həzrət Əli (ə) buyurmuşdur:** «Allahdan başqa köməyi olmayan insana zülm edənə, nemətlərin haqqını yerinə yetirməkdə səhlənkar olana, yoxsula zülm və təcavüz əlini uzadana».

**Görürük ki, müdafiəsiz insana zülm, başqa bir müsətəvidən də pislənir. Digər bir hədisdə şəxsiyyətə qarşı hörmətsizlik mövzusuna toxunulur. İmam Əli (ə) buyurur ki:** «Ən çirkin zülmlərdən biri - alicənab insanlara zülm etməkdir».

Şəxsiyyətini, dəyanətini qoruyan insanlara kim zülm edir? Əlbəttə ki, şəxsiyyətsizlər, rəzil insanlar. Əllərinə təsadüfi bir qüdrət, vəzifə, mənsəb yetişən kəslər, şəxsiyyətli insanları aşağılamaqla öz miskin vücudlarını şadlandırırlar. Dinimiz belələrinə yönəli xəbərdarlıq ünvanlayır, onları bu cür əməllərdən çəkindirir.

**Digər tərəfdən, İslam dini zalımların dövrünün müvəqqətliyi barədə xəbərdarlıq edir və zülmün bir bumeranq təki zalıma qayıdacağını bildirir. Həzrət Əlidən (ə) bu mövzuda nəql edilir:** «Kim zülmün miniyinə qalxsa, miniyi onu başı üstə yerə çırpar».

Zalımlara qarşı ayıldıcı bir mesaj var burada. Tarix belə nümunələrlə doludur. Zaman-zaman zülm əhli gördüyü zülmlərin həyatındaca acısını dadmışdır. Pinoçetlər, səddamlar, beriyalar, çauşeskolar və digər uğursuzlar bu şərəfsiz siyahının «qəhrəmanları»dır. Onların özləri də, zülmlərinə yardımçılıq edənlər də dünyadaykən layiqli cəzalarına çatmışlar.

**Dinimizin zalımlara yönəli ayıldıcı göndərişlərindən birində İmam Əlinin (ə) mübarək bəlağətilə bildirilir:** «Zalım üçün ədalət günü, məzluma zülm olunan gündən daha ağırdır».

Bu dünya hamı üçün bir imtahandır. Odur ki, zülm edənlər - istər yaxınlarının, qonşularınını, istər camiənin, millətlərin haqqını pozanlar bilməlidir ki, onların müvəqqəti edə bildiyi zülmlərin onlar üçün çox acı aqibəti vardır. İnsan soruşulacaq öz səlahiyyətlərinin istifadəsi barədə, ona verilən nemətlərin tətbiqi barədə. Hərisliyinə, dünyapərəstliyinə, ayrı-ayrı miskin hisslərinə görə İlahi əmanət olaraq ona verilmiş ruhuna vurduğu yaralara görə məhşər ayağına çəkiləcəkdir.

## Halal ruzi qazanmaq - ibadətdəndir

Zülm tematikası baxımından, insanın camiədə öz yerini tutmamasını, müftəxorluq əhval-ruhiyyəsinə meyilliyini də qeyd etmək zəruridir. Ümumiyyətlə, İslam dini tərki-dünyalığı pisləyən, insanların camiədə yaşamasını, cəmiyyətin işlərində fəal iştirak etməsini təqdir edən bir təlimdir. Bu kontekstdə halal ruzinin qazanılması dinimiz tərəfindən xüsusilə bəyənilmişdir. Allahın Rəsulundan (s) nəql edilən hədisdə bildirilir: «İbadət 10 hissədir, onun doqquzu - halal ruzi axtarmaqdır».

Burada halal ruzi qazanmağın böyük əhəmiyyəti vurğulanır, insan zəhmətkeşliyə, quruculuğa dəvət edilir. Lakin dinimiz insanın mal-dövlət qazanmaqda qapanmasını da pisləyir. Bu işin hədəf deyil, normal yaşamaq üçün, cəmiyyətdə fəal mövqe tutmaq üçün, özünün, yaxınlarının rifahını təmin etmək, yoxsul və miskinlər üçün çeşidli sosial layihələri həyata keçirmək üçün bir vasitə olduğu bəyan edilir.

Bu baxımdan, halal ruzi ardınca getmək, imkanlı olmaq üçün dində bir təşviq olduğu kimi, bu işi hədəfə çevirməyin mənfi nəticələri barədə xəbərdarlıqlar da vardır. Rəsuli-Əkrəmdən (s) nəql edirlər: «Dinar və dirhəm sizdən öncəkiləri məhv etdi. Bu ikisi sizi də məhv edəndir».

Dinimiz bəyan edir ki, pulun, sərvətin ikili təbiəti vardır. Rifahı təmin edən amil olmaqla yanaşı, pulun zatında - hədəfə çevriləcəyi təqdirdə - insanı məhvə sürükləmək qabiliyyəti də mövcuddur.

Hər bir işdə olduğu kimi, ruzi qazanmaqda da əsas yeri niyyət tutur. Əgər insan ruzini halal hədəflər üçün, Allaha tapınmaq üçün əldə edirsə, bu, onu kamala aparan vasitədirsə - çox yaxşı, bu səylər ibadətdən sayılır. Amma əgər mal-dövlət əldə etmək insan üçün yaşam ünvanına, həyat amalına çevrilirsə - insan özünü məhvə sürükləmiş olur, həmin pulun, malın nökərinə çevrilir, bunlara xatir hər bir alçaqlığa gedir.

**İsa peyğəmbərdən (ə) çox mühüm mövzuda bir hədis nəql edilir:** «Dünyapərəstlərin var-dövlətinə baxmayın. Çünki, onların mal-dövlətinin parıltısı sizin imanınızın nurunu alar».

Görürsən, insan var ki, imkanından daha bahalı şey əldə etməyə meyil edir. Varını-yoxunu verib bahalı modelli mobil telefon alır, yaxud borca-xərcə girib təzə avtomobil alır. Özünü min bir əziyyətə salır ki, nə var-nə var, tamahı düşən bir şeyi əldə etsin. Bu həvəs, bu nəfsin oynamağı haradandır? Nə vaxtsa varlı şəxsdə bu şeylərdən görüb, parıltısı gözünü tutub, indi də həmin şeyi əldə etmək onun üçün həyati məqsədə çevrilmişdir. Görürsən, evinə həftədə bir dəfə ət apara bilmir, balalarına mer-meyvə ala bilmir, amma qiymətli bir əşya gözünü tutur və hər vasitə ilə onu əldə etməyə çalışır.

Adam da var, ömrünü yüksək amallar uğrunda mübarizəyə həsr edir, amma gözəl bir mənzilin, maşının parıltısı onu çaşdırır. Bu yol insanı necə də pis yerlərə apara bilər! İnsan vəzifəsini unuda bilər, zalımın nökərlərindən olmağa üstünlük verə, zülmün məddahına çevrilə bilər.

## Yoxsulluq - insan üçün vətəndə qürbət deməkdir

**Mövzunun davamında qeyd edək ki, halal insanla halal mal anlayışının qarşılıqlı uyğunluğu var. Allahın Rəsulundan (s) nəql edirlər:** «Düzgün insan üçün düzgün mal necə də yaxşıdır!».

İnsan bu müddəanı yaddan çıxarmamalı, özünə uyğun olmayan dəyərlərin ardınca getməməlidir. Amma deyildiyi kimi, halal ruzi qazanmaq dinimiz tərəfindən daima təşviq edilir.

**Həzrət Əlidən (ə) bununla bağlı nəql edirlər:** «Var-dövlət - qürbətdə vətən, yoxuslluq isə vətəndə qürbətdir».

Yəni imkansızlıq insanı öz vətənindəcə qərib edər. Vətən insan üçün yad olar, fikri-zikri bir qarın çörək əldə edib, güzəranını yola verməkdən ibarət olar. Buna səbəb bir çox amillər ola bilir. Burada şəxsi səmərəsizlikdən, tədbirsizlikdən tutmuş, toplumda əxlaqsızlığın, fəsadın yuva salmasına qədər çeşidli səbəblər vardır.

Bildirdiyimiz kimi, dinimiz insanı halal zəhmətə, çalışqanlığa, halal ticarətə stimullaşdırır. Bu sırada o cümlədən, İmam Səccaddan (ə) nəql edilən mübarək hədisi də göstərmək olar: «Maldan faydalanmaq (sərmayəni işə qoymaq) - kamil mərdlikdir».

Dinimiz hələ 1400 il bundan öncə sərmayəni lüzumsuz saxlamağı pisləmiş, onun işə buraxılmasına, iqtisadiyyatda dövr etməsinə üstünlük vermişdir. Bu amil şəxsi mənfəət gətirdiyi kimi, toplumun sağlamlaşmasını, iqtisadiyyatın ümumilikdə inkişafını, deməli ictimanın rifahının yüksəlişini də şərtləndirir.

**Qeyd etdik ki, insanların kasıblamasının, cəmiyyətdən xeyir-bərəkətin kəsilməsinin mühüm amillərindən biri də fəsadın ayaq açmasıdır. Həzrət Rəsulullahdan (s) nəql edirlər:** «4 şey var ki, onlardan hansı biri evə daxil olsa, onu viran edər və (o ev) bərəkətlə abadlaşmaz: xəyanət, oğurluq, şərab içmək və zina etmək».

Diqqət yetirsək, görərik ki, bu günahlar özlərinə yer alan toplumlarda xeyir-bərəkət kəsilir. İş o yerə çatır ki, burada haqların qorunmasından söz belə gedə bilmir. İnsanların iqtidarı qalmır öz haqlarını müdafiə etsinlər.

**Həzrət Əlidən (ə) nəql edirlər:** «Cinayətlər aşkar şəkildə ediləndə, bərəkətlər aradan gedir».

İnsanlar üçün əvvəl günah adiləşir, sonra günah normaya çevrilir, sonra günaha qarşı çıxanlar qıcıq yaradır və belə-belə, nəhayət toplum tamamilə pas bağlayır. Allah Təala cəmi bəşəri günaha mübtəla olub tənəzzülə uğramaqdan xilas etsin, inşəallah!

## Hüseyn (ə) məndəndir, mən də Hüseyndənəm (ə)...

Bir neçə kəlmə də daxil olan məhərrəm-səfər əyyamının önəmliliyi barədə qeyd edək. Dinimizin böyük arifləri bir kəlmə ilə bu ayların əhəmiyyətinə işarə etmişlər: «Hər nə varımızdır - məhərrəm-səfərdəndir».

Bu zaman kəsimində İslamın ana prinsipləri: mərdlik, şücaət, rəhimlilik, şəfqət, səbir, dönməzlik, qayğı o dərəcədə aşkar və güclü şəkildə təmsil edilmişdir ki, məhərrəmi anlayan - həqiqi İslamı anlamış olur. Uca Allahdan diləyirik ki, bizləri də, bütün iman əhlini də bu əyyamı dərk edənlərdən qərar versin, inşəallah!

Təbərrük üçün İmam Hüseyni (ə) tanıdan buyuruşlara diqqət edək.

**Allahın Peyğəmbəri (s) buyurub: «Hüseynə gəldikdə, o, məndəndir.**

**O, mənim övladım və balamdır.**

**O, qardaşından sonra insanların ən yaxşısıdır.**

**O, müsəlmanların imamı, möminlərin başçısı, aləmlərin Rəbbinin xəlifəsi, kömək istəyənlərin köməyi, pənah axtaranların pənahı və Allahın bütün yaratdıqları üçün höccətidir.**

**O, Cənnət cavanlarının başçısı və ümmətin nicat qapısıdır.**

**Onun əmri - mənim əmrim və ona tabe olmaq - mənə tabe olmaqdır. Kim ona itaət etsə - məndəndir və kim ona qarşı itaətsizlik etsə - məndən deyil».**

**Allahın Peyğəmbəri (s) buyurub:** «Kim yer üzünün göy əhli yanında ən sevimli şəxsinə baxmaq istəyirsə, Hüseynə baxsın».

**İmam Hüseyn (ə) Aşura günündəki kəlamlarının birində buyurmuşdur:** «Bilin! Bu haramzadə oğlu haramzadə məni iki yol arasında qoyub: qılınc və zillət! Zillətə qatlaşmaq bizdən çox-çox uzaqdır. Allah, Onun Peyğəmbəri, möminlər, (bizim tərbiyə olunduğumuz) pak ətəklər, qeyrətli qəlblər, alicənab ruhlar qəbul etməzlər ki, biz alçaq bir başçıya təslim olmağı şərəfli ölümdən üstün tutaq!»

**İmam Hüseyn (ə) Aşura günündəki kəlamlarının digər birində buyurmuşdur:** «And olsun Allaha ki, nə sizə zillət əli uzadacağam və nə də əsirlər, kölələr kimi qaçacağam!».

Bu dönəm xalqımızın qan yaddaşına əbədi olaraq həkk edilmişdir. Xalqımız əsrlər boyu Aşura məktəbindən bəhrələnərək, şəhidlik məfkurəsini yaşatmışdır. Məhz bu amil, xalqımıza şəhid vermək nemətini tanıtdırmış, millətin içində yüksək amallar uğunda öz həyatını qurban vermək əzmində olan insanları yetişdirmişdir. Uca Allahdan diləyimiz budur ki, əziz 20 Yanvar şəhidlərini də, Vətənimizin azadlığı uğrunda şəhid olmuş hər bir azadə insanı da Kərbəla şəhidləri ilə məhşur etsin!

**Allahım, bizləri Həzrət Peyğəmbər (s) və Əhli-Beytlə (ə) birgə qərar ver!**

**Allahım, müşkül və çətinliklərin həll olunmasını, xəstələrin şəfa tapmasını, yoxsulların, ahılların vəziyyətinin yaxşılaşmasını, əsirlərin azad olmasını, yağı düşmənlərin məğlub olmasını, işğal altında olan torpaqların azad olunmasını nəsib et!**

**Allahım, 12-ci İmam Həzrət Mehdi Sahib-əz-Zamanın (ə.f.) tezliklə zühur etməsini nəsib et! Amin!**

# YENİ MÜSAVAT

Son səhifə

N 195 (6809) 22 sentyabr 2017


# Yuxumuz 8 saatdan az və ya çox olanda nələr baş verir?

**Çoxsaylı araşdırmalar göstərir ki, yuxunun az olması bir çox sağlamlıq problemlərinə səbəb olur. Kaliforniya Universiteti (ABŞ) alimləri araşdırmalar nəticəsində belə qərara gəliblər ki, yuxunun həm azlığı, həm də artıqlığı insan sağlamlığına ciddi ziyan vurur.**



Alimlərin fikrinə görə, sağlamlığını qorumaq istəyən insan gecə 7-8 saat yatmalıdır. Xüsusi analizlər göstərib ki, bundan az və ya çox yatan insanların qanında xüsusi iltihab zülalların konsentrasiyası artmış olur. Bu zülalların artıqlığı bir çox xroniki xəstəliklərin, o cümlədən hipertoniya, diabet, artrit, astma və hətta bəzi xərçəng formalarının riskini artırır.

Alimlərin fikrinə görə, yuxu problemləri immun sisteminə mənfi təsir edir ki, bu da öz növbəsində bir sıra xəstəliklərin riskini xeyli artırır.

# Az yemək yeyən çox yaşayır

**Mütəxəssislərin müşahidələrinə görə, müasir insanlar onlara lazım olandan qat-qat çox kalori qəbul edir. Onlar az hərəkət edir, az fiziki iş görür və nəticədə az kalori sərf edir.**



Artıq kalorilər orqanizmə yalnız ziyan vurur - piylənməyə, metabolik pozulmalara, immun sisteminin zəifləməsinə, ürək-damar sistemi xəstəliklərinə və s. problemlərə səbəb olur.

Çoxsaylı araşdırmalar göstərib ki, müxtəlif ölkələrdə yaşayan uzunömürlülər həyatı boyu az qida qəbul edirdi.

Alimlərin son araşdırmalarına görə, qidalanmanın kalori miqdarının 30% azalması insan sağlamlığına çox müsbət təsir edir - bir çox ağır xəstəliklərin inkişafının qarşısını alır, ömrü uzadır.

Alimlər belə hesab edir ki, bu üsulla hipertoniya və şəkərli diabet kimi yayılmış və hər il milyonlarla insanın ölümünə səbəb olan xəstəlikləri müalicə etmək, xərçəng xəstəliklərinin qarşısını almaq mümkündür.

Az qida qəbul edən insanın orqanizmi yaxşı mənada stress yaşayır ki, bu zaman orqanizm qənaət rejiminə keçir və yalnız sağlam və yeni hüceyrələri "qidalandırır". Xəstə, köhnə, öz funksiyalarını normal yetirə bilməyən hüceyrələr isə qidasız qalır və tədricən ölür. Nəticədə orqanizm yenilənir, cavanlaşır, orqanizmdə daim əmələ gələn xərçəng hüceyrələri məhv olur.

Qidalanmanın azalması insanın immun sisteminə də müsbət təsir edir, onu daha fəal işləməyə vadar edir.

Bütün bunları nəzərə alaraq sağlam olmaq və çox yaşamaq üçün sadəcə, daha az yemək lazımdır.



# Uşağı ola bilməyənlər gəlincikləri övlad edir

**Britaniyanın Oksford şəhərində uşaq sahibi ola bilməyən cütlük oyuncaq uşaqlara baxır. Bu barədə lenta.ru saytı "Metro"ya istinadən xəbər verir. Ceyn Berri deyib ki, 22 yaşından bəri ana ola bilmir. Hazırda qadının 39 yaşı var və osteoporozdan əziyyət çəkir. 51 yaşlı əri ilə birlikdə 3 oyuncaq alıb və onları uşağı kimi böyüdür. Uşaqlarının adı isə Emi, Eşli və Xloyadır. Nəşrin yazdığına görə, ər-arvad oyuncaqları ilə birgə səyahət edir, onları gəzməyə çıxarır və yedizdirməyə çalışır. Hətta cütlüyün maşınında uşaq kreslosu da var: "İnsanlar bizə müxtəlif cür reaksiya verirlər. Bir çoxları hesab edirlər ki, biz, ümumiyyətlə, ağlımızı itirmişik. Bəzən də buna görə bizə aşağılayıcı mesajlar yazırlar. Amma başqalarının şəxsi həyatına qarışmayanlar da az deyil".**

Bu ilin fevral ayında isə məlum olmuşdu ki, Çinin Quyçjou əyalətinin sakini özünə intim gəlinciklərdən ailə düzəldib. O, bu gəlinciklərin geyim və aksesuarlarına 14.4 min dollar sərf edib.




**QOÇ** - Ümumi məziyyətlərinə görə uğurlu gün hesab etmək olar. Qarşılıqlı münasibətlərdə yaranmış müsbət çalarlar ovqatınızı xeyli yüksəldəcək. Yeni xəbər eşidəcəyiniz də mümkündür.

**BUĞA** - Qohumluq münasibətlərində səxavətli olmağınız məsləhət görülür. Hansısa şəxsi probleminizi qabartmaqdansa, daha bəşəri ideyalarla məşğul olun. Nəzərə alın ki, bu, sizə hədsiz savab qazandıra bilər.

**ƏKİZLƏR** - Səhhətinizlə bağlı xırda problemləriniz gözlənilsə də, özünüzə diqqət yetirməklə bu kimi mənfi fəsadları aradan qaldıra bilərsiniz. Çalışın ki, gün ərzində ağır fiziki işlərə girişməyəsiniz.

**XƏRÇƏNG** - Kollektiv gəzintilərə çıxmaq üçün əlverişli tarixdir. Buna əməl etməklə sürprizlərlə rastlaşacaqsınız. Günortadan sonra maraqlı situasiyaların iştirakçısına çevriləcəksiniz.

**ŞİR** - Saat 12-yə qədər hansısa ciddi işlərə girişməyin. Əks təqdirdə, xoşagəlməz situasiyalarla rastlaşacaqsınız. Nahardan sonra nüfuzlu şəxslərlə görüşləriniz sizə səmərə verəcək.

**QIZ** - Qəlbinizin məhəbbət guşəsinə baş vurmağınızı təvəqqe edən ulduzlar əsas gücünüzü sevgiyə yönəltməyi məsləhət görür. Dardüşüncəli insanlara əhəmiyyətsiz yanaşın. Gələcəyə ümidlə baxın.

**TƏRƏZİ** - Maliyyə baxımından düşərli gün olsa da, ümumi ovqatınızda gərginlik mümkündür. Lakin bu amil işgüzar sövdələşmələrdə və qərarlar qəbul etməkdə sizə mane olmayacaq.

**ƏQRƏB** - Yaxşı olar ki, əsas vaxtınızı ev şəraitində keçirəsiniz. Uzaq yola çıxmaq, riskli hərəkətlər etmək, yeni işlərə başlamaq məsləhət görülmür. Büdcənizdə isə artım gözlənilir.

**OXATAN** - Ulduzların düzümü əsasən səhhətinizə fikir verməyi məsləhət görür. Bunun üçün ilk növbədə əsəblərinizi qorumalı, hər dedi-qoduya fikir verməməlisiniz. Əsas vaxtınızı evdə keçirin.

**OĞLAQ** - İş yerində həmkarlarınızla müəyyən mübahisələriniz gözlənilir. Odur ki, özünüzü qalmaqallara istiqamətləndirməyin. Saat 16-dan sonra şəxsi işlərinizdə dönüş yarana bilər.

**SUTÖKƏN** - Ailə-sevgi münasibətlərində vəziyyət tamamilə xeyrinizə cərəyan edəcək. Kənar təsirlərə aludə olmayın. Köməyə ehtiyac duyan yaxınlarınıza sədaqətliliyinizi göstərin.

**BALIQLAR** - Maddi problemlərinizin qabarmasından narahat olmayın. Çünki yaxın günlərdə bu istiqamətdə uğurlarınız artacaq. Konkret olaraq bu günsə yalnız görəcəyiniz işləri konkretləşdirməlisiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Dünyanın ən qəribə hamiləliyi




**İngiltərənin Cənubi Qlosterşir qraflığındakı Yet şəhərində yaşayan 41 yaşlı Amanda Ross dükana alış-veriş üçün gedərkən marketin qarşısında qəflətən qarnında kəskin ağrılar başlayıb. Bağırsaq və ya mədəsində küt ağrılar başladığından şübhələnən Ross ərinə zəng vurub. Onun əri, 53 yaşlı Pol Din də xanımını Bristoldakı "South Hospital"a aparıb. Müayinə zamanı bəlli olub ki, Amanda Rossun ağrılarına səbəb mədə və ya bağırsaqdakı fəsadlar yox, hamiləlikdir. 41 yaşlı Amandanın hamilə olduğu aşkarlanandan 15 saat sonra isə o, qeysəriyyə yolu ilə doğub. 80 dəqiqə davam edən doğuş Pol və Amandaya qız bəxş edib. Valideynləri uşağa Xlo adını veriblər. "Müayinə zamanı həkimlər dedilər ki, hamiləliyin 7-ci, ya da 8-ci ayındayam. Onu da söylədilər ki, dərhal əməliyyat olunmalıyam, çünki hamiləliyim fəsadlı şəkildə başa çata bilər", - Amanda deyib. İlk nikahından iki övladı və iki nəvəsi olan Pol indi yenidən ata olmağına çox sevinir.**

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.